AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# HÜSEYN İSMAYILOV – 55

BAKI – 2009

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**Kitab Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu Elmi Şurasının qərarı ilə nəşr olunub.**

**TƏRTİBÇİ:** **Atəş ƏHMƏDLİ**

**REDAKTORU:** **Əziz ƏLƏKBƏRLİ**

**Hüseyn İsmayılov – 55,** Bakı, 2009, - 192 səh.

**A** $\frac{\mathbf{4603000000}}{\mathbf{N\text{-}098\text{-}2009}}$ **Qrifli nəşr**

© Folklor İnstitutu, 2009.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## TƏRTİBÇİDƏN

Bu kitabın ərsəyə gəlməsinə səbəb olan bir məqamı Hüseynsevərlərə açıqlamağı özümə borc bilirəm. Məqam o idi ki, mifoloq dostum Seyfəddin Rzasoyun Hüseyn müəllimin elmi yaradıcılığını dolğun əks elətdirən «Folklorlaşan alim ömrü» kitabı artıq ortalıqda idi. Ərkyana mənə də tövsiyyə etdi ki, vaxt ikən institut əməkdaşlarının Hüseyn müəllim haqqındakı düşüncələrini yazılı şəkildə onlardan toplamağa başla. Özün görəcəksən, bu proses tezliklə maraqlı bir kitabı meydana çıxaracaq. Əvvəl Seyfəddinin təklifinə düzəliş etmək istədim ki, sən öz töhfəni vermisən, bəlkə belə bir kitabı Hüseyn müəllimin altmış illiyində hazırlayaq. Allah ömür versin, elə bir zaman da qalmayıb altmışa. Əksər vaxt dostlara güzəştə getməyi bacaran Seyfəddin indi nədənsə təklifinin üstündə möhkəm dayandı. Düzü, bəzi tərəddüdlərim qalmışdısa da, onunla razılaşmalı oldum.

Kitab çapa hazırlanan ərəfədə Hüseyn müəllim qəfil xəstələndi. Xəstəlik amansız oldu! Hüseyn müəllim ölümlə olum arasında qaldı! Və ruhən duyğusallığı, insanlığa təmənnasızlığı, millətinə aşiqliyi onu ölümə əyilməyə qoymadı! Həqiqətin məntiqi formulu çox sadədir. **Bu munis təbiəti bəxş edən və onu qoruyan Allahdır!** Hüseynsevərlər bunu bir daha yaxşı fəhm etdi. On günlük ağır durumdan yenicə özünə qayıdan Hüseyn müəllimin dilinə gələn ilk kəlmə də Allah kəlməsi oldu!!!

İnanırıq ki, Tanrısını tanıyan bu insan tezliklə şəfa tapacaq, yenə əvvəlki axarı ilə neçə-neçə kitabların, təmənnasız xeyirxahlıqların müəllifi olacaq. İnanırıq ki, onun doğum gününə ərməğan elədiyimiz bu kiçik töhfəmiz onun sağalmasını sürətləndirəcək. Reallaşan bu işin ideya təməlçisinə də çox sağ ol deyirəm!

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Seyfəddinin bu ideyasını Hüseyn müəllimlə bölüşəndə bizə dedi ki, bilirsiniz, mənim dostlarım çoxdur, sadə insanlardan tutmuş rəsmilərədək. Ancaq istərdim ki, sadə iş adamlarının düşüncələrinə bu kitabda daha çox yer ayırasınız (Həm də dairəni mümkün qədər böyütməməyi bizə tövsiyyə etdi). Elə də oldu. Əksərən Folklor İnstitutunda çalışanların Hüseyn müəllim haqqındakı yazıları bu kitabda cəmləşdi.

Düzdür, bu prosesdən kənarda qalanlar da oldu. İnsafən, bu, bizim ucbatımızdan olmadı. Qalanı qalır subyektlərin insafına…

Umanların gümanı kəsilməsin… Allah ömür versə, altmışda görüşərik!

***1-2 noyabr 2008.***

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## REDAKTORDAN

Bu kitab görkəmli folklrşünas alim, filologiya elmləri doktoru, Azərbaycan MEA Folklor İnstitutunun direktoru Hüseyn İsmayılovun 55 illik yubileyinə həsr olunsa da, ona ənənəvi yubiley kitabı kimi baxmaq düzgün olmazdı.

Nə kitabdakı yazıların müəllifləri «yubiley müəllifləri»dir (yəni nə ancaq vəzifəli, titullu şəxslərdir), nə də onların yazdıqları «yubiley yazıları»dır (yəni nə də məzmunsuz, mənasız təriflər – tostlardır). Bu kitabda Azərbaycan MEA-nın prezidentindən tutmuş laboranta qədər ən müxtəlif insanların ürək sözləri toplanıb. Onların hamısını bir ad altında ümumiləşdirmək olar: Hüseynsevərlər.

Mən bu kitabı ilk növbədə Hüseyn müəllimin onillər boyu, xüsusilə də Dədə Qorqud adına Folklor Elmi Mədəni Mərkəzinin müdiri, sonra isə Folklor İnstitutunun direktoru kimi son illərdə qazandığı elmi və insani uğurların, hörmət və ehtiramın əməli nəticəsi, real bəhrəsi hesab edirəm. Kitabdakı məqalələrdə Hüseyn İsmayılov şəxsiyyətinə ən müxtəlif rakurslardan baxılmaqla bu böyük Şəxsiyyətin bütün parametrləri açılıb ortaya qoyulub: H.İsmayılov böyük alim kimi, böyük insan kimi, böyük təşkilatçı kimi, böyük dost, qardaş, gözəl ailə başçısı kimi və s. Ən əsası isə, bu yazılarda Hüseyn müəllim Xalqını, Vətənini və Dövlətini bütün varlığı ilə sevən bir Türk oğlu kimi səciyyələnib.

Hüseyn müəllimi yaxından tanıyanlar yaxşı bilir ki, o, ilk növbədə Ağbulaq aşiqidir, Göyçə aşiqidir, Qərbi Azərbaycan aşiqidir, Bütöv Azərbaycan aşiqidir, Türk dünyası aşiqidir, nəhayət, insanlıq aşiqidir, Tanrı aşiqidir. Bir fərd, bir alim, bir

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

şəxsiyyət haqqında bu qədər emosionallıqla, bu qədər şövqlə, bu qədər həyəcanla, bu qədər içdən, ürəkdən, candan belə səmimi sözlər deyilməsi, yazılması, vallah, xoşbəxtlikdir, xoşbəxtlikdir...

Mən həmişə özümü Hüseyn İsmayılovu ən yaxından tanıyanlardan hesab etmişəm. Bu kitabı əvvəldən axıradək diqqətlə oxuyub qurtardıqdan sonra Hüseyn müəllimi bir daha tanıdım, bir daha dərk etdim, bir daha kəşf etdim, bir daha sevdim...

***14 fevral 2009-cu il.***

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Mahmud KƏRİMOV,*
*AMEA-nın prezidenti, akademik*

# MÜASİR «FOLKLOR HƏRƏKATI»NIN RƏHBƏRİ

Bu, milli reallığımızın danılmaz həqiqətidir ki, Hüseyn İsmayılov çağdaş Azərbaycan folklorşünaslığının, Azərbayan humanitar-ictimai düşüncəsinin nəhəng simalarındandır. Onun bu istiqamətdəki həm çoxsaylı tədqiqatları, folklorşünaslığın müxtəlif problemlərinə həsr olunmuş araşdırmaları, həm də ümumən milli mədəniyyətimizin, cəmiyyətimizin, dövlətimizin aktual problemlərinə yönəlik titanik fəaliyyəti, xüsusən humanitar-nəzəri düşüncənin yeni hüdudlara qaldırılması sahəsində intellektual çalışmaları son illərdə humanitar tədqiqatların metodoloji strategiyasının müəyyənləşməsinə və yeni kursala istiqamətlənməsinə səbəb olmuşdur.

Qeyd edim ki, alimin araşdırmalarının əhəmiyyəti barədə müvafiq sahə mütəxəssisləri kifayət qədər yazmış və bu tədqiqatların əhəmiyyətini əsaslandırmışlar. Onların işığında H.İsmayılovun tədqiqatlarının bir cəhətini ayrıca qeyd etmək istərdim. İndi planetdə qloballaşma prosesləri sürətləndikcə etnik-milli dəyərlərə dönüş zərurətə çevrildiyi kimi, müasir sivilizasiyanın daha çox texnogen xarakter alması eyni zamanda mənəvi dəyərlərə dönüşü də zərurətə çevirmişdir. Dünyanın ayrı-ayrı xalqlarının tarixi inkişaf prosesi ərzində əldə etdikləri mənəvi-əxlaqi dəyərlər isə ən mükəmməl mənəvi sistem olaraq folklorda yaşayır. H. İsmayılovun tədqiqatlarında bu dəyərlərin qorunması, təbliği, çağdaş dünyanın mənəvi cəhətdən saflaşdırılmasının funksional mexanizmlərinə çevrilməsi açıq-aydın bilinən strategiyadır. Folklorşünas alimlərin, türkoloqların hamısına bəlli olan belə bir həqiqəti təkrarən bir daha demək istəyirəm ki,

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

folklor mənəvi dəyərlərin ən saf qorunduğu bir sahədir. Artıq bu aspektdən H. İsmayılovun gördüyü işlərin təkcə etnik-milli baxımdan əhəmiyyəti deyil, həm də ümumbəşəri əhəmiyyəti görünür.

Bir elmi müəssisə rəhbəri olaraq daim işgüzar ünsiyyətdə olduğum Hüseyn müəllimin təşkilatçılıq bacarığı, vətəndaş-ziyalı keyfiyyətləri üzərində də xüsusi dayanmaq istərdim. Hüseyn İsmayılov son dərəcə bacarıqlı bir elm təşkilatçısıdır. Artıq on beş ilə yaxındır ki, AMEA-nın İctimai-humanitar elmlər bölməsinin strukturunda Folklor İnstitutu humanitariyanın əsas elmi-intellektual ağırlıq mərkəzini təşkil edərək uğurla fəaliyyət göstərir. İnstitutun elmi və elmi-təşkilati sferadakı uğurlarının əsasında bütün varlığı ilə milli-mənəvi dəyərlərimizə bağlı olan Hüseyn İsmayılovun vətənə, millətə dərin sevgisi, dövlətə, dövlətçiliyə sədaqəti, tükənməz enerjisi, bilik və bacarığı dayanır. Öz mövcudluğunun ilk on ilini elmi mərkəz olaraq, son beş ilini institut olaraq yaşayan Folklor İnstitutunun əldə etdiyi elmi uğurlar rəsmi statistik kəmiyyət göstəricilərindən tutmuş, Azərbaycanın ictimai-mədəni gerçəkliyində yerinə yetirdiyi missiyanın məna və mahiyyətinə qədər son dərəcə böyükdür, geniş miqyaslıdır.

Ayrıca vurğulamaq istəyirəm ki, Hüseyn İsmayılovun rəhbərliyi ilə başlanan və uğurla davam etdirilən bu istiqamətdəki işləri ümummilli əhəmiyyəti baxımından «folklor hərəkatı» kimi ifadə etmək olar. Bu hərəkat özündə bir-biri ilə qarşılıqlı əlaqədə olan müxtəlif istiqamətlərin vəhdətini əks etdirir:

– Azərbaycanın mövcud bölgələrindən, o cümlədən tarixi Azərbaycanın bölgələrindən, türk dünyasından folklor toplanır;

– İnstitutun professional mütəxəssisləri tərəfindən sistemləşdirilir, kataloqlaşdırılır, nəşr edilir, geniş oxucu kütləsinə təqdim olunur;

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

– Bu materiallar əsasında müasir elmi səviyyəyə uyğun tədqiqatlar aparılır.

İnstitutda nəşr olunan regional folklor antologiyalarının sayı iyirmini keçməkdədir, 100 cildlik folklor külliyyatının 1 il ərzində 10-a yaxın cildi nəşr olunubdur. Elmi monoqrafiyaların sayı-hesabı yoxdur. İnstitutda xeyli sayda elmi dərgi nəşr olunur. Bütün bunlardan əlavə institutda canlı, daim dinamik hərəkətdə olan elmi mühit var. Müzakirələr, simpoziumlar, televiziya çıxışları, beynəlxalq konfranslar... Bütün bu sadalananlar Hüseyn İsmayılovun rəhbərliyi ilə «folklor hərəkatının» hələ burada tam göstərə bilmədiyim mənzərəsidir.

Bu tədbirlər içərisində birini xüsusi qeyd etmək istərdik: «Ortaq türk keçmişindən ortaq türk gələcəyinə» beynəlxalq folklor konfransı. AMEA Folklor İnstitutu artıq beş ildir ki, türk dünyasının bütövləşməsi, mədəni dəyərlərin ortaqlaşması missiyasına xidmət edən «Ortaq türk keçmişindən ortaq türk gələcəyinə» adlı beynəlxalq konfransda türk dünyasının elmi elitasını Bakıya toplayır. Hər bir işin faydalılıq əmsalı onun aydın müəyyənləşdirilmiş məqsədinin, məqsədə doğru yönələn fəaliyyətin miqyaslılığı ilə bərabər, bu işin davamlılığından və fasiləsizliyindən də asılıdır. Beş il müddətində konfransın fasiləsizliyi və davamlılılığı bir daha onu sübut edir ki, tədbirin adında ifadə olunan məqsəd Hüseyn İsmayılov üçün, Folklor İnstitutunun alimləri, eləcə də bu konfransın ətrafına topladığı türk elmi elitası üçün ümummilli səviyyədə dərk olunmuş missiyadır: uzaq hədəflərə hesablanmış uzunmüddətli strategiyadır.

İndi dünyada gedən ictimai-siyasi proseslər Avrasiyada tamamilə yeni, sivil dünyanın qəbul və təsbit etdiyi etnik-mədəni və sosial-siyasi modeldə türk etnik arealının yaranması üçün son dərəcə əlverişli şərait yaratmışdır. Qərbli mütəfəkkirlər və sosioloqlar kontinentlərarası dialoqların nəticəsində sintez sivi-

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

lizasiyasının yaranmasını proqnozlaşdırırlar. Türk xalqlarının tarix boyu yaratdığı dəyərlərin müasir humanist dünyanın harmoniyasının qorunmasında iştirakına nail olmaq üçün qloballaşma prosesesinə ortaq türk bütövü kimi daxil olmaq lazımdır. Bu istiqamətdə Azərbaycan tərəfindən görülən işlərin, tam məsuliyyətlə demək olar ki, əsas ağırlıq mərkəzlərindən biri Folklor İnstitutudur.

Azərbaycanın həm etnik-mədəni, həm də sosial-siyasi baxımdan türk dünyası ilə birləşməsi ideyası dövlətimizin ümummilli lideri, müstəqil Azərbaycanın qurucusu H. Əliyev tərəfindən müəyyənləşdirilmiş siyasi kursunun elmdəki əks-sədasıdır. Dövlətimizin ideoloji maraqlarını özünün əsas fəaliyyət istiqaməti kimi götürən Folklor İnstitutu bu istiqamətdə şəksiz avanqard rolunu oynayır.

Son dərəcə böyük iqtisadi, intellektual, mədəni-mənəvi potensiala malik olan türk dünyasının ortaqlaşması – bu potensialın vahid bir gücə çevrilməsi prosesi etnokulturoloji və sosioloji baxımdan mürəkkəbliklərlə müşayiət olunur. Türk toplumlarının məskunlaşdığı coğrafi ərazilər yalnız iqtisadi potensial baxımından, yerüstü və yeraltı sərvətlərlərinə görə zəngin deyildir. Bu ərazilərdə mənəvi resuslar da tarixən zəngin olmuş, bu gün də zəngin olaraq qalmaqdadır. Hüseyn İsmayılovun ideya rəhbərliyi, təşkilatçılığı ilə keçirilən beynəlxalq miqyaslı tədbirlərdə əsas məqsədlərdən biri də türk xalqlarının tarixi proseslər nəticəsində parçalanmış mənəvi resurslarını birləşdirmək, dünya humanitar düşüncəsində layiqli mövqe tutmağın elmi strategiyasını müəyyənləşdirməkdir.

Hüseyn İsmayılovun bir vətəndaş-ziyalı olaraq ümummilli əhəmiyyətli işlərindən, Folklor İnstitutunun uğurlarından böyük qürur və sevinclə danışdığım zaman qəlbimdəki narahatçılıqları da ifadə etməyə bilmirəm. Hüseyn müəllim hazırda səhhətində

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

yaranan problemlərlə bağlı müalicə prosesindədir. Ancaq bütün işlərində Ulu Tanrının ona yardımçı olduğu kimi, bu dəfə də onu həyat imtahanından üzüağ çıxaracağına inanır və bizim bir yerdə başladığımız işləri, işgüzar əməkdaşlığımızı yeni mərhələdə daha böyük uğurla davam etdirmək üçün ona tezliklə sağalmağı, sıralarımıza qayıtmağı arzulayıram!

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Tofiq HACIYEV,*
*AMEA-nın müxbir üzvü,*
*filologiya elmləri doktoru, professor*

## TƏŞKİLATÇILIQLA ELMİ SƏVİYYƏ BİRLƏŞƏNDƏ

Elmi idarədə təşkilatçılıqla yüksək elmi səviyyə birləşəndə həm idarədə elmi işlər öz axarına düşər, həm də ayrı-ayrı elm adamları idarəçiyə baxıb o səviyyədə köklənməyə çalışar. Mən bu təcrübəni mərhum dostum, filologiyamızın istedadlı şəxsi və ədəbiyyatşünaslığımızın böyük təşkilatçısı professor Yaşar Qarayevin həyatında görmüşəm. Bu istedadlı alim çox məhsuldar və yüksək nəzəri səviyyəli yaradıcılığı ilə yanaşı, həm də Ədəbiyyat İnstitutunda keçirdiyi saysız elmi tədbirləri ilə diqqəti çəkirdi. Onun İran İslam Respublikasına dəfələrlə təşkil etdiyi və Azərbaycan elminin yüksək səviyyəsini qonşu dövlətin elmi auditoriyalarında nümayiş etdirdiyi «səyyar» beynəlxalq elmi konfransların şahidi və iştirakçısı olmuşam. Elə institutun özündə keçirdiyi Azərbaycan mühacirət ədəbiyyatı kimi beynəlxalq məclisləri, Azərbaycan ədəbiyyatı klassiklərinin yubiley toplantılarını, müasir ədəbi prosesin adlı-sanlı nümayəndələri ilə görüşləri çox görmüşəm. AMEA-nın bugünkü Folklor İnstitutu Ədəbiyyat İnstitutundan ayrılıb müstəqilləşərkən Yaşar Qarayevin həmin iş təcrübəsini özü üçün fəaliyyət devizi götürdü. Bu baxımdan mən Ədəbiyyat İnstitutu ilə Folklor İnstitutu arasında sələf-xələflik, bu cavan institutun rəhbəri, filologiya elmləri doktoru Hüseyn İsmayılovla Yaşar Qarayev arasında ustad-tələbə münasibətləri görürəm. Yaşar Qarayevdən miras qalan «Ortaq türk keçmişindən ortaq türk gələcəyinə» adlı beynəlxalq elm forumunu neçə illərdir ki, Folklor İnstitutu davam etdirir və bu

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

yığıncağı məhz qurultay səviyyəsində keçirir. Bu toplantı-qurultayla Folklor İnstitutu bu gün türk dünyasının elmi əlaqələnməsini təşkil edir. Saxadan, Altaydan Anadoluya, Kiprə, Balkanlara qədər, Qazandan Təbrizə qədər böyük coğrafiyanın folklor toplayıcılarını və araşdırıcılarını Folklor İnstitutu hər il bir araya toplayır. Bu toplantılarda müxtəlif elm mərkəzlərinin nümayəndələri türk şifahi yaradıcılıq nümunələrinin simasında öz ulu babalarının ortaq olmuş olmalarının bir daha şahidi olurlar və bu duyğu onları ortaq gələcək yolunda səfərbər edir.

Bu gün Folklor İnstitutunda fəaliyyət göstərən «İrs» musiqi qrupunda da, hər il keçirilən Dədə Qorqud və Aşıq Ələsgər günlərinin fasiləsizliyində də Yaşarın nəfəsi duyulur, Hüseyn bu nəfəsin saflığını qoruyub saxlayır.

Folklor İnstitutunun bugünkü fəaliyyəti heyrətləndirici dərəcədə məhsuldar və gələcəklidir. İnstitutun yaradıcılıq planı çox uğurludur – ümumiləşdirmə yolu ilə gedir: bölgələrin folklor antologiyaları buraxılır və bunun ardınca da toplanmış materiallar ümumiləşdirilərək yüz cildlik nəhəng Azərbaycan folklor nəşri hazırlanır. Bu, İnstitutun xalq üçün, dövlətçilik üçün əzmlə, böyük fədakarlıqla çalışdığını göstərir. Bu böyük milli məzmunlu iş İnstitutun cavan direktoru (demək, hələ ehtiyat enerjisi çoxdur) Hüseyn İsmayılovun vətəndaşlıq duyğusunun, folklor biliyinin və təşkilatçılıq istedadının birliyi sayəsində mümkün olur.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Sədnik Paşa PİRSULTANLI,*
*Gəncə Dövlət Universitetinin professoru*

## ALİM DOSTUM HÜSEYN İSMAYILOV, YAŞ GÜNÜNÜZ MÜBARƏK!

Hüseyn İsmayılov bir alim kimi gözlərimiz önündə pillə-pillə ucalır, müdrikləşir, öz kamal və düşüncəsi ilə folklorşünaslar sırasında öz yerini, mövqeyini müəyyənləşdirir.

Hüseyn İsmayılov Göyçədən Bakıya gələndən sonra öz arzusu, yaxşı insanların köməyi ilə Folklor Mərkəzini yaratdı. Bu sahədə məşəl yandırdı. Bu məşəlin işığı hər yana yayıldı. Ümummilli liderimiz Heydər Əliyevin xeyir-duası ilə Folklor Mərkəzi Folklor İnstitutuna çevrildi. Bu məbədin işığına hər yerdən elmi konfranslara alimlər gəldi. Hüseyn müəllimin təşəbbüsü ilə Folklor İnstitutuna Müdafiə Şurası verildi. Elmə gələn gənclərə namizədlik, doktorluq almaq üçün Bisutun kimi dağları yarıb, Hüseyn müəllim yol açdı. Bu Hüseyn müəllimin yaddan çıxmaz tarixi xidmətidir. Mən Hüseynin doğulub boya-başa çatdığı Göyçə mahalını çox gənc yaşlarımdan gəzib-dolaşmışam. Göyçə torpağı ilə yarım əsrdən çox ünsiyyətim var. Hüseynin sevdiyi Göyçə gölün sahilində, Çalmalı dağında, Alagöllərdə, İnəkdağında, onun doğulduğu Ağbulaqda, Əyricə dağında zaman-zaman olmuşam. Onlar haqqında çox sayda şeirlər də yazmışam. Mən şair doğulmuşam. Hüseyn müəllimin yaş gününü şeirimlə əbədiləşdirməsəm, insafsızlıq olar. Aşağıdakı yeddi bəndlik qoşmanı Hüseyn müəllimə ithaf edirəm.

### HÜSEYNİM

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Körpəlikdən sevdin Göyçə elini,
Nərgiz-bənövşəsin, qönçə gülünü,
Şirin ləhcəsini, şeir dilini,
Yurdundan ilhamın alan Hüseynim.

Göyçə göl anandır, Çalmalı atan,
Gözəllər gözəli Ağbulaq butan,
Əyricə dağının damənin tutan,
Vətəni qürbətdə qalan Hüseynim.

Göyçədən gələndə nələr gətirdin?
Neçə kitab, neçə əsər gətirdin?
Göyçə boyda bir Ələsgər gətirdin,
Ələsgər sazını çalan Hüseynim.

Ürəyində Miskin Abdal odu var,
Damağında sözlərinin dadı var,
Hər kəsin həyatda bir ustadı var,
Pir ustadı Abdal olan Hüseynim.

Yaddan çıxmaz Seyid Bayram ocağı,
Yaddan çıxmaz Alagöllər yaylağı,
Dağı- daşı igidlərin oylağı,
Dərin xəyallara dalan Hüseynim.

Ölkələr dolanıb, ellər gəzmişəm,
Gördüyümü ipə-sapa düzmüşəm,
Bu qoşmanı yaş gününə yazmışam,
Tarixlərə izin salan Hüseynim.
Sədnik çıxdı Qaradağın döşünə,
Səcdə qıldı torpağına, daşına,
Miskin Abdal ocağının başına,

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Mən dolanım, sən də dolan, Hüseynim.

Hüseyn İsmayılov, 55 yaşın mübarək, yubileyini təbrik edirəm. Allah Sizə möhkəm can sağlığı versin. Başladığınız işlər uğurlu olsun. Gün o gün olsun ki, yüz yaşlı yubileyinizə də şeirlə gəlim.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Məhərrəm CƏFƏRLİ,*
*filologiya elmləri doktoru*

## HÜSEYN İSMAYILOV VƏ MİLLİ POEZİYANIN ULU QAYNAQLARI

Azərbaycan milli-poetik düşüncəsi bütün hallarda ilahi qaynaqlarla bağlı olub. Kainatın yaradıcısı öz poetik obrazı ilə poeziyamızda onun mifik başlanğıcından tutmuş bu gününə qədər daim iştirak edib. Ona görə də milli-poetik düşüncədə söz həmişə müqəddəs tutulub. Onun daşıyıcıları olanlar da öz şəxsiyyətləri ilə bu müqəddəslik məqamının yolçuları olublar. Şeirimizin tarixi belə övliya simalarla zəngindir. Onların təşkil etdiyi ilahi söz silsiləsi Tanrı ilə İnsan arasında körpü olub. Bu silsilənin ilahi əsrarəngizliyinin əsiri olub, onu Tanrı adına bütün ömrü boyu arayıb-axtaranların bəxtinə Tanrı öz xoş nəzərini həmişə salıb. Filologiya elmləri doktoru, Azərbaycan türklüyünün kristal ənənələrinin daşıyıcısı Hüseyn İsmayılov da ilahi sözün sorağı ilə uzun illər axtarışlar aparmış və nəhayət, milli poeziyamızın övliyası, şeirimizin müstəqilliyinin ulu yolunun yolçularından biri Miskin Abdalın ədəbi yurdu könüllər olan poeziyasını bu övliyanın adına layiq şəkildə bir kitab olaraq («Miskin Abdal». Toplayanı, tərtib edəni, ön söz, qeyd və izahların müəllifi: H.İsmayılovdur) poeziyamıza qaytara bilmişdir. Haqqında fraqmentlər, məlumatlar verilən, şeirləri mətbuata «reseptlə» çıxarılmış bu ulu şairin yaradıcılığının toplanması, onunla bağlı dastanların, folklor informasiyasının tarixə özəl daşıyıcıları olan Göyçə aşıqlarından qeydə alınması H.İsmayılov tərəfindən əslində təkcə toplayıcılıq, yaxud normal folkloşünaslıq fəaliyyəti yox, eyni zamanda milli-mənəvi varlığımızın yaşadılması yolunda göstərilmiş fədakarlıqdır. Çünki H.İsmayılovun kitabın ön

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

sözündə yazdığı kimi, «Türkün mənəvi-əxlaqi, dini-ruhani, elmi-irfani, ədəbi-ictimai, sosial-mədəni dəyərlərinin mürəkkəb sintetik vəhdətinin ən optimal reallaşma faktı kimi, Miskin Abdal şəxsiyyəti nadir simalardandır. Beş əsrdən artıqdır ki, onun mənəvi dünyasında gələn tükənməz enerji bir qaynaq olaraq özündən sonrakı dövrlərin ədəbi mühitini həyat işığı, ilahi eşq fəlsəfəsi, coşğun könül tərənnümləri ilə qidalandırıb: sufi eşq olaraq sazın funksional imkanlarından da maksimum istifadə etməklə Məhəbbətin Eşqə, Təmizliyin Saflığa, Ehtizazın Ekstaza, İdrakın Vəhdətə çatmasını, Kamilliyin Həqiqətə çevrilməsini öz müdrik şəxsiyyətində və zəngin yaradıcılığında mükəmməl şəkildə təqdim edə bilib».

Qeyd edim ki, həm Miskin Abdal şəxsiyyəti və yaradıcılığının, həm də toplayıcı-tədqiqatçı H.İsmayılovun işinin başlıca elmi-mənəvi dəyəri elə bu amillə – Miskin Abdal dünyasının beş əsrdən artıq bir müddətdə milli poeziyamızın öz ilahi-poetik enerjisi ilə qaynaqlandırması ilə müəyyənləşir. Üstəlik toplayıcı-tədqiqatçı hünəri həm də onunla üzə çıxır ki, «bu böyük şəxsiyyətin həyatı, fəaliyyəti, xüsusilə ədəbi yaradıcılığı və sənətkarlığı, demək olar ki, öyrənilməyib».

Hüseyn İsmayılovun toplama və tərtibi, akademik Y.Qarayevin redaktorluğu ilə təqdim olunan Miskin Abdal yaradıcılığı birincinin intellekt, vəcd və məhəbbətlə dolu «Tanrı Misskini-haqq carçısı» adlı ön sözü ilə başlanır. Əslində təkcə Miskin Abdal şəxsiyyəti və yaradıcılığını yox, eləcə də bədii-mənəvi İntellekt tariximizin teoinformativ işarəsi ilə xüsusi olaraq aktuallaşan XV-XVI əsrlər milli-poetik düşüncəsini ideoloji-milli kontekstdə bütövlükdə araşdıran bu ön sözdə göstərilən dövr total düşüncənin bütün semantik strukturu ilə boy verməkdədir. Miskin Abdal bu mənada H.İsmayılov təhlilində köklü-kömədli, yəni poetik düşüncəsinin bütün diaxroniyası (ilahi-kosmoqonik qaynağı və

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

poetik-ilahi esxatologiyası) və sinxroniyası (poetik informasiyanın Tanrı tərəfindən proqramlaşdırılmış yolunu Miskin Abdalla birgə gedənlər) ilə görünür. Ona görə də H.İsmayılovun Miskin Abdalı bu təqdimini həm də əslində bədii faktura subyektinin yeni sistemdə təqdim modelinin ədəbiyyat tariximizin bundan sonrakı yazılışı üçün yeni nümunəsi adlandırmaq olar. Çünki bu ön sözdə ədəbi subyektin təqdimi mövcud ədəbiyyat tarixlərimiz üçün səciyyəvi olan ənənədən, daha doğrusu, get-gedə absurdlaşmaqda olan ənənədən tamamilə fərqlənir. Belə ki, burada Miskin Abdalın ənənə kontekstində təqdimi mövcud təcrübəyə xas praktikadan, yəni Sözün Ruhdan, Subyektin öz Teoqaynağından təcridini nəzərdə tutan 70 illik bayağıcasına «aprobasiyalaşdırmadan» bilmərrə uzaqdır.

«Ön söz» Miskin Abdal şəxsiyyəti və sözünü zaman qavrayışının fiziki yox, ilahi kodu ilə təqdim edir. Bu koda köklənə bildiyi üçündür ki, H.Ismayılov Miskin Abdalı irfani söz yolunun sələfləri və xələfləri ilə birlikdə zamanın zamansızlıq kontekstində təqdiminə nail ola bilib. Bu kontekstdən isə Miskin Abdal poeziyası təkcə subyektin yaratdığı bədii faktura yox, eyni zamanda öz subyekti ilə daşıdığı, ötürdüyü ilahi poeinformasiyadır. Miskin Abdal bu halda həmin ilahi informasiyanın ötürücüsü, körpüsüdür. Türklüyün, ümumiyyətlə bəşəriliyin kosmoqonik startından yol alan bu ilahi bilgi:

poetik kodla-şeirdir;

ictimai-siyasi kodla – türkün qurduğu dövlətdir;

mənəvi kodla-irfandır, mərifətdir;

fiziki kodla – Atillanın, Xətainin vuran qolu, qılıncıdır...

Bu ilahi bilginin substantiv qatında maddə ilə qeyri-maddənin, qələm (söz) ilə qılıncın (fizikinin) mahiyyəti birdir. H.İsmayılov Miskin Abdal və Xətai şəxsiyyətlərinin eyni substantiv koda köklənməsini bu ilahi bilginin işığında aşkarlaya bilib. Mürşidlə

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

müridin söz və qılınc birgəliyi Azərbaycan tarixinin bütün inikşafını millət sevgisinin ilahi məqamı ilə günümüzədək süsləndirib.

Miskin Abdal yaradıcılığı H.İsmayılovun təqdimində ilk dəfədir ki, kitab halında və bu həcmdə ortaya qoyulur. Bunadək bu ulu sənətkarın poeziyası çox məhdud səviyyədə çap olunmuşdur. Toplayıcı Miskin Abdal ocağına layiq bir dərviş məqamıyla onun poeziyasının axtarışı yoluna çıxmış, şairin poeziyasının uzun illər ərzində yaddaşlarda yaşamış bir qismini urvatlı kitab həcmində əldə etməyə nail olmuşdur. Demə, Miskin Abdal sözü sinələrdə yaşayırmış, ölməyibmiş. Dədə Qorqud kitabı sözümüzün folklor mahiyyətində yaşadığı kimi, Miskin Abdal sözü də poeziyamızın ilahi-irfani ruhunda yaşamaqda davam etmişdir. Bunu anlayan toplayıcı-tədqiqatçı beş əsrdən artıq müddətdə milli ədəbi mühiti öz tükənməz enerjisi ilə qaynaqlandıran Miskin Abdal poeziyasının sonrakı poetik ənənəyə hopmuş, qovuşmuş, xəlitələşmiş durumda olacağını əslində nəzəri şəkildə modelləşdirə bilmişdir. Elə bunun üçündür ki, kitabda təqdim olunmuş şeirlərin demək olar ki, əksəriyyəti müasir el şeiri linqvosistemində təqdim olunur. Belə ki, Miskin Abdal şeiri yarandığı çağdan aşıq yaradıcılığına ton vermiş Ulu Göyçədə şeirin irfan ocağı məqamında olmuş, zaman-zaman milli aşıq poeziyasını ilahi ülgüclər kontekstində cilalamışdır. Bu poeziya və onun müəllifi proqramlaşdırılmış ilahi hadisə olaraq ədəbi düşüncəmizə qovuşmuş, onunla xəlitələnmişdir. Məhz bu cəhət toplayıcı-tədqiqatçı H. İsmayılovdan sözün həqiqi mənasında, Miskin Abdal sözü və şəxsiyyətinin elmi «rekonstruksiyasını» tələb etmişdir. Oxuculara təqdim olunan kitab həmin bərpanın ilk məhsuludur.

Kitabda Miskin Abdalın 11 gəraylısı, 23 qoşması, 2 təcnisi, deyimləri, 6 divanisi, bir neçə yarımçıq şeiri və nəhayət, onunla bağlı üç dastan təqdim olunur. Kitabdakı şeirlərin, demək olar ki,

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

hamısı Miskin Abdal şeirinin irfani ruhunu əks etdirir. Şeirlərin yaddaşlarda yaşaması, müxtəlif dövrlərin poetik ab-havası altında dəyişmələr keçirməsi onlardakı Miskin Abdal ruhunu öldürə bilməmişdir. Çünki bu ruh ilahi mahiyyətlidir: ölməzdir, əbədidir. «Dünya, səndə nəyim qaldı» qoşmasında da həmin ruh özünə uyğundur:

...Yoxdu daha Şahənşahım,
Ərşə bülənd oldu ahım.
Adım, sanım, qibləgahım,
Haqq çağıran səsim qaldı...

Bu bir yarpaq belə Miskin Abdal ağrısının bütün ilahi-fəlsəfi mahiyyətini daşımaq iqtidarındadır. Bəndin semantik yükü çox iridir: Miskin Abdalın qəlbi, vətəni və ilahi evi böyüklükdədir. Burada Xətaiyə tökülən göz yaşlarının qəmi də, sevinci də var. Sevimli şahının ölüm ayrılığına tökülən qəmli göz yaşları ilahi missiyanın şərəflə başa vurulmasından duyulan sevincli göz yaşlarını da ifadə edir. Bu şeirdə Miskin Abdal təqdim olunan məqamdır: şəxsin fərdi-fizioloji yaşantılarından daha çox transmissiya olunan ilahi həqiqəti ifadə edir. Çünki Miskin Abdal Xətai cismi üçün ağlaya bilməzdi: bu cism-bədən əbədi ruhu daşıyan vasitədir, ruhun mahiyyəti deyildir. Əbədi olan mənadır və o da «haqq çağıran səs olaraq» bu dünyada əbədi qalmaqda davam edir. Bu mənada şeirdəki göz yaşları, ərşə bülənd olan ahlar göründüyü obrazın heç də mahiyyətini ifadə etmir; metoforizmin qatbaqat dolaqlarını nəzərdə tutan ilahi sehr təqdim edir. Bax bu mənada, Miskin Abdal şeiri hansı liqvoifadələnmə sistemində təqdim olunursa-olunsun, özünün «Miskin Abdallığını» bədii-irfani işarələrin özəl semiotik modeli olaraq saxlamaqda davam edir. Bizcə, toplayıcı-tərtibçi intuisiasiyasının əsasında elə bu durmuşdur.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Miskin Abdal poeziyası bütövlükdə ilahi mahiyyətli hadisədir. Bu poeziya bütün ifadələnmə, maddələnmə səviyyə və materialı ilə müqəddəs elementlərdən təşkil olunur. Bu cəhətdən, onun poeziyasından Həzrət Əli obrazı metaforik sistem təşkil edərək keçir. Həzrət Əli Miskin Abdal poeziyasının sadəcə adı çəkilən poetik obrazı deyildir. Bu ad Miskin şeirinin fəlsəfi-irfani sisteminin bütün ağırlığını özündə məpkəzləşdirir. Şair «Ya Əli» qoşmasında deyir:

Ələstü – Rəbbi cəm xitab olanda,
Xub qailəm o adına, ya Əli.
Sənin pənahına iman gətirdim,
Bərqəraram o sevdana, ya Əli...

Miskin Abdal üzü mənalar aləminə ilahi yolu ilə yolçuLuğunu Həzrət Əlinin adı ilə bağlayır. Əli adı onun pənahıdır. Şair öz cismini bu adın naminə şam kimi yandırır, bu adın odunun işığına alovlanır:

... Məşhər günü özün tutarsan camı,
Tutmuş ətəyinnən nikü-bəd, hamı.
Seçmə muxsullardan Miskin Qulamı,
Kərəm et kövsərdən badə, ya Əli.

Şeirin bu sonuncu bəndi həm Miskin Abdal şəxsiyyətinin müqəddəslik məqamının, həm də bütöv el şeirimizin ilahi təmayülünün üzərinə işıq salır. Belə ki, Miskin Abdal Həzrət Əlidən kövsər badəsi diləyir. Bu badə – ilahi eşq butasıdır. Bu mənada, Miskin Abdal şairliyi – aşiqlikdir; ilahi aşiqlikdir. İlahinin yaratdıqlarına aşiqlikdir. Və təkcə Miskin Abdalın yox, bütöv klassik poeziyamızın yox, eləcə də zəngin folklor-dastan yaradıcılığının ilahi qaynağı bu şeirdən boy verir. Məhəbbət dastanlarımız bütövlükdə Həzrət Əlinin kövsər butasına köklənib. Miskin Abdalın da bu butaya köklənməsi onun el şeirimiz tarixindəki uca mövqeyini göstərməklə bərabər, poeziyasının el şeirindən heç

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

vaxt semantik rüknlərini və şairi elə özü kimi bəlirdən semiotik işarələrini də göstərir.

Həzrət Əli Miskin Abdal şeirinin semantik-irfani rüknlərindən biri kimi, irfani kosmoqoniyanın mühüm hadisəsi olaraq tərənnüm olunur. Məsələn, şarin «Ya Əli» adlı divanisində Həzrət Əli kosmoqon prosesinin əzəli ünsürlərindən sayılır:

Bey bismillah əzbərimdi hey xudadan, ya Əli,
Ən ibtida gəldi səda ərli-əladan, ya Əli.
Badi sər-sər, lohu qələm oldu dünya olmamış,
Bir Cəbrayıl qalxdı göyə tək dəryadan, ya Əli...

Göründüyü kimi, şeirdə islami kosmoqoniya poetik təsvir müstəvisinə gətirilmişdir. Bu mənada, Miskin Abdal poeziyası islamın təsəvvüfi ladının teobazasını, statik strukturunun ən ilkin və mühüm elementləri səviyyəsində təqdim edir. Bu strukturda Həzrət Əli teoelementi mühüm funksional ünsürdür. Şeirin poetik tərənnüm yönü olaraq Həzrət Əlinin götürülməsi bir tərəfdən Miskin Abdal sözünün fəlsəfi-irfani bazasını işarələndirirsə, o biri tərəfdən Miskin Abdalı özəl və əzəmətli poetik hadisə olaraq Həzrəti Əli kultunu süsləndirən poetik məkanda, o cümlədən bu məkanın ulu ocaqlarından olan Göyçədə bütün «məqamül-əşrəfi» ilə işarələndirmiş olur.

Toplayıcı-tərtibçi H. İsmayılov kitabda üç dastan təqdim edir: «Miskin Abdal və Sənubər», «Aslan şahnan İbrahimin nağılı», «Miskin Abdalnan Şah İsmayıl». Toplayıcıya görə, birinci dastan şairin ömür yolundan bəhs edən məhəbbət dastanı olmaqla məzmun, mündəricə və ruhi parametrlərinə görə xeyli sonralar Miskin Abdalın xalq arasında dolaşan şeirləri əsasında yaradılmışdır. H.İsmayılov folklor informasiyalarının sistemli analizi nəticəsində belə qənaətə gəlir ki, ikinci dastan Miskin Abdalın özü tərəfindən yaradılmışdır. Həm məzmun, həm də poetik strukturuna görə dastançılığımızda hələlik unikal olan üçüncü

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

dastanla bağlı isə toplayıcı yazır ki, bu dastan öz ideya-bədii xüsusiyyətlərinə süjet və kompoziziyasına görə eposşünaslığımızda qəbul edilmiş olan məlum elmi-nəzəri təsniflərə tabe olmur. Ənənəvi məhəbbət və qəhrəmanlıq dastanlarımızdan fərqli olaraq bu dastanın süjetində real tarixi hadisələr, xalq arasında yüzilliklər boyu dolaşan əfsanələr və rəvayətlər dayanmaqdadır.

Fikrimizcə, H.İsmayılovun «Miskin Abdalnan Şah İsmayıl» dastanının ənənəvi dastan strukturundan qırağa çıxması barəsindəki müşahidəsi tamamilə doğrudur. Belə ki, toplayıcı Azərbaycan epos fonduna çox nadir bir mətn təqdim etmişdir. Əslində H.İsmayılov bununla dastançılığımızı yeni bir janrla zənginləşdirmişdir. Belə ki, bu mətn sadəcə dastan yox, mənqəbə-dastandır. Onun bir mətn olaraq hələlik tək olması ciddi səbəblərlə bağlıdır. Bu mənqəbə-dastan şifahi ənənədə gəlib çatmaqla folklor hadisəsidir. Belə bu mənqəbə-dastanın yaradılışında folklor təyinatı olmasaydı, o, şifahi ənənədə heç yaşamazdı da. Digər tərəfdən, bu mətn sırf folklor hadisəsi deyildir. Həmin mətnin ilkin qaynağı təsəvvüfi-poetik ənənədir. Özü də bu ənənə təsəvvüfi kanonların məhz türk tipini nəzərdə tutur. Bu türk xalq sufizmi ənənələridir. Belə ki, təsəvvüfdə ocaq (orden) başçılarının həyatı onların ölümlərindən sonra teoloji mətnlər şəklində epikləşirdi. Yəni onların mənqəbi bioqrafiyası yaradılırdı. Miskin Abdal, onun xüsusilə Şah İsmayıl Xətai ilə bağlı taleyüklü bioqrafiyası da beləcə epikləşdirməyə məruz qalmışdır. Məsələnin folklorla bağlı spesifikası ondadır ki, klassik ərəb və fars sufizmindən fərqli olaraq türk sufizmi öz başlanğıcından xalq ənənələrinə, folklora köklənmişdir. Yəni Miskin Abdal yaradıcılığı, onunla bağlı bütün poetik sistem, o cümlədən haqqında yaradılmış bu dastan-mənqəbənin poetik müstəvisi el ədəbiyyatı olmuşdur. Mənqəbənin klassik ərəb-fars kanonlarına uyğun yox, oğuz-türk poetik ladında-dastan şəklində yaradılmasının səbəbləri, bizcə, bununla bağlıdır. Başqa sözlə, qızılbaşlıq istisnasız olaraq xalq-

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

folklor poetik ənənələri ilə bağlı olmuşdur. Bu mənada «Miskin Abdalnan Şah İsmayıl» dastanı mənqəbəsinin yazılı yox, şifahi ənənədə gəlib çatması Miskin Abdal yaradıcılığının Xətainin də daxil olduğu xalq poetik ənənələri konteksti ilə qırılmaz bağlılığı ilə əlaqədardır.

Sonda bildirmək istəyirəm ki, H.İsmayılovun alim-folklorşünas fədakarlığının hesabına başa gəlmiş bu kitabın əhəmiyyəti çox böyükdür. Bir tərəfdən poeziyamız ulu şairin imzası ilə zənginləşmiş, o biri tərəfdən xalq poeziyasını tarixən istiqamətləndirmiş semantik qaynaqlardan biri müəyyənləşdirilmiş, digər tərəfdən isə xalq poeziyası və folklorun öyrənilməsinin həm milli ruha söykənən, həm də orijinal elmi təcrübədə hasil olan nümunəsi meydana gəlmişdir. H.İsmayılovun Azərbaycan folklorunun toplanması, öyrənilməsi və çapı sahəsindəki son dərəcə məhsuldar fəaliyyəti, eləcə də bu işi elmi-inzibati baxımdan yüksək səviyyədə təşkil etməsi, bütün milli resurs-ları buna yönəldə bilməsi onun Azərbaycan folklorşünaslığına ağsaqqallıq etməsinin zərurət olduğunu göstərməklə yanaşı, folklorşünaslıq elmimizin gələcəyinə olan inam hisslərini daha da möhkəmləndirir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Hacı Seyfəddin QƏNİYEV,*
*filologiya elmləri doktoru, professor*

## ŞAH ƏSƏRİNİ YARADACAQ

Mən, Hüseyn müəllimlə institutda dörd il bir yerdə oxumuşam. Mən 55-ci qrupda, o isə 53-cü qrupda. Eyni qruppda oxumasaq da, bir müddət sonra əvvəl yoldaş, nəhayət, dost olduq. Tələbəliyin acılı-şirinli, gəncliyin haylı-haraylı günlərini dörd il ərzində birgə yaşadıq. Bunun ən başlıca səbəbi isə xasiyyətimiz – çılğınlığımız, əla oxumağımız, tədqiqata meyilli olmağımız, tələbə-elmi cəmiyyətində çıxışlarımız və s. yamanca tuturdu... Bəlkə də bunun əsas səbəblərindən biri, böyüyüb boya-başa çatdığımız mahalların – Göyçə-Şirvanın təbiətinin, flora-faunasının bir-birinə oxşarlığı, burada ədəbi və aşıq mühitlərinin zənginliyi, ikimizin də dağ havası, saf bulaq suyu ilə böyüməyimiz, eləcə də Şirvanda ürfan şairi, Yunis İmrənin «ehtiyat etdiyi» Molla Qasım Şirvani, o biri mahalda ustad Miskin Abdalın ayaq izləri hopmuş müqəddəs torpaqda yaşamağımız. Hər iki söz nəhənginin, həqiqət məqamına qovuşmaq, yetmək üçün bütün ömürlərini sərf edən ustadların, dərvişlərin poeziyası ilə köklənməyimiz olmuşdur. Ürfan sahibləri belə buyurmuşdur:

Şikəstə Qasımam, həyat içində,
Yeddi ərkan, səkkiz sifat içində,
Müsəlmanlar, beş vaxt salat içində,
Beşi üsyan, beşi nisyan, beşi nə?

Miskin Abdal:

Məhşər günü özün tutarsan camı,

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Tutmuş ətəyinnən niku, bad-hamı,
Seçmə muxsullardan Miskin Qulamı,
Kömək et, kövsərdən badə, ya Əli.

Beləliklə, dörd il ərzində bir-birimizə daha çox bağlandıq. Özümüz də böyük elm sahibi olan müəllimlərimiz – fəlsəfə bilicisi Həmid, Feyzulla Qasımzadə, M.Təhmasib, A.Qurbanov, P.Əfəndiyev, M.Həkimov və başqalarının sevimlisi ola bildik. Çox mətləblərə yiyələndik onların sayəsində...

Uzun illərin tanışlığı, dostluğu, nəhayət, ailəvi yaxınlığımız zamanı yəqin etmişəm ki, Hüseyn müəllimin yaşadığı mənalı ömrü mənim aləmimdə böyük bir dastandır. Özü də sazlı, sözlü, nəğməli bir dastan. Təbii ki, bu ömür dastanının bir dost kimi mənə məlum olan bütün boyları, qolları barədə burada oxuculara müfəssəl məlumat vermək, söz açmaq mümkün deyildir. Ona görə də sadəcə olaraq bəzi məqamları qeyd edəcəyəm həmin ömür dastanından...

Nəhayət, Hüseyn müəllim görkəmli alim, böyük insan Yaşar Qarayevin zəmanəti ilə ilk əvvəl Folklor sarayına rəhbər təyin edilir. Ömrü boyu Y.Qarayevə xüsusi hörmət bəsləyən Hüseyn müəllim işin məsuliyyətini dərk edir. Y.Qarayevin arzularını çin etmək üçün birinci gündən qolunu çırmayıb işə başlayır. Folklor İnstitutunu yaratmaq haqqında düşünür...

İlk əvvəl Azərbaycanın görkəmli folklorşünas alimlərini, eləcə də bütün varlığı ilə folklora bağlı olan gəncləri başına yığır... Məsləhətlər, məşvərətlər öz uğurlu nəticəsini verir. Hüseyn müəllim böyük, çətinlik, gərgin zəhmətlər bahasına institutu təşkil edir. İnstitutun binası təmir olunur, yenidən qurulur. Bundan sonra isə uğurlar başlanır – məcmuələr, kitablar, toplular çap olunur, ustadların yubileyləri, anma günləri təşkil edilir. Ən başlıca vəzifə – türk xalqları bir araya yığılır, beynəlxalq konfranslar təşkil edilir. Artıq dünya xalqlarının çoxu Azər-

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

baycandakı Folklor İnstitutunu və onun qurucusu Hüseyn müəllimi yaxşı tanıyırlar.

Hüseyn müəllim yaratdığı institutun ilk gündən mayasına halallıq qatdı. Neçə illərdir ki, halallıqla «addımlayan» Folklor İnstitutu, mən deyərdim ki, Hüseyn müəllimin böyük çətinliklə ərsəyə gətirdiyi möhtəşəm abidədir. Gələcək nəsillərə çox söz deyə biləcək əvəzsiz bir abidə...

Hüseyn müəllim doğulduğu torpağı çox sevən, ona canı-qanı ilə bağlı olan bir vətəndaşdır.

Bakıya təzəcə köçmüşdü. İlk dəfə görüşəndə onu narahat, qəmgin gördüm. Səbəbini soruşdum:

– Hacı, necə də qəmgin, narahat olmayım. Neçə vaxdır ki, Göyçə – dədə-baba yurdu həsrəti ilə alışıb-yanıram. Başı qarlı uca dağlar, sıx meşələr, yaşıl ormanlar, buz bulaqlar hər gecə yuxuma girir. Danışıram onlarla. Keyfim açılır. Elə ki, sabah açılır, yenə qəm dəryasına qərq oluram. Bakıda o yerləri xatırladan heç nə yoxdur. Başdan-başa gurultu, hay-küy...

Bir neçə gündən sonra Hüseyn müəllimi Şamaxıya, Pirquluya qonaq apardım. Bütün ailə üzvləri ilə Pirqulu yaylasında bulud kimi meşəni, allı-güllü ormanı görüb, buz bulaqdan ovcunu qoşalayıb doyunca içdi. Kövrək səslə:

– Hacı, elə Göyçə kimidir bu yerlər, suyu da, havası da, yemliyi, türşəngi, baldırğanı da bir-birinə oxşayır, – deyə kövrəldi Hüseyn müəllim. Biz də kövrəldik... Ondan sonra Hüseyn müəllim Şamaxını da ürəkdən sevdi – təbiətini də, insanlarını da. Özünün dediyi kimi, axı burada da onun sanki Göyçəsi vardı. Dadını, tamını, havasını daddığı Göyçəsi. Bu arzu ilə Hüseyn müəllim Şamaxıda – Çuxuryurdda bina qurmağı da qət etdi...

Hüseyn müəllim ulu babalarımızın əzəli və əbədi yurdu sayılan Göyçədə – uca dağlar qoynunda böyüyüb boya-başa çatmışdır. Uşaqlıqda dağların zirvəsinə bir nəfəsə qalxmağı özünə

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

vərdiş edən Hüseyn müəllim ömrü boyu da ucalıq haqqında düşünmüşdür. İşdə ucalıq, elmdə ucalıq, həyatda ucalıq. Atalar demiş, niyyətin hara, mənzilin də ora. Yaşının bu çağında istəyinin hamısına qovuşdu Hüseyn müəllim və böyük Allahın ən sevimli bəndəsinə də çevrildi. Dini mənbələrdən gün kimi aydındır ki, Allah-təala həmişə özünün ən sevimli bəndələrini, sədəqə sahiblərini sınağa çəkir, imtahan edir. Neçə vaxtdır ki, Hüseyn müəllim qismətindəki yazıya görə Allah dərgahında imtahandadır. Mənə belə gəlir ki, can qardaşım Hüseyn müəllim Allah-təalanın bu sınağından da uğurla çıxacaqdır. Ona görə ki, Hüseyn müəllim «sağ əlinin verdiyini sol əlinin bilmədiyi» xeyirxah insanlardandır. İnsanları sevən, əlindən gəldiyi qədər yaxşılıq etməkdən zövq alan, halallığı qoruyan elm fədailərini, mənəviyyat sahiblərini Allah-təala nə qədər imtahana çəksə belə, sonda onları qoruyur, onlara qıymır... İnşallah, tezliklə görəcəyik o günü – Hüseyn müəllimin özünün yaratdığı, övlad məhəbbəti ilə sevdiyi Folklor İnstitutunun qapısından içəri girəcəyi günü. Ömrünün kamillik çağını yaşayan alim dostumuz hələ bundan sonra yazıb-yaradacaq özünün şah əsərini...

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Elxan MƏMMƏDLİ*

# QAYA KİMİ SƏRT, İPƏK KİMİ ZƏRİF DOSTUM

Əqidə və məslək dostum Hüseyn Ələsgər oğlu ilə tanışlığımızdan 30 ildən bir qədər az (6 ay) vaxt keçir. Bu günkü kimi yadımdadır, 1979-cu ilin yay günləri idi. Akademiyamızın Ədəbiyyat İnstitutunun folklor şöbəsində yenicə kiçik elmi işçi kimi fəaliyyətə başlamışdım. Günlərin birində iş otağımızdan koridora çıxanda qarşımda dolu bədənli, qaynar gözlü, orta boylu, həm də son dərəcə səmimi baxışlı tanımadığım bir nəfər şəxslə üz-üzə gəldim. İlk baxışdan mənə elə gəldi ki, bu nurlu insanı əvvəllər hardasa görmüşəm. Özümüzdən asılı olmayaraq eyni vaxtda bir-birimizə salam verib görüşdük. Adlarımızı söylədik. Çox hərarətlə əlimi sıxıb «Hüseyn» – dedi. Söhbət əsnasında məlum oldu ki, yenicə tanış olduğum bu cavan insan institutumuzun dissertantıdır, elmi rəhbəri də dövrümüzün mötəbər ədəbiyyatşünas alimi, hamımızın sevimlisi professor Yaşar Qarayevdir. Mövzusu ilə maraqlandım. – «Məmməd Arif və rus ədəbiyyatı» mövzusunda işlədiyini bildirdi.

Həmin yay günlərində Hüseyn İsmayılovla bir neçə dəfə görüşüb söhbətləşdik, dönə-dönə çörək kəsdik. O vaxtlar mən 10 il idi ki, Azərbaycan radiosunda bazar günləri yarım saat səslənən və böyük nüfuz qazanmış «Bulaq» verilişini ayda bir dəfə yazırdım. Bu veriliş Hüseynin də ruhuna çox yaxın olduğundan «Bulağ»ın daimi dinləyicisi kimi məni qiyabi tanıdığını bildirmişdi. Məhz elə bu ruh yaxınlığımız sonrakı illərdə bizi daha da yaxınlaşdırdı, qardaşlaşdırdı. Hüseynlə bu görüşümüzdən bir neçə gün sonra onun böyük qardaşı, adını eşidib özünü görmədiyim istedadlı şair Eldar İsmayılla Yaşar müəllimin otağında tanış oldum.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Yaxşı yadımdadır, günlərin bir gunü Eldar İsmayılın çıxışını «Bulaq»da səsləndirdim. Beləcə, bu iki dəyərli qardaşlarla az bir müddətdə dostlaşıb, qardaşlaşdıq.

Az keçməmişdi ki, Hüseyn Ələsgər oğlu müvəffəqiyyətlə dissertasiya işini müdafiə etdi. Xalası oğlu Ziyadın o vaxtlar Vorovski adlanan qəsəbədə yerləşən evində təntənəli bir ziyafət də verdi. Məclisi aparmağı bir dost kimi mənə həvalə etdi.

Hüseyn Ələsgər oğlu İrəvan Pedaqoji İnstitutunda müəllim kimi fəaliyyət göstərirdi. O vaxtlar rus ədəbiyyatından, Azərbaycan ədəbiyyatı tarixindən, folklorşünaslıqdan mühazirələr oxuyurdu. Bu o vaxtlar idi ki, Azərbaycan KP MK-nın sərəncamı ilə Aşıq Alının anadan olmasının 180 illik yubileyinə ciddi hazırlıq işləri gedirdi.

Dövri mətbuatda Aşıq Alının həyat və yaradıcılığı ilə bağlı sanballı yazılar verilirdi. Buna baxmayaraq, bir sıra yazılarda Aşıq Alı gerçəkliyi təhrif olunur, onun doğulduğu Qızılvəng kəndi, Göyçə mahalı inkar olunurdu, hətta aşığın milli mənsubiyyətinə belə kölgə salınırdı. Bu dövrdə Aşıq Alının adından şeir yazanlar ciddi-cəhdlə ustadın sənət dünyasına böhtanlar atmağa başlamışdılar. Bu haqsızlığa qarşı mətbuatda bir neçə dəfə münasibətimi bildirmişdim. Və bu sahədə ilk dəfə səsimə səs verən, saxtakarlara tutarlı cavablar yazan ziyalılarımızdan biri, həm də birincisi Hüseyn Ələsgər oğlu oldu. Onun 1980-ci ildə «Sovet kəndi» və «Sovet Ermənistanı» qəzetlərində nəşr etdirdiyi tutarlı yazıları aşıqlığımıza, sazımıza, həm də dilimizə, tariximizə qarşı acı qurd kimi qana susamış «Alının qohumlarına» bir dərs oldu. Doğrudur, həmin adamlar sonralar da bu niyyətlərindən əl çəkmədilər, o qədər həyasızlaşdılar ki, 400 səhifədən ibarət təcnis (bunlara təcnis demək olarsa? – E.M.) düzəldib, Aşıq Alının adına nəşr etdilər. Yenə biz iki dost bu təxribata da layiqli cavab verə bildik. Elə həmin il (1995) Ədəbiyyat İnstitutunun elmi şurasında mərhum Yaşar Qarayevin sədrliyi ilə keçən

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

yığıncaqda Aşıq Alıya yamaq edilmiş «Təcnislər» adlı kitabı Hüseynin də fəal iştirakı və tutarlı çıxışı ilə darmadağın etdik.

**Haşiyə:** Yazımızın bu məqamında bir haşiyə çıxmaya bilmədim. Yaxşı yadımdadır, 1984-cü ilin iş planında Göyçə mahalına folklor ekspedisiyasına getməyimi qeyd etmişdim. Bu ideyanı da beynimə Hüseyn Ələsgər oğlu həkk etmişdi. Demişdi ki, hökmən Göyçəyə səfər edim, zəngin Göyçə folklor nümunələrini bir yerdə toplayaq. Mən də böyük məmnuniyyətlə razılaşmışdım.

O vaxtlar institutumuzun direktoru Yaşar Qarayev idi. Günlərin bir günü plan işimi oxuyub tanış olan Yaşar müəllim mənə çox təkidlə dedi ki, Elxan müəllim, gəlin siz bu yay Göyçəyə getməyin. Bu il Borçalıya gedin, sağlıq olsun gələn il Göyçəyə gedərsiz. Düzü mən Yaşar müəllimin bu təklifinə qarşı çıxa da bilməzdim. Eləcə də razılaşdıq.

Növbəti il, yəni 1985-ci ildə yayda Göyçəyə yollandım, təbii ki, Hüseyn müəllimin, onun şair qardaşı Eldar İsmayılın adını tutub getdim. Onların doğma Ağbulaq kəndində 15 gün qonaq oldum. Və bu az müddətdə Hüseynin və Eldar İsmayılın bələdçiliyi və qayğıkeşliyi ilə Göyçəni dolaşıb istədiyimiz qədər folklor nümunəsi topladım.

Günlərin bir günü Hüseyn müəllimin söhbətlərindən belə anladım ki, bir il öncə Yaşar müəllim də onların qonağı olub. Və bir daha başa düşdüm ki, rəhmətlik Yaşar müəllim onda nəyə görə Göyçəyə səfər etməyimi məsləhət bilməyib.

1988-ci ildə Qərbi Azərbaycanda dədə-baba torpaqlarımızda yaşayan 300 min soydaşlarımızla birlikdə Hüseyn qardaşım da didərginlik, köçkünlük həyatı yaşadı. Qardaşı Eldar İsmayılla, yaxın qohum-qardaşları ilə birlikdə Bakıda məskunlaşmışdı. Ana Azərbaycanımız bütün qaçqın və köçkünlərimiz kimi onlara da qucaq açdı. Ev-məişət şəraitlərini bir qədər düzəltdilər. Çox keçmədi Hüseyn Ələsgər oğlu Neft Akademiyasında «Azərbaycan

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

dili» kafedrasında dosent vəzifəsinə işə götürüldü. Təxminən həmin vaxtdan etibarən də mərhum Yaşar Qarayev onu Ədəbiyyat İnstitutuna, bizim folklor şöbəsinə yarımştat işə götürdü. Elə bu vaxtlardan da Hüseyn Ələsgər oğlunun elmi fəaliyyətində ciddi dönüş yarandı. İlk öncə az bir müddətdə 550 səhifəlik gözəl bir kitab hazırladı. Kitabın adını «Vətən qürbətdə qaldı» qoydu. Çox mətləblərdən xəbər verirdi bu kitab. «Yazıçı» nəşriyyatı az bir müddətdə bu kitabı çap edib oxuculara təqdim etdi. Böyük əks-səda doğurdu bu kitab. Az bir zamanda satılıb qurtardı.

Hüseyn Ələsgər oğlu «Vətən qürbətdə qaldı» kitabının redaktorluğunu mənimlə dostumuz Oruc Əliyevə etibar etdi.

Günlər keçirdi. Hüseyn isə durmadan çalışırdı. Mətbuatda tez-tez çıxışlar edirdi. Elmi yazıları ilə yanaşı, Vətən dərdi ilə bağlı da saysız-hesabsız məqalələr nəşr etdirdi Hüseyn müəllim. Sanki başqa mətbuat orqanları onun yazılarını çap etməyə azlıq edirdi. Yeni bir qəzet çıxartmağa ehtiyac duyurdu Hüseyn. Beləcə iki qardaş birləşib (Eldar İsmayılla – E.M.) «Ulu Göyçə» qəzetini təsis etdilər.

Bu minvalla qardaşlar özlərini sakitləşdirmək üçün ürək ağrılarını «Ulu Göyçə»yə boşaldıb təsəlli tapdılar.

Bir müddətdən sonra Hüseyn Ələsgər oğlunun həyatında daha məsuliyyətli, daha şərəfli günlər başladı. 1994-cü ilin sonuna yaxın Ədəbiyyat İnstitutunun direktoru Yaşar Qarayev öz sevimli yetirməsini yanına çağırıb, ona həmin vaxtlar «Folklor Sarayı» adlanan, institutumuzun nəzdində fəaliyyət göstərən bir strukturumuza rəhbərlik etməyi təklif etdi. Hüseyn bir qədər tərəddüd etdikdən sonra «əgər Elxan da mənimlə gedərsə, razıyam» deMişdi. Elə də oldu. Hüseyn «Folklor sarayı»nı qəbul etdi. Ertəsi gün unudulmaz Yaşar müəllim mənim də əmrimi verib İçərişəhərə, Hüseyn Ələsgər oğlunun sərəncamına göndərdi. Daha bir neçə həftədən sonra dostumuz Oruc Əliyev də gəldi, bizimlə işə başladı. Hətta o vaxtlar

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

əvvəllər çalışdığımız «Folklor» şöbəsində Hüseynlə birgə işlədiyimiz üçün bizi «satqın» adlandıranlar da vardı. Təbii ki, bu adamlar çox deyildi. Onlar sadəcə olaraq Hüseynin uğurlarını görüb həqiqəti həzm edə bilməyənlər idi. Bu adamlar həqiqətən də çox çalışdılar ki, «Folklor sarayı» fəaliyyət göstərməsin. Və bir müddət çalışdılar ki, Ədəbiyyat İnstitutunda qalıb işləyən yoldaşlarımızdan heç biri bizim dalımızca gəlməsinlər. Lakin bacarmadılar. Orucdan sonra professor İsrafil Abbaslı, Təhmasib Fərzəliyev, İslam Ələsgər, Rza Xəlilov da gəldilər və əl-ələ verib, Hüseynin iradi keyfiyyətləri, işə olan vicdani münasibəti, həyat eşqi, təşkilatçılıq qabiliyyəti, yüksək elmi dünyagörüşü sayəsində «Folklor sarayı»nı «Folklor Elmi-Mədəni Mərkəzi»nə və 2002-ci ildən etibarən isə «Folklor İnstitutuna» çevirə bildik. Bu illər ərzində ağlasığmaz dərəcədə kitablar nəşr etdi bizim çalışdığımız bu institut. Özü də 100% Hüseyn Ələsgər oğlunun iradəsi, fiziki və zehni gücü, bir də tələbkarlığı sayəsində.

Təkcə bircə faktı oxucuların nəzərinə çatdırmaq istərdim.

1961-ci ildən 1987-ci ilə kimi Ədəbiyyat İnstitutu «Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər» seriyasından cəmi 7 kitab nəşr etmişdi. Hüseyn Ələsgər oğlu bu işə rəhbərlik etdikdən sonra isə (1995) həmin seriyadan nəşr olunan kitabların sayı 27-yə çatıb. Təsəvvür edin 13 ildə 20 kitab. Bu gün Hüseyn İsmayılovun rəhbərliyi ilə hərəsi orta hesabla 400 səhifədən çox olan 20-dən artıq Azərbaycanın regional folklor antologiyaları işıq üzü görüb. İnstitutda neçə illərdir ki, «Dədə Qorqud» dərgisi nəşr olunur. Məhz Hüseyn Ələsgər oğlunun milli qeyrəti, fədakarlığı, vətənpərvərliyi sayəsində bu günə kimi ildə bir dəfə olmaqla «Türk xalqlarının ortaq keçmişindən ortaq gələcəyinə» mövzusunda beynəlxalq konfrans keçirilir. Bu tədbirlərə dünyanın müxtəlif ölkələrindən onlarca türkşünas alimlər gəlir. Beləcə Hüseyn Ələsgər oğlunun simasında, onun fədakar əməyi sayəsində Azərbaycanımız dünyada daha yaxşı tanınır.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Bu sadaladıqlarım, təbii ki, Hüseyn Ələsgər oğlunun gördüyü işlərin az bir hissəsidir. Onun fəaliyyəti çoxşaxəlidir. Təbii ki, bunların çoxusu haqqında məndən başqa yazanlar da, Hüseyn müəllimə ayrıca monoqrafiya həsr etmiş dostumuz Seyfəddin Rzasoy da yazıblar. Mən də çox yaxşı tanıdığım dostum, qardaşım, məsləkdaşım haqqında ürək sözlərimi yazdım. Etiraf edim ki, bu yazımda Hüseyn Ələsgər oğlunu, onun fəaliyyətini, gördüyü işləri tam əks etdirə bilmədim. Bir qədər də onunla bağlı gələcəkdə yazılacaq kitablar üçün də nəsə saxladım. Ancaq ona olan qardaşlıq-dostluq məhəbbətimi saxlaya bilmədim.

Əziz dost, səni yüz yaşa! Tutduğun vəzifədə, getdiyin müqəddəs yolda sənə uğurlar diləyirəm. Sən təkcə bizə – dostlarına, Azərbaycana yox, böyük Türk dünyasına gərəksən. Tanrı səni qorusun, əziz dost.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Rza XƏLİLOV*

## H.İSMAYILOV – FOLKLORUMUZUN FƏDAİSİ

2001-ci ilin payızı idi, mən də Türkiyədən yenicə qayıtmışdım. 1994-2001-ci illər arasında Ərzurumda Atatürk Universitetində işləmişdim. Türkiyəyə getməmişdən əvvəl işlədiyim Ədəbiyyat İnstitutuna getdim. İnstituta getdim ki, əvvəlki iş yerimə bərpa olunum. Dost-yoldaşla görüşdükdən sonra institutumuzun o vaxtkı direktoru görkəmli alimimiz, rəhmətlik Yaşar müəllimin yanına görüşə getdim. Rəhmətliklə bir xeyli söhbət etdikdən sonra o, telefonun dəstəyini götürüb kiməsə zəng etdi.

– Qardaş, yanına bir dostumu göndərirəm ki, əl-ələ verib işləyəsiniz. Amma, indi kim olduğunu demirəm, bir azdan özün görüb, kim olduğunu biləcəksən.

Danışıb qurtardıqdan sonra Yaşar müəllim mənə dedi:

– Hüseynlə (f.e.d.H.İsmayılov – R.Xəlilov) danışırdım. İndi mərkəzdə (AMEA Nizami adına Ədəbiyyat İnstitutunun «Folklor sarayı» Elmi-Mədəni Mərkəzi nəzərdə tutulur) böyük işlər görülür.

İçərişəhərdə mərkəzə gəlib Hüseyn müəllimlə görüşdüm. Hüseyn müəllim böyük bir coşğunluqla mərkəzdən, burada görülmüş işlərdən və görüləcək işlərdən danışdıqca mən onunla tanışlığımızın ilk vaxtlarını – 80-ci illəri xatırlayırdım. O illər Hüseyn müəllim İrəvanda, Pedaqoji İnstitutda dərs deyir, tez-tez də Bakıya gəlirdi. Hər dəfə də Bakıya gələndə Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun folklor şöbəsinə gəlir və buradakı dost-yoldaşları ilə folklor və folklorşünaslığımızın müxtəlif məsələlərindən bəhs edir, fikir mübadiləsi edirdi. İrəvan Dövlət Pedaqoji İnstitutunda müəllim işləyərkən 1986-cı ildə

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Ədəbiyyat İnstitutunda namizədlik dissertasiyasını müdafiə edib filologiya elmləri namizədi olmuşdu.

Məlum hadisələr nəticəsində Azərbaycana gələn Hüseyn müəllim Neft və Kimya İnstitutunda dosent vəzifəsində fəaliyyət göstərməyə başlayıb. Bir müddət sonra isə «Folklor Sarayı» Elmi-Mədəni mərkəzində direktor vəzifəsinə təyin olunmuşdu. Sonralar bu mərkəz 2003-cü ilin aprel ayında AMEA Folklor İnstitutuna çevrildi və elə həmin ildən Hüseyn müəllim bu institutun direktorudur.

2004-ci ildən filologiya elmləri doktoru olan Hüseyn İsmayılovun elmi yaradıcılığına, folklorşünaslıq fəaliyyətinə nəzər salsaq, biz burada folklor nümunələrinin toplanması, tərtibi, nəşri və tədqiqinin əsas aparıcı istiqamətlər olduğunu görərik. Son illər bir alim kimi onun elmi fəaliyyəti çox məhsuldar olmuşdur. Onun «Göyçə aşıq mühiti: təşəkkülü və inkişafı yolları», «Azərbaycan folklorunun regional xüsusiyyətləri» monoqrafiyaları və folklorumuzun müxtəlif problemlərindən bəhs edən onlarla elmi məqalələri məhz bu illərin elmi məhsuludur.

Hüseyn İsmayılovun folklorşünaslıq fəaliyyətindən danışarkən onun folklor nümunələrinin toplanılması, tərtibi və nəşri sahəsindəki işlərini qeyd etməmək olmaz. O, toplayıcılıq işinə hələ öncədən başlamışdır. Onun yalnız bu illərdə nəşr etdirdiyi «Göyçə folkloru» («Azərbaycan folkloru antologiyası» seriyası), «Göyçə dastanları və aşıq rəvayətləri», «Miskin Abdal», «Göyçə aşıqları və el şairləri» kitabları bu fəaliyyətin nəticəsi olaraq ərsəyə gəlmişdir.

H.İsmayılovun Azərbaycan folkloru və foklorşünaslığı qarşısında ən böyük xidməti Folklor İnstitutunun normal işini təmin etməsidir, onu bütün çətinliklərə baxmayaraq yaşatmasıdır.

Onunla əl-ələ verib işləyənlər isə onun şəxsində sədaqətli, güvənilir bir yoldaş, dost, qağa qazanmışlar.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Hüseyn müəllim daxili emosiyası üzdə olan elə kateqoriya insanlardandır ki, onu tanımaq üçün bir dəfə ünsiyyətdə olmaq kifayət edir. İnsanlara elə tez inanır və o qədər səmimi münasibət bəsləyir ki, adam üçün bir anın içində doğmalaşır.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Oruc ƏLİYEV*

# İŞIQLI HƏYAT YOLU

Hüseyn müəllim Göyçə mahalının Ağbulaq kəndində anadan olub, orada böyüyüb boya-başa çatıb, orta təhsilini də doğma kəndində alıb. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsini bitirib. Ali məktəbi bitirdikdən sonra hərbi xidmətdə olub. Bir müddət Vedi rayonunun Şirazlı kəndində dil-ədəbiyyat müəllimi kimi fəaliyyət göstərib, sonra isə YDPİ-də müəllim işləyib. 1986-cı ildə Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunda namizədlik dissertasiyası müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi adını alıb. Məkrli qonşuların xəyanəti nəticəsində doğma yurd-yuvasını itirən Hüseyn müəllim bir müddət M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun Azərbaycan dili kafedrasının dosenti vəzifəsində işləyib. Sonralar isə «Folklor Sarayı» Elmi-Mədəni Mərkəzinin direktoru vəzifəsini yerinə yetirməyə başlayıb. 2003-cü ildən isə AMEA Folklor İnstitutunun direktoru vəzifəsindədir.

Filologiya elmləri doktoru Hüseyn İsmayılov çoxşaxəli, geniş əhatəli, orijinal yaradıcılıq yolu keçib. O, folklorumuzun toplanması, tərtibi, nəşri, tədqiqi və təbliği ilə müntəzəm, ardıcıl şəkildə məşğul olub.

Hüseyn müəllim bir toplayıcı-folklorşünas kimi fəaliyyətə hələ ali məktəb illərindən başlayıb. Bu da tamamilə təbii idi. Çünki o, əsrarəngiz təbəitli, sazlı-sözlü Göyçə mahalında dünyaya göz açıb, burada boya-başa çatıb, bu ulu torpaqda yetişən qüdrətli sənətkarların sehrli səsi, nəfəsi hələ uşaqlıqdan Hüseyn müəllimi də ovsunlayıb, özünün dediyi kimi «Göyçə mahalında dünyaya göz açan körpələr ana laylası, ana oxşaması ilə birlikdə daha bir sehrli layla səsinə, telli sazın laylasına qulaq kəsilmişlər».

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Hüseyn müəllim analarımızın laylasında bu gün də saz səsi eşidir. Onun fikrincə, hər bir azərbaycanlı ananın səsində saz səsi, saz dünyası çağlayır.

Görkəmli folklorşünas M.H.Təhmasib də Göyçə mahalının çox uzaq keçmişdən bəri aşıq sənətinin inkişafındakı rolunu yüksək qiymətləndirir: «Göyçə çox qədim zamanlardan aşıq sənətinin beşiyi olmuş, bu sənətin inkişafında çox böyük rol oynamış, bir sıra görkəmli ustadlar yetişdirmiş, XIX-XX əsrlərdə isə öz Aşıq Ələsgəri, onun ustadı, ustadının ustadları, eləcə də şəcərəsi, nəsli və şagirdləri ilə aşıqlıq sənətinin ən yüksək zirvələrinə qalxmışdır».

Hüseyn müəllimin xalq dilinin incəliklərini bütün dərinliyi ilə duymasının, bilməsinin bir səbəbi də yəqin ki, elə yuxarıda yada saldığımız məsələlərlə bağlıdır. Bu isə onun neçə-neçə bayatılarımızı, dastanlarımızı, əfsanə və ravəyətlərimizi, nağıllarımızı toplayıb üzə çıxarmasına səbəb olub. Xalq yaradıcılığına ürəkdən bağlı olan, bü qüdrətli yaradıcılığa böyük inam bəsləyən Hüseyn müəllim inanıb ki, bu yaradıcılıqda xalqımızın tarixi dilə gəlir. Onları toplayıb üzə çıxarmasaq, nəşr etməsək, bu qiymətli incilər səssiz-soraqsız itib-bata bilər. Bu sahədə o öz sözünü deyib. Onun uzun illərdən bəri böyük zəhmət bahasına topladığı, sistemləşdirdiyi folklor nümunələri «Azərbaycan folkloru antologiyası (Göyçə folkloru)», «Göyçə dastanları və aşıq rəvayətləri», «Miskin Abdal», «Göyçə aşıqları və el şairləri» kimi kitabların yaranması ilə nəticələnib. Hüseyn müəllimin bu sahədəki fəaliyyəti ancaq bir regionla məhdudlaşıb qalmayıb. Bu silsilədən işıq üzü görən Qarabağ folkloru, Ağbaba folkloru, İrəvan Çuxuru folkloru, Şirvan folkloru, Zəngəzur folkloru, Gəncəbasar folkloru, Dərbənd folkloru, Dərələyəz folkloru, Ağdaş folkloru, Muğan fokloru cildlərinin də ərsəyə gəlməsində o, toplayıcı-tərtibçi, redaktor və ya ön sözün müəllifi kimi iştirak

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

edib. Hüseyn müəllim topladığı nümunələrdə yer-yurd adlarının, məhəlli-ləhcə sözlərinin, söyləyicilərin danışıq tərzinin, dil və üslubunun qorunub saxlanılmasına xüsusi əhəmiyyət verib. Bu cəhət müxtəlif folklor nümunələrində özünəməxsus şəkildə üzə çıxır. Məlum olduğu kimi, aşıqlar təkcə dastanların deyil, onlarla digər folklor nümunələrinin nəsildən-nəsilə, dildən-dilə keçib yaşamasında mühüm rol oynamışlar. Hüseyn müəllimin yazıya aldığı bir çox nümunələr də bunu sübut edir. Misal üçün «Sınağın nağılı»nda göstərilir ki, qəhrəmanı hər şeydən çox babasından qalma saz maraqlandırır. O, səfərə silah əvəzinə özü ilə sazını götürür. O, sevdiyi qızın Ölkəsinə də aşıq kimi qədəm basır. Bunu görən qızlar deyirlər:

«Əbru xanım, bu oğlanın deyəsən aşıqlığı var. İzn versən çalıb oxuyardı.

Əbru xanım dedi:

– İzindi, çağırın oğlanı».

«Narın xanımın nağılı»nda isə müdrik qoca qəhrəmana tilsimi ancaq sazla sındıra biləcəyini xəbər verir:

«Qoja dedi:

– Bala, indi ki, Qara dev öldürülüf, daha qorxum yoxdu. Hər şeyi sənə danışajam. Bu qarannıx dünyaynan bir qədər gedənnən sonra qavağınıza bir qapı çıxajax. Qapıya nabadə əl toxundurasan, o saat daşa dönərsən. Bu qapıyı gərək saznan açasan.

Xəlil pəhlivan dedi:

– Baba, mən yaxşı saz çalmağı bajarıram, ancaq burada sazı haradan ala bilərik.

Qoja dedi:

– Oğul, mən Qannı gölə gələndə əlimdə balaja saz gətirmiş-dim. Telləri keçi bağırsağınnan olduğuna görə xaraf olmuyuf.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Qoja sazı gətirif oğlana verdi. Xəlil pəhlivan qapıya yaxınnaşıf, barmaxlarını tellərə toxunduran kimi qapılar taybatay açıldı».

Bu nağılda qəhrəman qaranlıq dünyadakı tilsimli qapını sazın köməyilə aça bilir. Bu da musiqinin, musiqi alətinin şər qüvvələri qovması inamını əks etdirir.

Hüseyn müəllimin toplayıcılıq fəaliyyətində ustad sənətkarların repertuarının yazıya alınması da başlıca yer tutur. Misal üçün o, Aşıq Hacı, Aşıq Mahmud kimi sənətkarlardan aşıq şeirləri, dastanlarla yanaşı neçə-neçə nağıl, əfsanə, rəvayət, bayatı, lətifə və s. nümunələri də yazıya alıb.

Hüseyn müəllimin laylalardan tutmuş dastanlara qədər zəngin folklorumuzun toplanmasına böyük məhəbbəti təsadüfi deyil. Çünki folklor örnəklərində xalqımızın qəhrəmanlıq tarixi, arzu və istəkləri, mübarizəsi, qələbə əzmi, ağrı-acısı, adət-ənənəsi, keçmişi yaşayır, onu yenidən xalqın özünə qaytarmaq isə ən müqəddəs vəzifələrdən biridir. Bununla yanaşı o, belə bir mülahizəni də irəli sürür:

«Folklor harada yaranmasından, yaşamasından asılı olmayaraq mənsub olduğu xalqın müştərək mənəvi sərvətidir. Amma bununla belə xalq sənətinin çox mürrəkəb və ziddiyətli bir yol keçdiyini də yaddan çıxarmaq olmaz. Müxtəlif ərazilərdə bir-birindən fərqli ictimai-siyasi şəraitlərdə yaşayan insanların həyat tərzi onların dünyagörüşünə və bədii təfəkkürünə təsirsiz qala bilməz. Xalq yaradıcılığının dərin elmi təhlil və tədqiqi onun bu xüsüsiyyətlərini nəzərə almaqla reallaşa bilər».

Hüseyn müəllim çoxşaxəli bir elmi yaradıcılığa malikdir. 1961-1987-ci illərdə yeddi kitabı nəşr olunmuş «Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər»in növbəti səkkizinci cildi onun təşəbbüsü və iştirakı ilə işıq üzü gördü. Həmin vaxtdan bu günə qədər artıq iyirmi yeddinci cildi nəşr olunan bu məcmuənin elmi

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

redaktoru və əsas müəlliflərindən biri Hüseyn İsmayılovdur. Hüseyn İsmayılov «Göyçə aşıq mühiti: təşəkkülü və inkişaf yolları», «Azərbaycan folklorunun regional xüsusiyyətləri» kimi sanballı monoqrafiyaların, ölkəmizdə və xaricdə nəşr olunan neçə-neçə elmi məqalələrin müəllifidir. Bu əsərlərdə aşıq sənəti, bu sənətin ünlü nümayəndələrinin yaradıcılığı, şifahi söz sənətinin ayrı-ayrı janrları, folklor və yazılı ədəbiyyatla bağlı bir çox problemlər təhlil süzgəcindən keçirilir. Hüseyn İsmayılovun əsərlərində folklorumuzun ən mübahisəli, mürəkkəb məsələləri təhlilə cəlb olunur, bunlara aydınlıq gətirilir, orijinal təhlil aparılır, yeni istiqamət müəyyənləşdirilir. Onun ölkəmizdə və xaricdə keçirilən elmi konfrans və müşavirələrdəki çıxışları, məruzələri öz yeniliyi ilə həmişə diqqəti cəlb edib.

Hüseyn müəllim folklora milli-mənəvi dəyərlərimizin qorunmasında, gələcək nəsillərin tərbiyəsinin formalaşmasında bir xəzinə, qaynaq kimi baxır. Folklorumuzun, aşıq sənətinin qorunması, yaşaması, inkişafı, gələcək nəsillərə çatdırılması ilə bağlı mətbuatda, radio və televiziyada çıxışlar edir, müzakirələrdə iştirak edir, öz sözünü söyləyir.

Hüseyn müəlim bu gün yaradıcılığının ən qaynar və məhsuldar bir zirvəsinə gəlib çatıb. Bu işıqlı yolda ona yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əzizxan TANRIVERDİ*
*filologiya elmləri doktoru, professor*

## AZƏRBAYCAN FOLKLORŞÜNASLIĞININ GÖRKƏMLİ NUMAYƏNDƏSİ

Türk poetik təfəkkürünün ən nadir inciləri olan «Dədə Qorqud kitabı», «Manas», «Koroğlu» kimi abidələri, eləcə də Dədə Qasım, Dədə Ələsgər və daha neçə-neçə ustad sənətkarların yaradıcılığını təhlil süzgəcindən keçirən Hüseyn İsmayılov, obrazlı desək, folklorşünaslığımızda dədə statusu qazanıb. İndi görkəmli alim təkcə Azərbaycanda deyil, bütün türk dünyasında məşhurdur. Avropaya inteqrasiya və qloballaşmanın gücləndiyi bir dövrdə türk birliyinin reallaşdırılması uğrunda mübarizə aparan alimlər sırasında da Hüseyn İsmayılovun adı xüsusi olaraq vurğulanır. Burada təkcə onu qeyd etmək kifayətdir ki, 2003-2007-ci illərdə məhz onun təşəbbüsü və rəhbərliyi ilə «Ortaq türk keçmişindən ortaq türk gələcəyinə» adlı beynəlxalq konfranslar keçirilib. Sonuncu, daha dəqiqi, 2007-ci ildə keçirilmiş «Ortaq türk keçmişindən ortaq türk gələcəyinə» adlı Uluslararası Folklor Konfransının iştirakçılarına Hüseyn İsmayılovun müraciəti bütün parametrlərinə görə dəyərlidir. Müraciətin son cümlələrinə diqqət yetirək: «Bu gün Türk xalqları öz dövlətçiliyinin möhkəmlənməsi üçün onun folklorunu, milli tarixini, adət-ənənələrini qurmalı, saxlamalı və onlara sadiq olmalıdır (millətin yaşaması üçün bütün dünyada belə bir proses gedir). Bunu etməyən millət necə inkişaf edirsə-etsin, dövlətdə iqtisadi vəziyyət necə olursa-olsun, məhvə məhkumdur. Hər bir dövlət milli-mənəvi dəyərləri ilə qurulanda güclü olur. Türk alimlərinin simasında türk xalqlarının mənəvi birliyinin yaradılması, şanlı keçmişə malik türkün eyni işarəli gələcəyinin real olduğunun anılması işində irəliyə bir addım olacaq,

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

ona doğru gedən yolları göstərəcək». Bu müraciət, hər şeydən əvvəl, ona görə əhəmiyyətlidir ki, türk birliyinin ilkin konturları etnik-milli mədəniyyət kontekstində dəqiqləşdirilib. Digər tərəfdən, müraciətin hər bir detalında H.İsmayılovun uzaqgörənliyi və məntiqə əsaslanması birbaşa duyulur. O sanki həmin fikirləri ifadə edərkən «Oğuznamə»lərə, xüsusən də «Dədə Qorqud kitabı»ndakı «Bu dünyayı ərənlər əqllə bulmuşlar» atalar sözünə söykənib. Yeri gəlmişkən, görkəmli alimin şəxsiyyəti, yaradıcılığı və ümumtürk birliyi uğrunda mübarizəsini nəzərə alan Türkiyə Respublikasının Hüseyn Qazi Kültür və Sənət Vəqfi onu «Türk dünyasına xidmət ödülü» ilə mükafatlandırıb.

Erməni tapdağı altında inildəyən yurd yerlərimiz Göyçə mahalının Ağbulaq kəndində dünyaya gələn Hüseyn müəllimi daim düşündürür, bəlkə də, yüksək intellekti ilə fərqlənən alimin 2004-cü ildə müdafiə etdiyi «Göyçə aşıq mühiti: təkamülü və inkişaf yolları» adlı doktorluq dissertasiyası da həmin zərurətdən doğmuşdur. Fikrimizcə, belə bir mövzunun tədqiq olunması təkcə folklorşünaslığımız yox, həm də erməni əsarəti altında olan qədim Oğuz yurdunun mədəniyyətinin, xüsusən də Göyçə aşıq mühitinin ən səciyyəvi cəhətlərinin dünya ictimaiyyətinə çatdırılması baxımından əhəmiyyətlidir.

H.İsmayılov ilk dəfə olaraq aşıq sənətinin keçid mərhələlərini müəyyənləşdirib: Ata (Tanrı elçisi), Baba (Baba dərviş), Dədə (haqq aşığı), Aşıq (sənətçi). Cəsarətlə qeyd edirik ki, o yalnız bu konsepsiyasına görə ən məşhur folklorşünaslarla bir sırada durur. Yaxud o, «Dədə Qorqud kitabı»nın Drezden nüsxəsində işlənən «Qorqud» antroponimik vahidinin Vatikan nüsxəsində «Qorqurt» şəklində yazılmasını digər qorqudşünaslardan fərqli olaraq, «orfoqrafik xəta» hesab etmir, əksinə, onun mətndəki rolu və məna yükünü dəqiqləşdirir. Bu, bir daha təsdiq edir ki, H.İsmayılov folklor nümunələrinin hər birini mətn semantikası müstəvisində araşdırır,

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

mətnin görünən və görünməyən tərəflərini kodlaşdırarkən folklorşünaslıqla yanaşı, dilçilik, tarix, etnoqrafiya və s. elmlərə də istinad edir – bir sözlə, mətnə zərgər dəqiqliyilə yanaşır.

H.İsmayılov Azərbaycan folklorşünaslığının dədə statuslu ağsaqqalı, yol göstərəni kimi hər bir bölgənin folklorunun toplanaraq sistemli şəkildə tədqiqinin təxirəsalınmaz vəzifə olduğunu göstərir. O, Azərbaycan folkloru antologiyası silsiləsindən «Göyçə folkloru»nu toplayıb tərtib etməklə (2000) kifayətlənmir, eyni zamanda «Miskin Abdal» (2001), «Göyçə dastanları və aşıq rəvayətləri» kimi folklor toplularını çap etdirir. Bir cəhəti də qeyd edək ki, Qaraqoyunlu, Ağbaba, Gəncəbasar, İrəvan, Şirvan, Dərbənd kimi folklor toplularının nəşri də bilavasitə H.İsmayılovun adı ilə bağlıdır.

Görkəmli alimin şəxsiyyəti və yaradıcılığı barədə bəhs edənlər onun natiqliyini, məharətli və bacarıqlı tribun olduğunu xüsusi olaraq qabardırlar. Bu da təsadüfi deyil. Çünki H.İsmayılov radio və televiziya verilişlərində, konfrans və elmi şura iclaslarında, hətta adi söhbətlərində belə artıq söz və ifadələr işlətmir, fikir və mülahizələrini tutarlı faktlarla arqumentləşdirir, nitqində məntiqi ardıcıllıq, səlislik və aydınlıq kimi cəhətlərə xüsusi olaraq diqqət yetirir. Məhz bu keyfiyyətlərinə görə o, gözəl bir natiq kimi dəyərləndirilir.

AMEA Folklor İnstitutunun direktoru, filologiya elmləri doktoru, türk dünyasının görkəmli ziyalısı Hüseyn Ələsgər oğlu İsmayılovu 55 illik yubileyi münasibətilə təbrik edir, ona yeni-yeni uğurlar arzulayıram.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Xəliyəddin XƏLİLLİ*

## NƏNƏMİN NAĞILLARINDAKI ALİM VƏ SÖZÜ BUTÖV KİŞİ DYNYASINI XATIRLADAN ŞƏXSİYYƏT

Tərəkəmə-elat ailəsində dünyaya göz açdığımdan dünyagörüşümün təməlini nənəmin nağıllar dünyası təşkil edir. Payızın, qışını uzun gecələrində qara keçədə, dəyədə ocaq ətrafında nənəmin söylədiyi nağılların əfsunu, qüdrəti ruhuma elə hopmuşdur ki, həyatımın heç bir mərhələsində bu təsirdən çıxa bilmədim. Nənəmin nağılları çoxşaxəli idi. Lakin ən çox alimlərin qüdrətinə, kişilərin sözübütövlüyünə həsr olunardı. Bu nağıllarda ölkələr arasında uzun illər müharibələr gedər, şahlar, sultanlar vuruşar, sülh bağlaya bilməzdilər, alimlərin işə qarışması ilə şahlar arasında sülh yaranar, əmin-amanlıq olardı. Əjdəhalar çayların qarşısını kəsər, kəndlilərin əkin sahəsini suvarmağa imkan verməzdilər. Ərənlər qoşun yığıb əjdəhalarla döyüşər, lakin məğlub olardılar, alimlərin məsləhətlərin dinlədikdən sonra ərənlər əjdəhaya qalib gələr, çayların suyunu kəndlərə axıdardılar. Alimlər bitkilərdən hazırladıqları maddələrlə daşları əridər, dərdlərə çarə qılardılar. Nənəmin nağıllarındakı alimlər və kişilərin sözübütövlüyü heç vaxt şübhə doğurmazdı. Nənəmin nağıllar dünyasındakı alimdən uca heç nə, heç kim yox idi. Sözübütövlüyünə görə bütün kişilər də alimlər kimi idi. Onlara da alimlər kimi hörmətlə yanaşılırdı. Nənəmin nağılları məni o qədər ruhlandırmışdı ki, hələ kiçik yaşlarımdan onları oxumağa can atırdım. Əlimə götürdüyüm kitabı oxuyub qurtarmayınca ondan ayrılmaq istəmirdim. Nənəmin alimlər dünyasına girmək istəyim hamının diqqətini cəlb etmişdi. Hərdən əmim kitabımı əlimdən alıb deyərdi:

– Deyəsən, alim olmaq istəyirsən, get işinlə məşğul ol.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Cavab qaytarmasam da, sözləri qəlbimə dəyər, könlümdə ondan inciyərdim. Ürəyimdə «görərsən necə alim olacağam» deyib ondan uzaqlaşar, tapşırığını icra edərdim. Əmimin alim olacağıma inamsızlığı, şübhəsiz, heç vaxt inamımı qırmaz, əksinə, məni mübarizləşdirirdi. Alim olmaq idealıma çevrilmişdi. Beləcə mən orta məktəbi bitirib Bakıya gəldim, ali məktəbə qəbul imtahanı verdim. İmtahanlardan yüksək qiymət alsam da, müSAbiqədən keçə bilmədim. Özümə söz verdim ki, ali məktəbə qəbul olmayınca kəndimizə qayıtmayacağam. Belə də etdim. İkinci il ali məktəbə qəbul olduqdan sonra kəndimizə qayıtdım. Nənəmi bağrıma basıb sevincdən ağladım. O, uşaqlıqda olduğu kimi, başımı dizləri üstünə qoyub saçlarımı oxşadı, məni yuxuya verdi. Bu mənim nənəli dünyamın sonuncu xöşbəxt günü oldu.

Bakıya qayıdıb «alim»lərdən dərs almağa başladım. Beləliklə, «alim»lər şüurumda nənəmin qurduğu alim dünyasını, kişi sözü bütövlüyünü dağıtmağa başladı. O gündən həyatım nənəmin şüurumda qurduğu alim dünyasını qorumaq üçün mücadiləyə həsr olundu. Rus imperiyasının xalqımızın sözübutöv kişilər dünyasını yaradan alim və kişiləri məhv edib, onun yerində alim adı altında mənəviyyatımızı dağıdan bir zümrə yaratdığını öyrəndim və bu zümrənin necə yaradıldığının şahidi oldum.

Tələbələr, müəllimlər arasında, cəmiyyətin müxtəlif təbəqələrində, az da olsa, xalqına, mədəniyyətinə, mənəviyatına tərəkəmə nənəmin kişi dünyasına saqiq insanlarla rastlaşdım, onlarla dostlaşdım. Milli-mənəvi dünyamıza qarşı yönəlmiş süni uydurmalara qarşı mübarizə apardıq. Zaman imperiyanı məhv etdi. İmperiyanın dağıtmaq, məhv etmək istədiyi əxlaqımız, milli ruhumuz yenidən öz kökləri üzərində şaxələnməyə başladı. Tarix, yeni nəsillər milli ruhumuza xəyanət etmiş «alim və ziyalıları» lənətlədi. Çox az alim, ziyalı və yazar xalqının üzünə dik baxa bildi. Hüseyn İsmayılov da onların sırasındadır. O, əxlaqi dəyərləri etibarı ilə gənc nəsilə milli

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

nümunə aşılaya biləcək çox az miqdarda, faiz təşkil etməyəcək sayda olan alim ziyalılardandır. Azərbaycan folklorşünaslığında elmi səviyyəsinə görə birincilər cərgəsindədir. Elə bu səbəbdən də rəhbərlik etdiyi Folklor İnstitutunda amirlik deyil, demokratik mühit mövcuddur. Elmi polemikalara şərait yaradır və özü də bu polemikalarda fəal və səmimi iştirak edir. Razılaşmadığı mülahizələrə elmi arqumentlərlə münasibətini bildirir. Obyektiv tənqidi məmnunluqla qəbul edir. Rus imperiyası ənənəsi ilə işləyən elmi işçiləri zorla özünə uyğunlaşdırma ənənəsini dağıdan, bəlkə də, yeganə elmi müəssisə rəhbəridir. İnstitutun elmi əmək Daşlarının, hətta mulahizəsini qəbul etmədiyi əməkdaşların əsərlərinin nəşrinə qayğı ilə yanaşır. Bu üsulla elmi mülahizələrini geniş elmi diskussiyadan keçirməklə ictimai fikir süzgəcindən keçməsinə şərait yaradır. O, elmi işçilərin, xüsusən gənclərin elmi uğurlarına ürəkdən sevinir. Cılız adamlara məxsus qısqanclıq hissi ona yaddır. O, folklorşünas alim olmaqla bərabər, folklorumuzdan gələn əxlaq və normaların, adət-ənənələrin daşıyıcısıdır. Hüseyn müəllim mənə nənəmin alim və sözübütöv kişi dünyasını xatırladan bir obrazdır.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əziz ƏLƏKBƏRLİ*

## BİZİM O DİYAR QARŞISINDA BORCUMUZ HƏLƏ TÜKƏNMƏYİB...

Hüseyn İsmayılov çağdaş milli elmi düşüncənin aparıcı simalarından biri, böyük Türk əxlaqının və mənəviyyatının, qan və gen yaddaşının daşıyıcısı, Azərbaycan folklorunun, xüsusilə aşıq sənətimizin böyük bilicisi və vurğunu, tədqiqatçısı və təbliğatçısıdır. Mən Hüseyn müəllimin Şəxsiyyətini üç aspektdə nəzərdən keçirmək istərdim: bir İnsan kimi, bir Alim kimi və bir Təşkilatçı kimi.

***Bir İnsan kimi.*** Çoxlarından fərqli olaraq mən Hüseyn müəllimi daha əvvəldən, lap gənclik illərindən tanıyıram. Bu tanışlığın nə az – nə çox, düz otuz illik bir tarixi, həm də şəxsən mənim üçün xoş olan bir tarixi var. O vaxt Hüseyn müəllim, çox gənc olmağına baxmayaraq, İrəvan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan bölməsinin müəllimi və İrəvanda Azərbaycan dilində nəşr olunan «Sovet Ermənistanı» qəzetində çağdaş ədəbi proseslə bağlı dövri yazıların müəllifi idi. Mənə ədəbi aləmə ilk vizanı da, demək olar ki, elə o vaxt həmin qəzetin səhifələrində Hüseyn müəllim verib. Hələ o vaxt biz tanış deyildik. Sonralar mən Hüseyn müəllimi gördüm, daha yaxından tanıdım və bizim tanışlığımız tədricən yoldaşlığa, dostluğa, qardaşlığa çevrildi. Bu münasibət mənə imkan verir ki, Hüseyn müəllimin xarakterinin bütün incəlikləri barədə söhbət açım. Təbii ki, mən bunu etməyib, fikrimi nadir şəxsiyyətlər haqqında işlədilən belə bir məşhur ifadə ilə ümumiləşdirmək istərdim: Hüseyn müəllim sözün həqiqi mənasında **QƏNİMƏT** adamdır.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Elə bilirəm ki, bu sözün məzmununda çox mənalar ehtiva olunur. Bununla belə, Hüseyn İsmayılov şəxsiyyətinin bəzi cizgiləri üzərində dayanmamaq mümkün deyil.

Öncə qeyd edim ki, Hüseyn müəllim dostluğa son dərəcə sədaqətlidir. Sevdiklərini bütün varlığı ilə və axıradək sevir, nifrət etdiklərinə isə elə həmin şəkildə də nifrət edir. Sevgini mükafatlandırmağı, xəyanəti isə cəzalandırmağı bacarıır.

Ümumiyyətlə, dünyada həyat yolu hamar olan insan yoxdur. Bu mənada Hüseyn müəllimin də həyat yolu hamar olmayıb, əksinə, mən deyərdim ki, hələ qədərindən daha artıq kələ-kötür, keşməkeşli olub. Çünki Hüseyn müəllim özü təbiəti etibarilə adi və sadə həyat tərzi keçirməyi sevən adam deyil. Həyat onun qarşısına bəzən çox sadə formullar çıxaranda o bu formulları çox mürəkkəb üsullarla çözməyi sevir və bacarır. O, son dərəcə mübarizdir, lakin mübarizəyə başlayanda əvvəlcədən onun nəticəsini düşünür və təmin edir, uduzmağı qətiyyən sevmir. O, həddən artıq işgüzardır, gərgin işləyir, lakin bu əmək mütləq uğurlu nəticə ilə sonuclanır, ortaya dəyərli məhsul qoyulur.

Hüseyn müəllim son dərəcə vətənpərvər, Vətənini, Millətini və Dövlətini sevən bir insandır. Ulu Göyçə kimi doğma yurdu, Qərbi Azərbaycan kimi diyarı, Azərbaycan Respublikası kimi vətəni, Bütöv Azərbaycan kimi ölkəsi var. Və onların hər birini eyni dərəcədə bağrının başında saxlayır.

Hüseyn müəllim dövlətçiliyə və ulu öndər Heydər Əliyev ideyalarına son dərəcə sadiq və bu ideyaların alovlu təbliğatçısıdır.

Şəxsən mən Hüseyn müəllimi xoşbəxt insanlar kateqoriyasına aid edirəm. Ona görə ki, o, bir tərəfdən sevdiyi işlə məşğuldur, Azərbaycan folklorunu tədqiq edir, digər tərəfdən də həm evdə, həm işdə, həm də asudə vaxtlarında həmişə sevdiyi və sevildiyi insanlar əhatəsindədir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Hüseyn müəllim həm də xoşbəxt ailə başçısıdır. Övladları onunla fəxr etdiyi kimi, o da övladları ilə fəxr etməkdə tamamilə haqlıdır. Və nəhayət, o, nəvələrinin sevimli babasıdır.

***Bir Alim kimi.*** Hüseyn İsmayılov Azərbaycan folklorşünaslığında özü və sözü olan, özünə və sözünə hər addımda ehtiyac duyulan alimlərimizdəndir. Hüseyn müəllimin Azərbaycan folklorşünaslığına verdiyi töhfələr, göstərdiyi xidmətlər barədə istənilən qədər danışmaq və yazmaq olar. Onun belə qısa bir vaxtda bu qədər iş görə bilməsini ancaq Tanrı vergisi, Tanrı möcüzəsi və Tanrı ilhamı ilə izah etmək olar. Bunun başqa adı və başqa cür izahı yoxdur.

Xüsusilə belə bir məqamı xatırlatmamaq mümkün deyil ki, Hüseyn İsmayılov Azərbaycan folklorşünaslığında çox mühüm bir tarixi-elmi missiyanı şərəflə yerinə yetirmiş, Azərbaycan aşıq sənətinin genezisi ilə bağlı mövcud fikir və mülahizələri elmi müstəviyə keçirərək, məsələ ilə bağlı orijinal konsepsiya irəli sürmüş, onu nəzəri və bədii materialla əsaslandıraraq sübuta yetirmişdir.

Hüseyn müəllimin bir alim kimi ən böyük xidmətlərindən biri də Azərbaycan folklorunun regional problemlərini elmi müstəvidə gündəmə gətirməsi, Azərbaycanın ayrı-ayrı regionlarının folklor mətnlərinin toplanmasını, nəşrini və öyrənilməsini təmin və təşkil etməsidir.

***Bir Təşkilatçı kimi.*** Hüseyn müəllimin həyatda və elmdəki bütün uğurlarını bir kənara qoysaq, təkcə Folklor İnstitutunun yaradılması ona Azərbaycan xalqının və Azərbaycan elminin tarixində əbədi yaşamağa kifayət edər. Bu da bir ömür, bir taledir. Həyatda çox az adam tapmaq olar ki, onun taleyinə bani olmaq qisməti düşsün. Kiminsə xoşuna gəlsə də, gəlməsə də, Hüseyn müəllim həmin nadir şəxsiyyətlərdəndir. Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutu yaradılmasına və mövcudluğuna

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

görə bu gün məhz Hüseyn müəllimin ağır zəhmət və mübarizəsinə borcludur. Biz bu işə kömək göstərənlərin əməyini yerə vurmaq fikrində deyilik, amma Hüseyn müəllimin haqqını da heç kəs dana bilməz.

Hüseyn müəllim AMEA Ədəbiyyat İnstitutunun Folklor Elmi-Mədəni Mərkəzinin rəhbəri təyin ediləndə, demək olar ki, adı olub özü olmayan bir qurumun başına keçdiyinin fərqində olmamış deyildi. Lakin inanılmayacaq qədər qısa bir vaxtda bu mərkəz böyük bir elm ocağına, folklor və sənət məbədinə çevrildi. Bu iş üçün Hüseyn müəllim nə qədər əmək və enerji sərf edib – bu da bizim gözümüzün qarşısında baş verib.

Bu gün Folklor İnstitutu AMEA-nın aparıcı qurumlarından və ən nümunəvi institutlarından biridir. Burada folklorşünaslığımızın ən böyük nümayəndələri və ən gənc alimləri, ağsaqqalları və fidanları, bu günü və gələcəyi çiyin-çiyinə çalışır. Azərbaycanın ayrı-ayrı bölgələrində regional mərkəzlərimiz fəaliyyət göstərir. İnstitutun İxtisaslaşdırılmış Müdafiə Şurasında folklorşünaslıq ixtisası üzrə ildə neçə-neçə tədqiqatçı namizədlik və doktorluq dissertasiyaları müdafiə edir. Hamısı da Hüseyn müəllimin birbaşa rəhbərliyi və dəstəyi ilə.

Bu gün Folklor İnstitutu Milli Elmlər Akademiyasında bəlkə də yeganə institutdur ki, onun əməkdaşları nəşr olunmaq problemi ilə heç vaxt üzləşmirlər. Hüseyn müəllimin təşəbbüsü ilə təxminən otuz (30!) illik fasilədən sonra nəşri bərpa olunan «Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər»də folklorşünaslarımızın folklorşünaslığımızın ən mühüm problemlərinə dair yazıları özünə yer alır. 1999-cu ildə səkkizinci sayı ilə təzədən həyata qədəm qoyan məcmuənin bu gün artıq iyirmi yeddinci sayı işıq üzü görüb.

İnstitutun növbəti belə bir dövri nəşri «Dədə Qorqud» beynəlxalq dərgisidir. AMEA-nın müxbir üzvü, Türk dünyasının

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

böyük alimi, görkəmli türkoloq Tofiq Hacıyevin redaktorluğu ilə 2001-ci ildən nəşr olunan dərginin də artıq iyirmi səkkizinci sayı işıq üzü görmüşdür.

Hüseyn müəllim Folklor İnstitutunda digər çox böyük layihələrin də müəllifidir. Onun səyi ilə Azərbaycanın regionlarından külli miqdarda folklor materialları toplanmış və bu materiallardan institutda möhtəşəm bir folklor arxivi yaradılmışdır. Lakin Hüseyn müəllim bununla kifayətlənməmiş, toplanmış folklor materiallarını saf-çürük etdirib, cild-cild kitablara çevirtdirmişdir. Bu gün artıq Azərbaycanın ən müxtəlif bölgələrini əhatə edən «Azərbaycan folkloru antologiyası»nın 18 cildi nəşr olunub oxucuların ixtiyarına verilmişdir. Bu, təsəvvür oluna biləcəyindən də qat-qat nəhəng bir işdir və Hüseyn müəllimin gördüyü işlərin çox cüzi bir hissəsidir.

İki il əvvəl Hüseyn müəllim daha bir yeni layihənin reallaşdırılmasına başlamışdır. Bu da 100 cildlik «Azərbaycan folkloru külliyyatı»nın nəşri məsələsidir ki, bu kitabın da artıq onuncu cildi nəşr olunub oxucuların ixtiyarına verilmişdir.

Hüseyn müəllim başçılıq etdiyi kollektivin təkcə rəhbəri, direktoru deyil, həm də hər kəsin yaxını, doğması, yaşına və mövqeyinə görə kiminin müəllimi, kiminin atası, kiminin qardaşı, kiminin də dostu və sirdaşıdır. Bunu bu böyük kollektivin hər bir üzvünün ona olan sevgisindən də hiss etmək çətin deyil.

* * *

Hüseyn müəllim bütün Türk dünyası, xüsusilə Azərbaycan türklüyü üçün xüsusi önəm daşıyan müqəddəs bir məkanda – Göyçə mahalında, Göyçə gölünün sahillərində dünyaya gəlMişdir. Ona görə müqəddəs məkan deyirəm ki, əlimizdəki təkzibolunmaz tarixi mənbələrə görə, Göyçə mahalı ərazisini ilk dəfə məskunlaşdıran Gögqamın məzarı bu gölün sahilindədir. Əbubəkr

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Tehraniyə görə, Oğuz xanın qəbri də bu gölün sahilindədir. Bizim son araşdırmalarımıza görə isə, bu gün dünyanın qədim erməni mənbələri kimi tanıdığı yarısaxtalaşdırılmış qədim türk – qarqar tarixində adı Qornu//Qarni kimi keçən Dədə-Qorqudun ata-baba yurdu da bu gölün sahilindədir.

O müqəddəsləri bağrında saxlayan torpaq da müqəddəsdir, müqəddəs ruhlar məkanıdır. Sən o müqəddəs torpağın, o müqəddəs məkanın övladısan, Hüseyn müəllim. Bizim o diyar qarşısında borcumuz hələ tükənməyib. Biz o elləri bir yerdə hələ çox gəzəcəyik...

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Seyfəddin RZASOY*

# ƏRDƏMLİYİN ƏLLİ BEŞ İLİ

«Ərdəmliyin əlli ili»ndən beş il keçdi[1]...

Beş il insanların ömründən bəzən bir göz qırpımı kimi uçub gedir...

Elə indi də bu müddətin nə vaxt keçdiyindən xəbər tutmadıq...

Lakin əslində, bu beş ildə böyük bir epoxa yaşandı: Azərbaycan folklorşünaslıq elminin filologiya elmləri doktoru Hüseyn İsmayılovun adı və əməli ilə bağlanan epoxa...

H.İsmayılovun gördüyü işlərə qiymət vermək çətindir. Çünki onun fəaliyyətinin fövqəlölçülərini dəyərləndirmək üçün çağdaş Azərbaycan folklorşünaslığının, sadəcə olaraq, mizanı – ölçü vahidi yoxdur: milli folklorşünaslıq öz tarixi ərzində heç vaxt bu nəhənglikdə və miqyasda işlərin şahidi olmamışdır.

Sovet dövrü fəlsəfəsinin məşhur bir sualı var idi: «Tarix şəxsiyyətləri, yoxsa şəxsiyyətlər tarixi yaradır?» Biz öz gəncliyimizdə sual barəsində mübahisələr edərdik. Rəsmi fəlsəfə (tarixi materializm) şəxsiyyətin rolunu (imkanlarını) tarixi şəraitə (imkanlara) müncər edirdi. Biz rəsmi auditoriyalardan qıraqda şəxsiyyətin roluna önəm verərdik.

Heç düşünməzdim ki, bir gün gələcək və mən H.İsmayılova münasibətdə bu suala cavab axtarmalı olacağam. Doğrudan da,

---

[1] Щ.Исмайыловун ялли йашынын тамам олмасы мцнасибяти иля йазылмыш йубилей мягаляси нязярдя тутулур. Бах: С.Рзасой, А.Хялил вя Т.Оруъов. «Щцсейн Исмайылов – ярдямлийин 50 или» – «Дядя Горгуд» дярэиси, 2002, № 1, с. 157-162; «Експресс» гязети, 20 декабр, 2002-ъи ил.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

milli müstəqillik dövrümüzün ***Yeni Folklorşünaslıq Tarixi*** birmənalı şəkildə H.İsmayılovun adı ilə bağlıdır. Bu tarixi onsuz təsəvvür etmək mümkün deyil və onun şəxsiyyətindən qıraqda indi içində yaşadığımız ***Yeni Folklorşünaslıq Erası,*** sadəcə, olmazdı. Bütün hallarda başqası olardı.

Bu da bir tale naxışıdır ki, bu tarix mənim gözümün qabağında yaranmış və yaşanmışdır. Öncə biz yaşamın «H.İsmayılov ritminə» köklənə bilmirdik. Çünki bu ritmin sürət təcili, kəmiyyət və keyfiyyət mizanları bütün hallarda bizim ritmimizdən fərqli idi...

O, sürətli və amansızcasına işləyir. «Dayanmaq», «durmaq», «fasilə etmək» kimi feli anlayışlar onun üçün sanki yoxdur. İşləmək, daim fəaliyyətdə olmaq, hərəkətə can atmaq onun varlığının funksional dialektikasını təşkil edir. Fəaliyyət ritmi «Səndən – hərəkət, Məndən – bərəkət» ilahi formulunu aramsız şəkildə təsdiqləyir. O, insan həyatının mənasını yalnız fəaliyyətdə görür.

H.İsmayılovun bütün fəaliyyət dinamikası ilahi fitrətindən gəlir. Heç şübhəsiz ki, insanı yaradan da, ona taleyi verən də Uca Allahdır. Allahı onu belə yaradıb: bir an belə dayanmamaq, daim nəhəng işlər görüb onun cəfası və səfası ilə yaşamaq.

H.İsmayılov üçün fəaliyyətsiz insan, tənbəl, iş-güclə məşğul olan adam ölü timsalındadır. Yadıma uşaqlığım düşür. Uşaqkən yatmağı çox sevərdik: uşaq yuxusu şirin olur. Atam Gülverdi kişi bizi oyadanda həmişə deyərdi: «Durun, a bala, yatmaq vaxtı deyil. Yatmaq vaxtımız gələndə heç kəs gəlib bizi oyatmayacaq».

Mən uşaqkən həmin «yatmaq vaxtının» gəlməsini həsrətlə gözləyirdim. Çox marağında idim: o nə vaxtdır ki, şirin-şirin yatırsan və heç kim də gəlib səni oyatmır. Sonralar anladım ki, həmin «yatmaq vaxtı» ölümdür və ulularımız yatmağa ölüm kimi baxırmışlar. Elə oğuz babalarımız da yatmağı «kiçik ölüm» adlandırırdılar.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

H.İsmayılovun da Allahın «həyat» adlı nemətinə münasibəti minilliklərin müqəddəs inamlarına söykənir. Ulu kosmoqonik yaddaşımızın «Həyat-Ölüm» kosmoqonik modeli onun şəxsiyyətində bütün arxetipik saflığı ilə reallaşıb: o, fəaliyytəsizliyi, dayanıb durmağı, ətalətə qapılmağı «diriykən ölü» formulu əsasında birmənalı olaraq qəbul etmir.

AMEA Folklor İnstitutunun direktoru, filologiya elmləri doktoru, folklorla bağlı neçə-neçə fundamental monoqrafiya və toplama kitablarının müəllifi Hüseyn Ələsgər oğlu İsmayılovun fəaliyyəti «folklorşünas alim» qəlibinə heç bir halda sığmır və o, lap çoxdan həmin qəlibi «vətəndaş alim» və «ictimai xadim» semantik qəliblərinə oturtmuşdur.

H.İsmayılov bir insan, alim və ictimai xadim kimi epoxal şəxsiyyətdir. Onun fəaliyyəti, hansı bucaqdan baxılırsa-baxılsın, bütün hallarda «epoxal» vahidi ilə təyinlənə bilir. Başqalarına röya kimi görünən, icrası, adətən, qeyri-müəyyən gələcəyin (gələcək nəsillərin) öhdəsinə buraxılan işlər H.İsmayılovun gündəlik və adi həyat tərzini təşkil edir. Tarix və şəxsiyyət onun varlığında qovuşaraq Azərbaycan mədəniyyətinə belə bir passionar simanı təqdim etmişdir.

O, L.N.Qumilyovun etnos nəzəriyyəsindən çıxış etsək, passionardır. Belə şəxsiyyətlərin fəaliyyəti bütün hallarda epoxal səciyyəli olur. Tarix H.İsmayılovu həm fiziki, həm də mənəvi-milli anlamda epoxal dəyişikliklər üçün yaratmışdır. O, Azərbaycan folklorşünaslıq tarixində yeganə şəxsiyyətdir ki, minilliklərin fiziki qovuşmasını epoxaların milli-mənəvi qovuşmasına çevirə bilmişdir.

Azərbaycan (folklorşünaslıq) tarixinin H.İsmayılov adlı şəxsiyyəti:

– Sovet epoxasında Nizami adına Ədəbiyyat İnstitutunun bir şöbəsinə «sıxışdırılmış» milli-mənəvi zənginliyimizi – folkloru

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

müstəqillik dönəmində ideoloji «əsarətdən» qurtarıb, Folklor İnstitutu adlanan möhtəşəm tarixi hadisəyə çevirdi;

– O, «folklor» adlanan milli dəyər sisteminin etnik-mental şüurumuzda, elmi-mədəni həyatımızda bərqərar olmasından ötrü, sözün gerçək anlamında, böyük bir mücadilə və savaş apararaq onu zəfərlə başa çatdırdı: folkloru öz korporativ-iqtisadi mənafelərinin, xəstə-ambisioz təkəbbürlərinin, mutant-pataloji düşüncələrinin əsirinə çevirən insanların yaratdığı antimilli sistemi dağıdıb, onu sağlam milli sistemlə əvəz etdi;

– Bütün sovet epoxası ərzində cəmi yeddi sayı çapdan çıxmış və Azərbaycan folklorşünaslıq elminin «sifəti» («siması») sayılan «Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər» məcmuəsini ***milli nəşr*** səviyyəsinə qaldırıb, onun sayını keçən müddət ərzində 27 cildə çatdırdı;

– «Azərbaycan folklor antologiyası» seriyasının işini təşkil edib, folklorumuzun regional mühitlər üzrə çapını 18 cildə çatdırdı. Bu – fatehlikdir: azərbaycanlının Azərbaycan mənəviyyatının zirvəsinə doğru yürüşündə 18-ci pillədir. Yurdun 18 bölgəsinin folklor yaddaşımızın yazılı salnaməsinə həkk olunmuş 18 səhifəsidir;

– Xalqımıza Azərbaycan mədəniyyəti tarixində öz yeri və missiyası olan «Dədə Qorqud» dərgisini bəxş etdi;

– Azərbaycan və türk xalqlarının folklor tarixində annaloqu olmayan, yeni minilliyin layihəsi sayılan, hətta bünövrəsinin qoyulması hər xalqa nəsib olmayan «Folklor külliyyatı»nın ilk on cildini çapdan buraxmışdır.

Biz cəsarətlə deyərdik ki, «Azərbaycan folkloru külliyyatı» hələ çoxlarının nəzər-diqqətini cəlb etməsə də, elm sahəsində, folklorşünaslıqda dünya səviyyəli hadisə olacaqdır. Bu gün onun cildlərinə rast gələndə, sadəcə olaraq, məmnunluqla qarşılayan insanlar bir vaxtlar bu nəşrdən milli şərəf və iftixar abidəmiz, bizi

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

bizə və dünyaya tanıdacaq, xalqımızın şərəf və ləyaqət pasportu olacaq monumental-milli abidə kimi danışacaqlar.

H.İsmayılov indiyədək çox böyük layihələr reallaşdırmışdır: o, zirvələr fəth etmək üçün doğulmuşdur. Elmdə dünya səviyyəli konsepsiyalar müəllifi, aşıq yaradıcılığının mənşəyinə dair yeni konsepsiyası dünya alimlərinin böyük maraq və reaksiyasına səbəb olmuş H.İsmayılovun özü indi «Külliyyat»ın əzabının mənəvi feyzi ilə yaşayır.

Onun «Külliyyat»ın ilk cildində xalqına müraciəti, əslində, millət oğlunun millətə çağırışıdır: «...məhz milli hədəflər naminə, millətin hədəfləri naminə, bizi bir fərd kimi millətləşdirən hədəflər naminə Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutu Uca Tanrının adını çağıraraq Azərbaycan elminin miladın III minlilliyində qarşısında duran ən uca hədəflərindən biri olan **«Azərbaycan Folkloru Killiyyatı»nın** nəşrinə başlayır»[1].

Öz yaşamında sakral-mənəvi dəyərlərə söykənən H.İsmayılov «Azərbaycan folkloru külliyyatı»na ilahi kitabların sakral paradiqması kimi baxır: «Əziz oxucu, qarşında duran bu kitab sənin üçün, heç şübhəsiz ki, kitablar kitabı «Qurani-Kərim»dən sonra ən uca kitabdır. Sən onu müqəddəs bil: çünki sənin ulu baban millətin kitabını «Quran»dan sonra ən ulu kitab bilib. Oğuz babalarımız Oğuz kağan babamızın «Ata sözlərini» məhz «Qurani-Kərim»in müqəddəsliyinə yaraşdırıb və «Atalarun sözi Qurana girməz, amma Quran yanınca yalın-yalın yalışur», – deyib... «Azərbaycan Folkloru Külliyyatı» Oğuz Atanın – tanrıçı türk peyğəmbərinin müqəddəs kəlamlarıdır. Xalqımızın ulu tarixi yaşayır bu kəlamlarda. «Külliyyat»ın hər səhifəsi milli varlığımızın qan – gen yaddaşıdır.

---

[1] Щ.Исмайылов, С.Рзасой. Азярбайъан фолклору вя фолклоршцнаслыьы епохалар говшаьында – Азярбайъан фолклору кцллийййаты, I ъилд: Наьыллар. I китаб. Б., «Сяда», 2006, с. 7

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Qanında və genində millətin ruhundan hətta bir damla olan kəs bu ulu kitaba biganə qala bilməz... «Azərbaycan Folkloru Külliyyatı»... millətin və millət olmağın məhək daşıdır: özünü yurda oğul sayan, özünü vətənin qızı bilən hər bir kəs «Külliyyat»ın içindən keçib, vətəndaş statusu almalıdır. AMEA-nın Folklor İnstitutu minilliyin bu layihəsini başlayarkən qarşısına məhz bu hədəfləri qoymuş, özünün bütün milli, mənəvi, maddi, iqtisadi ehtiyatlarını, İntellektual potensialını bu uca hədəfin reallaşdırılmasına yönəltmişdir»[1].

H.İsmayılov bu nəşrlə, əslində, millət tarixinin yeni təkamül nöqtəsinin təməlini qoymuşdur: «Azərbaycan Folkloru Külliyyatı» öz cari hədəfində yeni əsrin, strateji hədəfində isə minilliyin proyektidir. Biz bu ilk cildlə Azərbaycan folklorşünaslığının bütöv XX əsr boyu arzusunda olduğu, lakin heç bir vaxt reallaşdıra bilmədiyi milli proyektin bünövrəsini qoyuruq. Elə bir etibarlı bünövrəni başlayırıq ki, millətin mənəviyyatı dünya durduqca onun üzərində dura bilsin...»[2]

H.İsmayılovun elmi-ictimai fəaliyyəti qəliblərə sığmadığı kimi, onun dəyərləndirməsini aparıb, təhlil-təsnifatını vermək də çətindir. Çünki bu şəxsiyyətin fəaliyyətinin görünən və görünməyən tərəfləri var. Ona görə də hər hansı sistemləşdirmə bütün hallarda yarımçıqlığa müncər olunur. Ancaq bütün bunlara baxmayaraq, həyatı və fəaliyyəti, müəyyən mənada, artıq əfsanəyə dönmüş bu insanın şəxsiyyət və alim portretinin yaradılmasına ehtiyac və zərurət vardır.

H.İsmayılovun «portreti» özünün görünən tərəfləri ilə aşağıdakı təməl tərəfləri ilə boy verir:

**1. Özünün etnik-mental tipi etibarilə tipik azərbaycanlıdır:**

---

[1] Щ.Исмайылов, С.Рзасой. Эюст. гайнаг, с. 7
[2] Щ.Исмайылов, С.Рзасой. Эюст. гайнаг, с. 7-8

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

– bütün canı və qanı, cismi və varlığı ilə ailəsini, uşaqlarını, doğmalarını sevir.

**2. Psixoloji tipi etibarilə passionardır:**

– daxilində çox böyük yaradıcılıq enerjisi, qurmaq, yaratmaq həvəsi kükrəyir;

– ilk baxışda çox səbirsiz adam təsiri bağışlayır və bu keyfiyyətdən, haradasa, məhrum da deyil;

– passionarlığı xarakter və davranışlarında açıq şəkildə büruzə verən davakarlıq, mübarizlik kimi keyfiyyətlərdə də təcəssüm olunmuşdur;

– başlıca passionar keyfiyyəti yaradıcılıq və quruculuqdur.

**3. Yurdcanlı – vətənpərvərdir:**

– doğulduğu Ağbulaq kəndini də, kəndinin məkanlaşdığı Göyçə mahalını da, mahalın məkanlaşdığı Azərbaycanı da, Turanı da eyni dərəcədə sevir.

**4. İntellektual tipi etibarilə yaradıcı alimdir:**

– tədqiqatları, fundemental elmi konsepsiya və nəzəriyyələri ilə artıq dünya türkologiyasında tanınır.

**5. Alim tipi etibarilə filoloqdur:**

– professional filoloji təhsil almış və nəzəri-filoloji görüşləri çağdaş Azərbaycan filoloji-estetik fikrinin patriarxı, mərhum Yaşar Qarayevin rəhbərliyi altında formalaşmışdır.

**6. Humanitar-filoloji tipi etibarilə folklorşünasdır:**

– folklor onun fitrətindədir: mayası, qanı və canı ilə folklora bağlıdır;

– folklorun bağrından qopmuş və heç bir zaman ondan ayrı düşməmişdir.

– onun milli görüşlərində folklorun xüsusi anlamı vardır: H.İsmayılova görə, «xalq-millət» adlı varlığın mənası folklordan başlanıb, folkorda da tamamlanır.

**7. Sosial-psioxoloji tipinə görə liderdir:**

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

– harada olursa-olsun, hadisələrin fövqünə qalxıb, idarəçilik qabilyyətini reallaşdıra bilir;

– liderlik imicini qorumağı bacarır: bu keyfiyyəti hər yerdə yox, reallaşdırılma rejiminə şərait yarandıqda tətbiq etməyi bacarır.

**8. Məharətli və bacarıqlı tribundur:**

– aydın və məntiqi nitqi var: inandırıcı və elmi danışır;

– nitqini, fikrini cilalamağı sevir: bunun üçün nitq repitisiyalarından (təmrinlərindən) tez-tez istifadə edir;

– məsuliyyətli və gərgin şəraitlərdə cəsarətli çıxışlar edib, yuxarı instansiyalar qarşısında özünün və institutun mövqeyini əsaslandıra bilir.

**9. Dövlətə və dövlətçiliyə, onun ideoloji dəyər və əsaslarına sadiqdir:**

– H.Əliyevin dövlətçilik təcrübəsinin konseptual əsaslarını şüurlu şəkildə qəbul etmişdir;

– O, H.Əliyev idealına əski türk dövlətçilik ənənələrinin konseptual modeli çevrəsində yanaşır;

– milli dövlət və onun qurucuları H.İsmayılov üçün həyatının ən uca idealı və mənasıdır;

– H.Əliyev AMEA Folklor İnstitutunun yaradıcısı kimi H.İsmayılov üçün Azərbaycan folkloru və folklorşünaslığının ulu hamisidir.

**10. Bir türk oğlu olaraq Azərbaycançılıq ideallarına bütün varlığı ilə bağlıdır:**

– onun üçün milliyyətindən asılı olmayaraq, bütün gücü ilə qoruduğu «azərbaycanlı haqqı» adlanan vətəndaş məsləki var: o, bu məsləkini heç vaxt heç kimə və heç nəyə dəyişməmişdir.

**11. Azərbaycanı dünyada tanıdan alim və ictimai xadimdir:**

– yeni elmi konsepsiya və nəzəriyyələri dünya türkoloqlarının diqqətini cəlb etmiş, haqqında çoxsaylı yazılar yazılmışdır;

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

– qardaş Türkiyədə elə bir şöhrət tapmışdır ki, həmin Ölkənin elmi təşkilatları beynəlxalq elmi layihələri H.İsmayılovla birgə böyük həvəslə həyata keçirirlər;

– hər il öz şəxsi təşəbbüsü və əzmkarlığı ilə düzənlədiyi «Ortaq türk keçmişindən ortaq türk gələcəyinə» adlı beynəlxalq folklor konfransında dünya folklorşünaslarını bir araya gətirməklə Azərbaycanı artıq ümumtürk folklorşünaslığının mərkəzinə çevirmişdir.

**12. Azərbaycan folklorşünaslıq elminin patriarxıdır:**

– çağdaş Azərbaycan folklorşünaslığının hazırkı coşğun intibahı birbaşa və birmənalı şəkildə H.İsmayılovun adı ilə bağlıdır;

– o, Azərbaycan folklorşünaslıq elminin həm ağsaqqalı (patriarxı), həm də qara fəhləsidir: Azərbaycan folklorşünaslığına rəhbərlik etməklə yanaşı, yorulmadan folklor toplayır və bu elmin inkişafına toplayıcı və tədqiqatçı folklorşünas kimi də misilsiz töhfələrini verir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Ağaverdi XƏLIL*

# FOLKLOR FƏDAİSİ

Hğseyn mğəllimin Azərbaycan milli humanitar elmlərinin inkişafında xğsusi rolu və müvqeyi var. Geniş və əhatəli fəaliyyəti ilə az zamanda zox iş gürmğş milli humanitariyanın izində yeni elmi istiqamətin əsasını qoymuşdur.

Yeni düvr Azərbaycan folklorşğnaslığı və Azərbaycan kulturologiyasının yeni mərhələsi Hğseyn İsmayılovun fəaliyyəti ilə əlaqəlidir.

Mğstəqillik düvrğnğn ilk illərində büyğk sıxıntılar yaşayan, və tənəzzğl etməkdə olan elmi təşkilatlardan birinin dirzəlməsi və bu əsasda mğtəşəkkil bir institutun yaradılması kimi fədakar fəaliyyət onun halal haqqıdır.

Hğseyn mğəllim millətini sevən, xalqının taleyi ilə yaşayan, yurd duyğusuna zox bağlı olan və vətənlə künğl dğnyası arasında məsafə saxlamayan bir insandır.

Hğseyn mğəllim zox narahat bir adamdır. Bu narahatlıq milli təəssğbkeşlikdən və bəşəri məsuliyyətdən irəli gəlir. O, ətrafında və dğnyada baş verən hadisələrə həssas yanaşır, onları vətəndaş müvqeyindən və humanitar hisslərlə qəbul edir, onların konstruktiv məcraya yünəlməsi ğzğn bğtğn qğvvə və imkanlarını əsirgəmir. Proseslərə təsir etmək mğmkğn olmayanda belə onu dəyişdirmək, daha kamil və faydalı etmək ğzğn cəhdlərindən əl zəkmir.

Dünyanın hər yerində soykökə, ilkin mənəvi dəyərlərə kütləvi qayıdış, əslində, folklora qayıdış deməkdir. Ulu türk sərkərdəsi Bilgə Xaqanın daşlara yazılmış «Ey türk, titrə, özünə dön» vəsiyyət-tapşırığı da eyni kökdən ayrılan soydaşlarımızı bir araya gətirmək üçün vahid «folklor körpüsündən» keçirir. Türk xalqlarının çağdaş mədəni birliyinin formalaşmasında, milli-mənəvi münasibətlərin, intellektual əməkdaşlığın qurulmasında çox dərin qatlara işləmiş folklor qaynaqlarımızın misilsiz əhəmiyyəti var. Bu gün biz müstəqil ölkə olaraq milli mənliyimizi, müstəqil dövlətçiliyimizi qoruyub-yaşatmağa geniş imkanlar qazanmışıq. Halbuki bir zamanlar bu imkandan məhrum olan Vəli Xuluflu, Hənəfi Zeynallı, Salman Mumtaz kimi folklorşünas ziyalılarımız milli müstəqillik, milli dövlətçilik meyllərini folklor nümanələrini xalqdan toplayıb xalqa qaytarmaqla ifadə etmişlər. Yəni xalq ruhunun ifadəsi olan folklorumuz və bu ruhun daşıyıcıları olan folklorçularımız 37- ci ilin repressiyasından qıraqda qalmamışlar. Stalin, Beriya, Mikoyan, Bağırov qaragüruhunun əksər qurbanları xalq dilini, xalq ədəbiyyatını xalqına sevdirən insanlar – həqiqi ziyalılar olmuşlar. İndi zaman folklorun xeyrinə işləyir. Şifahi söz sənəti qaynaqlarımızda az qala itib-batmağa başlayan mənəvi dəyərlərimizi, sənət incilərimizi ipə-sapa düzərək zaman-zaman onu yaratmış qədim və müdrik xalqımızın öz ixtiyarına vermək günümüzün tələbidir. Bu tələblərə fərdi qaydada yox, akademik bir durum kimi cavab vermək missiyası İçərişəhərdə yerləən Dədə Qorqud adına Folklor Elmi-Mədəni Mərkəzinin öhdəsinə düşüb. Cəmi bir neçə illik fəaliyyəti dövründə Folklor Mərkəzi həqiqətən

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

folklorun toplanması, araşdırılması, nəşri və təbliği istiqamətində ciddi işlər görən elmi, mədəni mərkəzə çevrilmişdir.

Ədalət naminə qeyd etməylik ki, Folklor Mərkəzi bu yaxınlarda dünyasını dəyişmiş görkəmli tənqidçi-ədəbiyyatşünas Yaşar Qarayevin təşəbbüsü və gərgin əməyi nəticəsində yaranmışdır. Xalqını sevən hər kəs, şübhəsiz, onun folklorunu da sevir. Y. Qarayev kimi xalqına, dövlətinə və məmləkətinə bağlı bir alimin, bir vətəndaşın folklora sevgisindən Folklor Mərkəzi «göyərəndə» buna dodaq büzənlər də az olmamışdır...

Lakin zaman hər şeyi öz yönünə qoydu. İndi Folklor EMM Azərbaycan MEA-nın müstəqil bir institutu kimi fəaliyyətini daha da genişləndirmək statusu alıb. MEA Nizami adına Ədəbiyyat İnstitutunun Elmi Şurası buna qərar verib. Görünür, Folklor Mərkəzinin fəaliyyəti ayrıca bir İnstitun fəaliyyət proqramından heç də geri qalmadığına görə Akademiyanın rəhbərliyi bu qənaətə gəlmişdir.

Folklor Elmi Mədəni Mərkəzinə f.e.d. H.İsmaylov rəhbərlik edir. Ələsgərin, Alının doğma obası Göəyçədə, sazın-sözün unikal mühitində dünyaya göz açan Hüseyn müəllimin folklora bağlılığı onun irsi-genetik yaddaşı və qançəkərliyi ilə ilgilidir.

1988- ci il deportasiyasını təəssüflə yadına salan professor Y.Qarayevin «... yalnız folklor Göyçəyə xəyanət etmədi» sözlərində böyük həqiqət var. Göyçə kimi, Kəlbəcər də, Laçın da, Cəbrayıl da... Dağlıq Qarabağ da düşmən ələinə keçdi. Lakin el-oba doğma yurdundan dağılsa da folklor «dağılmadı». Memarı xalq olan bu möhtəşəm məbədin eksteryerində yalnız kiçik «çatlar» müşahidə olundu. Bu «çatların» bərpası naminə əlindən gələni əsirgəməyən Hüseyn müəllimin dediklərindən:

- Mən hələ kiçik yaşlarımdan folklor nümunələri toplamağın həvəsinə düşmüşdüm. Bu ehtiras mənim doğulub boya-başa çatdığım saz-söz mühiti ilə tam bağlı idi. Göyçə, Vedibasar, eləcə

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

də Qərbi Azərbaycanın digər mahalları sanki folklor inciləri ilə cilalanıb bədii görkəm almışdır. Belə bir diyarda mənim kimilərinə görüb eşitdliklərini yazıya almaq qalırdı. Mən o illərdə özümün folklor arxivimi yarada bilmişdim. Məlum hadisələr ərəfəsində İrəvan Dövlət Pedaqoji İnstitutunda müəllim işləyirdim. Soydaşlarım ulu topaqlarından məcburən köçməyə başlayanda gözümə görünən ailə üzvlərim, bir də folklor arxivim oldu. Şükürlər olsun ki, mən ailəmi və övladlarım qədər sevdiyim arxivimi Bakıya çatdıra bildim... Mərhum professor Y.Qarayev bir vaxtlar Göyçəyə gəlişində mənim qonağım olmuşdu. İllərdən bəri gilə-gilə topladığım folklor nümunələri ilə tanış olan Y.Qarayev xalq ədəbiyyatına sonsuz məhəbbətimi o zamandan hiss etmişdi. Tale belə gətirdi ki, mən Bakıya gələndən sonra Yaşar müəllimin təşəbbüsü və gərgin əməyi SAyəsində yaradılmış Folkolr Mərkəzinə rəhbərlik etməli oldum. İndi bu mərkəz MEA-nın müstəqil bir İnstitutuna çevrilmək ərəfəsindədir. Folklora xalq ədəbiyyatı nümunələrinə dövlət səviyyəsində qayğının təzahürü kimi qiymətləndirdiyim bu münasibətə görə ölkə rəhbəri, möhtərəm prezidentimizə 200 nəfərlik alim kolletivimiz adından dərin təşəkkürümü bildirirəm. İnanıram ki, Dədə Qorqudun adını daşıyan bu elmi müəssisə xalqımızın bədii təfəkkür tarixinin ən qədim qatlarında yuva salmış söz sənət incilərinin üzə çıxarılıb çağdaş oxucularımıza çatdırılmasında çox mühüm rol oynayacaqdır. Bu yaxınlarda Milli Məclisin Mədəniyyət Məsələləri daimi Komissiyasının sədri Anar müəllimin rəhbərliyi ilə «Folklor nümunələrinin hüquqi qorunması» haqqında qanun lahiyəsinin hazırlanması da folklora dövlət səviyyəsində diqqət və qayğının bariz nümunəsidir. Bizim Mərkəz qısa zaman içində «Naxçıvan folkloru», «Göyçə folkloru», «Gəncəbasar Folkoru», «Qaraqoyunlu folkloru», «Şəki folkloru», «Qarabağ folkloru» kimi antologiyaları oxucularımızın ixtiyarını verib. İndi yüz cildlik

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

«Azərbaycan folkloru»nun nəşrini planlaşdırmışıq. Azad Nəbiyev, İsrafil Abbaslı, Qara Namazov, Mürsəl Həkimov, Paşa Əfəndiyev kimi folklorşünas mütəxəssislərin, eləcə də türk aləminin tanınmış alimi, «Qorqudşünaslıq» şöbəsinin müdiri prof. Tofiq Hacıyevin bizim Mərkəzlə əməkdaşlığı dəyərli nəticələr verir. Bu nəticələr isə xalqımızın sabahı, folklorşünaslığımızın gələcəyi üçündür

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əli KƏRİMBƏYLİ*
**AMEA Folklor İnstitutunun elmi işçisi**

# ƏLVAN ÜFÜQ ADAMI...

## Bədii ricət

Salam əziz həmsöhbətim. Sən üfüqü seyr etmisənmi?! Bir səhər erkən vaxtı. Bir də axşam Gün əyiləndə. Üfüq hər iki halda çox cəlbedicidir. Fəqət, dan sökülən üfüq, insana dərin könül xoşluğu bəxş etdiyi halda, gün əyilən üfüq isə bir o qədər həyəcan, bir də həyəcan ilğımında titrək bir niskil gətirir. İnsan ruhuna həzz və iztirab məqamları yaşadan üfüq öz taleyini və xoşbəxtliyini axtaran hər bir ziyalı, düşüncəli insanın arzularının rəngi deyilmi?! Hər zaman xəyallarının səsini eşidən insan, üfüq rəngli arzuların fövqünə yüksəlmək, oralarda, üfüq ötəsində qüdsiyyətə boy vermək, müqəddəsliyə qarışıb yaşamaq istəyini qanına, canına, qəlbinə, könlünə doldurur, oralarla qovuşmaq həvəsiylə çırpınır, çırpınır, arzuların canlı rəmzi olan bəmbəyaz göyərçin kimi, saflaşmış, durulmuş, arımış, arıtlanmış bir həyat gerçəkliyinin özü kimi yenidən ulduzlardan uzaq yer dünyasına geri qayıdır...

Mən, Hüseyn İsmayılovu məhz o anda – bəyaz göyərçin duruluğuna xas bir ovqatı yaşayıb, qüdsiyyətlə adi bir könül xoşluğu içərisində, insani saflığın ən məsum və kövrək bir məqamını yaşadığı zaman görüb, görüşüb, salamlaşıb, kişiyana bir hali-tərzdə tanış oldum. Millətimizin cəfakeş ziyalıları Zaman Əskərli və Qurban Bayramov bu tanışlığı daha etibarlı etdilər.

## Kiçik mükalimə

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Hüseyn müəllimlə tanış olandan sonra hamı kimi «havadan, sudan» danışmadıq. Çoxları təkin Bakının küləyindən, avtotıxaclarından, yolayırıcı körpülərindən, dolların düşüşündən, manatın məzənnəsinin qalxmasından danışmadıq. Birbaşa, sözləşmiş adamlar kimi, Türk dünyasının coğrafiyasından, Türk xalqlarının iqtisadi-siyasi durumundan, ortaq türk keçmişindən, ortaq türk gələcəyindən, Uyğur türklərinin mədəniyyətindən, Balkan, Ural türklərinin mədəniyyətinə qədərki bir coğrafiya tarixindən, dünya sivilizasiyasının inkişafında türkün misilsiz xidmətindən və s. və mövzulardan danışdıq. Hər ikimiz natur-məişət gerçəkliyinin üstündə qərar tutmuş, həyatın boz reallığına enmək və ya onu xatırlamaqdan uzaq idik. Birdən Hüseyn müəllim sözü kəsib məndən soruşdu:

– Harda işləyirsən?

– Heç yerdə, Hüseyn müəllim.

– Lap yaxşı.

Mən bir az təəccüblə gülümsədim. Əcəba, işləməməyin nəyi yaxşı idi. Elə bu ovqat içində soruşdum:

– Hüseyn müəllim işləməməyin nəyi yaxşıdır?

Hüseyn müəllim, özünəxas razılıq təbəssümü ilə dedi:

– Əgər işləsəydin, mən səni öz yanıma dəvət edə bilməzdim. Gəl yanıma, sən mənim yanımda işləyəcəksən, mütləq gəl, gec qalma, oldumu?!

– Hüseyn müəllim, mənim Yekaterinburqa bir həftəlik, ongünlük bir səfərim var...

– Oldu, yanvarın 25-30-arası gəl, İçərişəhərdə Folklor İnstitutuna Oldumu?!

Mən:

– Oldu, yaxşı, Hüseyn müəllim, – dedim. O, bizdən aralandı.

Qurban müəllim mənə razılıq hissi ilə baxıb, mənim qərarımı tərcih etdi:

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

– Yaxşı etdin razılıq verdin, get. Sənin yerin oradır. Hüseyn müəllim bizim gördüklərimizdən deyil. O, qızıl adamdır, təmənnasızdır, tam arxayınlıqla get, özü də bizim adamdı, milli qanlı, qeyrətli oğlandı, gözəl alimdi.

Zaman müəllim də mənə:

– Sən arxayın ol, o əsl ziyalıdı, umacağı-zadı olan adam deyil, yerlipərəst də deyil, qabiliyyətli adamların hamısına kömək edən adamdır, dedi.

Mənə sadəcə bir söz demək qaldı:

– Baş üstə!

**Bədii ricət**

«Ruhani» havası sazın qızılı simlərindən sıxılıb, bahar nəsiminin ilıq sığalı kimi yağırdı ay üzümüzə, gün gözümüzə, ulduz bəbəklərimizə. Hüseyn müəllimin gözlərinin işıq selindən keçən ruhani təranəsi əzəmətli dağların Vüqarından dalğa-dalğa, cilvə-cilvə gah məclisə səpilir, gah dostların kirpiklərinə bir ruhani şehi kimi qonur, gah da Dədə Ələsgərin alnının niskil qırışlarından aldığı səsin ecazıyla sinəmizdən ürəyimizi qoparır, yaşıl dərələrin dumanından içir sərt qayaların qaşına çəkirdi...

**Hüseyn müəllimin kişi bütövlüyü**

Hüseyn müəllimlə danışıb şərtləşdik. Mən ona söz verdiyim, vaxtda gəldim. Hüseyn müəllim məni Gülüstan xanımla tanış etdi. Gülüstan xanım əsmər çöhrəli, çox mehriban bir türk qızıdı. Türk deyəndə, yəni oğuzların Azərbaycan boyundandı. Onun tapşırdığı sənədləri gətirdim. Hüseyn müəllim sözü ilə əməlinin bütövlüyünü alp ərənlərə məxsus cəngavər kişi səviyyəsində, kişiliyin peşəkarlıq ölçüsü ilə həll etdi. Mən «Türk xalqlarının folkloru» şöbəsində işləməli oldum. Atalar demiş: «başına gələn, başmaqçı olar». Mən Hüseyn müəllimin kişilik cizgisinin şahidi olmuşam,

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

necə deyərlər, başıma gəlib, gözümlə görmüşəm!... Mehriban, ürəyi yumşaq – əsl millətsevər ziyalıya məxsus, xoş rəftarlı, xəlqi zarafatıyla saxta kübar təbəssümlərdən uzaq, təmiz ruhlu, bütün varlığı ilə ortaq türk keçmişi ilə yaşayan, özünü ortaq türk gələcəyinin çeşidli, dürlü, cahanşümul kriteriilərinə hesablayan böyük insan...

Hüseyn müəllimin kişi canfəşanlığını, fədakarlığını, aydınlığını göstərən cizgilər və əlamətlər tuncdan heykəl yapan bir heykəltəraşın əlindəki tunc parçaları və malzəmələri timsalındadır. Qafqazlı bir igidin, Əlhəmdüllillah, müsəlman bir mərd igidin, bir əlində saz, birində qələm tutmuş bir Azərbaycan igidinin heykəlini yapmaq istəyən rəssam-heykəltəraşın tunca, qızıla, əlvanlığa olan ehtiyacı qədərdir bu əlamətlər.

Hüseyn müəllimin alim zəkası Folklor İnstitutundan uzantılarıyla Bakı Dövlət Universitetinin dərsxanələrinə çatanda onun insan, kişi bütövlüyü yeni mərhələyə – alimdən müəllimə keçir.

Hüseyn müəllimin pedaqoji fəaliyyəti ayrı söhbət mövzusudur, ancaq onun həyati gerçəkliyinin bir tərəfidir. Bu tərəfi onunla birlikdə çalışan professor – müəllim heyəti, bir də, onun tələbələri daha yaxşı bilər. Bir dəfə mənim xətri əziz, hörmətli müəllimim Allahverdi Eminovdan eşitmişdim ki, böyük Adamlar haqqında Napaleon deyibmiş: Böyük adamlar, özlərini millətinin gələcəyi üçün yandıran meteorlardır. Dəyərin Napaleonvarı ölçüsü – Hüseyn müəllimin həyati varlığını birmənalı şəkildə dövrələyib, əhatə edir.

**O, ciddi alimdir.**

Hüseyn müəllimin elmi fəaliyyətini Azərbaycan folklor mədəniyyətinin bütün sahələrini, mövzularını, yüksək peşəkarlıqla, araşdırmaçı-alim üslubu ilə təhlil etməsi səciyyələndirir. Onun Göyçə folklor mühitinə həsr etdiyi araşdırmaları, bu mühitin mənşə xüsusiyyətləri və inkişaf mərhələləri bir çox əsərlərində

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

araşdırmaya cəlb edilmiş, dərin elmi yeniliklər və nəticələr qazanmışdır.

Bu sırada Hüseyn İsmayılovun «Göyçə dastanları», «Aşıq yaradıcılığı», «Azərbaycan folklorunun regional xüsusiyyətləri», «Aşıq sənətinin beşiyi Göyçə», «Türk eposunun dastan informasiyası – mənbələrdə», «Dədə Ələsgər, Həqiqət və dastanın sənət vəhdəti» və s. və i... monoqrafiya biçimli kitabları, jurnal məqalələri, qəzetlərdə müsahibələri, Radio-Televiziya verilişlərindəki çıxışları onun çoxpilləli, çoxşaxəli elmi-yaradıcılığının coğrafiyasını, elmi həcmini əlçatmaz edir. O, öz işinin peşəkar üslubda təhlilçisi, ciddi mütəxəssisi, alimidir.

**Hüseyn müəllimin itirdiyi...**

İnsan həyatda çox şeyini itirir. Amma itirdiyimiz hər şeyin yerini zaman doldurur. Təkcə birindən başqa. Bu Vətəndir, bu Torpaqdır, bu doğma bulağımızdan axan Sudur. Vətənin, Torpağın və Suyun yerini doldurmağa Zaman acizdir. Zaman, Allahın insan cəmiyyətinə uzanan nəzarət əli olsa da, Torpaq, Su yarasını nə unutdura bilir, nə onun yerini doldura bilir, nə də o kövrək yaranı kətan tənziflə sarıya...

Hüseyn müəllim Ağrı dağın şimal-şərqini, Dərələyəzi, Zəngəzuru, Göyçəni itirib. Dağları, dərələri, yarpızlı soyuq pınarları, əfsanəvi qayaları, şenlikləri, vahələri, mor çiçəkli yamacları, enişli-yoxuşlu yollarını, Qərbi Azərbaycanda qalan məzarları, məzarlarda sızıldayan sümükləri itirib.

Qədim Oğuz yurduna yayılan, daşın, qayanın daş yaddaşına hopan sazın həyəcanlı, şirin səsini itirib...

Xalqımızın milli faciə tarixini əks etdirən mənəviyyat salnaməmizin qızıl səhifələrini itirib Hüseyn müəllim. Nahaqdan deməmişlər, su gələn arxa bir də gələr. Yəqin tarixin sərt döngə-

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

lərindən birində millətimiz itirdiyini tapacaq, Hüseyn müəllim də hər birimizlə bahəm...

## Son haşiyə

Hüseyn müəllim dənizə hamı kimi baxmır. Hüseyn müəllim dənizin dərin maviliyində millətimizin itirdiklərinin obrazına baxır; dənizin əlvan-mavi üfüqündə Göyçə gölün ləpəsini, şahə qalxan dalğaların kişnərtisində Dərələyəzə yağan bahar leysanının hönkürtüsünü eşidir. O, üfüqdə yanan Gün şüalarının hər birində, aldığımız zədələr və zərbələrin əvəzinə ümid qığılcımlarının parlaq qorunu görür. Mən, Hüseyn müəllimin ömür yolunun tam ortasında 55 yaşının mübarək vəsiləsiylə düşündüm. Düşündüklərimi söyləmək üçün üzümü Hüseyn müəllimin çox sevdiyi Saza və Sözə tutdum; Dağlara və Dərələrə, Çaylara və Bulaqlara, Əlvan üfüqlərin qüdsiyyətinə və müqəddəsliyə tutdum.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Fəzail MİSKİNLİ*
*Sənətşünaslıq namizədi*

## SAZ-SÖZ VURĞUNU

Hüseyn müəllim haqqında danışanda, açığı, bilmirəm bir insan kimi onun hansı gözəl keyfiyyətləri haqqında danışım. Hər hansı peşənin, vəzifənin sahibi olursa olsun, mənim aləmimdə ən yüksəkdə duran vəzifə, rütbə insanlıq rütbəsidir, insanlıq vəzifəsidir. Mən belə deyərdim ki, Hüseyn müəllim insanlıq vəzifəsinin, rütbəsinin zirvəsində dayanan şəxsiyyətlərdən biridir. Hüseyn müəllimi 1994-cü ildən lap yaxından tanıyıram. Onun nə qədər saf, təmiz bir insan olduğunu mən gözəl bilirəm və dəfələrlə onun şahidi olmuşam. Saf, təmiz olan insanlar təmənnasız olurlar. Hüseyn müəllim təmənnasız bir insandır. Eyni zamanda heç bir ambisiyası olmayan insandır. Onun yalnız bir ambisiyası, məqsədi olub. Milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması, yaşaması, təbliğ olunması.

İncəsənət Universitetinin I kursunda oxuyurdum (1994). Bakıda elə bir mühit hökm sürürdü ki, milli kökə bağlı olan insanlara (misal üçün, aşıq musiqisinə qulaq asan kəslərə) yuxarıdan aşağı baxırdılar. Hətta küçədə əlinə saz alan insanları məsxərəyə qoyurdular, ələ salıb gülürdülər. Bu münasibət, açığı, məni çox sarsıtmışdı. Sanki başqa bir ölkədə yaşayırdıq. Saza-sözə, milli kökə bağlı olan bir yer axtarırdıq ki, ora sığınaq, orada qərar tutaq. Sənət dostum Altayla birlikdə o vaxt Folklor Sarayı adlanan saraya gəldik. Sarayın direktoru bizi qəbul etdi. Hüseyn müəllimlə yaxından tanış olduq. Gördük ki, İlahi, belə bir mühitdə, belə bir məkanda saza bağlı, təmiz, saf bir insan oturub, doğrusu, inanmadıq. Sonra gördük ki, bu insan sözün əsl mənasında türk oğlu türkdür. Həmin ildən Hüseyn müəllim bizi işə qəbul etdi. Halbuki əyani təhsil alanda işlə-

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

məyə icazə yox idi. Lakin Hüseyn müəllim bunu etdi və bizi öz himayəsinə götürdü. Hüseyn müəllim mənə, eyni zamanda bu gün xalqımızın yaxşı tanıdığı aşıqlarımız Altaya, Nemətə həmişə bir övlad kimi yanaşdı. Həmişə deyərdi siz hər üçünüz mənim mənəvi övladlarımsınız. Biz bu gün də Hüseyn müəllimin qayğısını, diqqətini hiss edirik. Və hər üçümüz Hüseyn müəllimin uzun illərdən bəri böyük arzusunda olduğu, yaratdığı Folklor İnstitutunun elmi işçisiyik və biz bununla fəxr edirik. Hüseyn müəllimin bir xüsusiyyətini də qeyd edim ki, həddindən ziyadə kövrək adamdı. Hər hansı bir kəsə əsəbləşər, çox keçməz könlünü alar, peşmançılıq çəkər.

Bu danışdıqlarım Hüseyn müəllimin insani xüsusiyyətləri haqqında idi. Alim kimi də Hüseyn müəllimin çox böyük nüfuzu vardı. İstər Azərbaycanda, istərsə də bütün türk dünyasında. Milli-mənəvi dəyərlərimizin yaşaması, təbliğ olunmasında Hüseyn müəllimin əvəzolunmaz xidmətləri vardır. Misal göstərə bilərəm. Aşıq sənəti tədricən tənəzzülə gedirdi. Hüseyn müəllimin səyi nəticəsində tədricən inkişaf etməyə başladı. Çünki Hüseyn müəllimin doğulduğu yer qədim Oğuz diyarıdır. Sazın-sözün vətənidir. Zaman gələcək Hüseyn müəllimin gördüyü bu işlərə görə əvəzolunmaz bir alim, şəxsiyyət kimi hər bir azəri türkünün qəlbində heykəlləşəcək. Mən Hüseyn müəllimi 55 illik yubileyi münasibəti ilə ürəkdən təbrik edir, ona sağlam can, bu xeyirxah işdə uğurlar arzulayıram.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Sahibə PAŞAYEVA,*
*AMEA Folklor İnstitutunun elmi işçisi*

## QƏLƏMİNİZ TÜKƏNMƏSİN!

Tarixi, mədəni və milli dəyərlərimizi birləşdirən milli folklorumuz özünün gözəlliyi və füsunkarlığı ilə əsrlərdən bəri oxucularını, dinləyicilərini valeh etmiş, elm adamlarının diqqətini cəlb etmişdir. Çağdaşlaşan gəncliyimizin əksəriyyəti bu mənəvi zövqdən uzaq qalmaqdadır ki, bunu da ürək yanğısı ilə qarşılamamaq olmur. Bununla belə, avropalaşmaqda olan cəmiyyətimizdə belə gənclərimizi öz soykökünə bağlamaq, milli dəyərlərimizi yaşamaq və yaşatmaq uğrunda sözün əsl mənasında mübarizə aparan folklorşünaslarımız vardır. Təsadüfi deyildir ki, əsl folklorşünas olmaq üçün sadəcə dərin elmi biliyə sahib olmaq kifayət deyil, bunun üçün yaşamını xalqın milli soykökü üzərində quran, əlinin yazdıqlarını qəlbilə duyan folklorşünas ürəyi lazımdır.

AMEA Folklor İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor H.İsmayılov bu sevgi ilə çırpınan əsl folklor ürəyidir, desəm yanılmaram. Yaradıcılıq sevgisinə hələ gəncliyimdən bələd olduğum Hüseyn müəllimin iç dünyası ilə tanışlığım AMEA Folklor İnstitutunda elmi əməkdaş olaraq fəaliyyətə başladığım gündən düşüncələrimdə daha yeni üfüqlər açdı. Kollektivimizdə mövcud olan birlik, sağlam diskussiya, xoş ab-hava Hüseyn müəllimin həm də bir rəhbər kimi məqsədyönlü işindən xəbər verir. Belə bir mühitdə fəaliyyət göstərmək məsuliyyətli olduğu qədər də şərəflidir. Hüseyn müəllimin özünün və eləcə də redaktorluğu ilə nəşr etdirdiyi cild-cild kitablar, heç şübhəsiz, ədəbiyyatımıza zənginlik qatmaqla bahəm, həm də xalqımıza mənəvi töhfədir. Ona bu yorulmaz işində işıq, qoluna qüvvət diləyirəm!

***Maşallah XUDUBƏYLİ***

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## VƏTƏN QÜRBƏTDƏ QALDI...

İllərin şahidi kimi bəzən mənə elə gəlir ki, Hüseyn İsmayılovun folklora bağlılığı onun ömür kitabıynan qoşa yaranıb.

Mütəfəkkir alimin doğma Göyçəsindən başlayan bu yolu çox da hamar olmayıb. Həyatı daim mübarizələrdə keçən günlərdə bircə addım da olsa geri çəkilməyib.

Hələ İrəvan Pedaqoji İnstitutunda işlədiyi çağlarda bir tərəfdən müdrik insan, kamil, vətənpərvər müəllim kimi qəlbinin zərrələrini qətrə-qətrə tələbələrinə paylayır, bir yandan da ətrafını - bürüyən erməni millətçilərinin ən adi xəfkirliyini də cavabsız qoymurdu...

Qədim Oğuz ellərimizdəki halal ocaqlarımızın adları dəyişdiriləndə, Göyçə adı yasaq ediləndə, acgöz yurdsuzların Qarabağ tamahları aşıb-daşanda, Heydər Əliyevin şəkli siyasi büro üzvlərinin şərəf lövhəsindəki şəkilləri cərgəsindən çıxarılanda da Hüseyn müəllimin milli təəssübkeşliyi, güclü məntiqi qarşısında qarı düşmənin çoxluğu mənən cılızlaşırdı. Bütün bunlarla birlikdə əzəlindən canıynan-qanıynan bağlı olduğu folklorçuluq fəaliyyətini davam və inkişaf etdirirdi... Çünki vətənin bu qayğıkeş oğlu, əsl alim və ziyalı nə vətənpərvərlik dünyamıza, nə də elm aləminə təsadüfən gəlməmişdi. Bu obyektiv, xoş bir zərurətdən yaranmışdı...

Hüseyn İsmayılovun adı köçkünlük ünvanına yazılandan, Vətən qüdrətdə qalandan sonrasa onun duyğuları həyəcan təbilinə döndü...

Elə, bax beləcə də səs saldı aləmə Hüseyn müəllim.

«Qoymayın, ay ellər, haya-haraya gəlin».

«Tək əldən səs çıxmaz». «El bir olsa dağ oynadar yerindən, güc bir olsa zərbi kərən sındırar». «Axı, Vətən qüdrətdə qalıb...»

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Bunu ötərgi demədi Hüseyn İsmayılov. Gecəli-gündüzlü qələmini işə salıb, Göyçənin söz küçəsini yerindən yır-yığış elədi. Onu sinəsindən kağızlara ələyib mifli, mövsüm və mərasim nəğməli, əfsanəli, rəvayətli, xalq təbabətli, nağıllı, dastanlı, gülməcəli, oxşamalı, tapmacalı, yanıltmaclı incilərdən ibarət 4 hissəlik iri həcmli toplusunu ərsəyə gətirməyə başladı...

Duyan könüllər elə birinci açımdaca müəllifin «Lələ köçüb, yurdu qalıb»... adlı ön sözünə yapışdı.

«...Könül sazım coşur... Məmməd Hüseyn qəlbi, Göyçə gölünün şahə qalxan dalğaları kimi barmaqlarım zil pərdənin üstündə qərar tutur. Məmməd Hüseynin «Yatıb oyanmayan qara bəxtindən», kükrəyib daşan mavi Göyçə gölünün fəryadından gur səslə, xoş avazla xəbər verir. İnsana cəsarət, həyata inam, gözəlliyə məftunluq bəxş edir. Sənin gözəl hüsnün sazımın tellərini ehtizaza gətirir.

Göyçəm mənim!

Onda Kərəmin nalələrini eşidir, Abbasın, Qurbaninin çarpışan qəlbinin səsini duyuram. İstər-istəməz sənin keçmişinə qayıdıram... Mənim Göyçəm!..»

Beləcə istiqanlı, üzüdönməzdir, yurd-yuva təəssüblü bu qeyrətli Vətən oğlu...

Əgər torpağın azğın qasırğalar qoynunda unudulmağını istəmirsənsə, onda əzəlcə onun ulu deyimlərini yuxudan oyadıb röyalardan oyaq duyğulara qaytar!

Əgər düşmən sənə hələlik güc gəlib, səni isti ocağından uzaqlaşdırıbsa, harda olursan ol, tufan içində belə çırpınanda da, əlini telli sazın bəyaz telindən, dilini dədələrimizin yadigar söyləmələrindən ayırma!

Anlayın bizi, ay eşidənlər! Görün bu torpaq nələri bəxş edib cahan xəzinəsinə?!

Heç belə yurdu, belə ocağı da unutmaq olarmı?!

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Varlığın yeddi möcüzəsindən biridir Göyçəmizin sənət şöləsi! Onu sönməyə qoymayın, ey mənim gələcək nəsillərim?!

Axı ocağı insan yaşadar bu gəlimli-gedimli dünyamızda! Bu minvalla arayıb axtara-axtara gözlərə, könüllərə köçürür qədim sənət zərrələrimizi Hüseyn İsmayılov.

İnsan zəkasını, əsl vətəndaş ruhunu xəncər itiliyiynən, sabaha səsləyən çağırış nidasıynan.

Vətən qürbətdə qaldı! Allah rəhmət eləsin ustadlara.

«Sözün yeri gəldi, qoy deyim barı,
Eşidənlər məni görməsin karı.»

Məgər Göyçənin də var-dövlət üstündə yatmağı, yalnız dünya malının xülyasında mürgüləməyi xoşlayanları yoxdurmu?! Belələrindən ötrü nə cənnət var, nə cəhənnəm... Dünyanın hər yeri onlar üçün Vətən deyilmi?! Təki özünün şəxsi güzaranı xoş keçsin. Neynək, tikansız bahar olmadığı kimi, alaqsız da bağça yoxdur.

Amma filologiya elmləri doktoru, professor Hüseyn İsmayılov kimi əvəzedilməzlər Vətən üçün doğulub, Vətəndən ötrü ömür edənlərdir.

Qürbətdə qalıb murdar düşmən tapdığında inləyən Vətən! Bu müqəddəs məfhumun əzəli isə bircə parça dadan, bir ovuc torpaqdan, bir udum havadan, bir içim sudan başlamırmı?! Əgər belədirsə, o diyarda baş qaldıran tikanların kosmopolit ideyaları bugünkü reallıqla, sabahkı arzularla bir araya sığmaz.

Bu günümüzdə ata yurdumuzun qeyrətini çəkməyi bacarmayan bir kəs sabah cəmi Azərbaycan üçün qeyrətli vətəndaş ola bilməz.

Bax, bu nöqteyi-nəzərdən, Hüseyn müəllim doğma Azərbaycanımızın əsl vətəndaşı, dəyərli övladıdır.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

«Vətən qürbətdə qaldı» təbili isə unutqanlar, biganələr, yalnız özlərindən ötrü yaşayanlar üçün deyil, əsl vətəndaşlar və onların gələcək yetirmələri üçündür...

Və nəhayət, bu gün ömrünün ən məhsuldar zamanında dünyanın yeganə Folklor İnstitutuna rəhbərliyin bəhrələri isə göz qabağındadır ki, onlar sonsuz bir söhbətin mövzusudur və neçə-neçə dastana sığmayacaq qədərdir...

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Cəfərova XƏTAYƏ*

## GÖYÇƏDƏN BAŞLAYAN YOL

Hüseyn müəllim haqqında öz ürək sözlərimi yazmağa başlayanda bir qədər çətinlik çəkdim. Heç bilmədim nədən başlayım, nədə qurtarım. Onun haqqında 1-2 səhifə yazmaqla ürəkdə olanı boşaltmaq olmur, gərək bir sanballı kitab yazasan ki, yaradıcılığı ilə bərabər, yüksək mənəviyyatlı qayğıkeş insan, gözü-könlü tox və bu kimi gözəl keyfiyyətləri cəm edə biləsən. Mən ürək sözlərimi elə onun öz sözləri ilə başlamaq istəyirəm: «Tarixdə bizim üçün hər şey folklordan, folklor isə Göyçədən başlayır». Mən isə onun bu fikrini bir az genişləndirib demək istəyirəm ki, Hüseyn müəllim, Siz Göyçədən başlayan yolun cığırlarını, qollarını Azərbaycanın hər yerinə yaydınız. Dünya qədər yaşı olan bu qədim yol nə qədər əzablı olsa da, Siz bu yoldan çəkilmədiniz. Onu daha da yüksək zirvələrə qaldırdınız. Bu yol folklor yoludur. Yorulmaq bilməyən əzminiz sayəsində, folklorumuzun neçə-neçə qaranlıq güşələrinə işıq saldınız, keçmişimizi, kim olduğumuzu, mənəvi dəyərlərimizi xalq kütləsinə çatdırdınız.

Atalar gözəl bir söz deyib: «Alim olmaq asandır, insan olmaq çətin».

Ancaq bəzən elə olur ki, alimlik – insanlıq məfhumu bir insanda cəmləşir. Onda o insanlığın ən uca zirvəsinə yüksəlir, elinin, obasının, xalqının sevimlisi olur.

Hüseyn müəllim öz işinin vurğunudur. O, bacarıqlı natiq, zəngin bədii söz ustasıdır. Dədə Qorquddan başlayıb üzü bəri gələn folklorumuz haqqında saatlarla danışsa yorulmaz, çünki folklora sevgi onun daxilindən gəlir. İnstitutun vaxtlı-vaxtında nəşr etdiyi ədəbiyyatlar onun işgüzarlığından, bacarıqlı rəhbər olmasından xəbər verir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Hüseyn müəllim sədaqətli dost olmaqla bərabər, həm də öz işçilərinə qarşı çox qayğıkeşdir. O, tabeliyində olanların dərdi-səri-nə köməklik edir, əlindən gələni əsirgəmir. Onu xalqa sevdirən də budur.

Hüseyn müəllim, 55 yaşınız münasibəti ilə Sizi təbrik edirəm.

Sizə cansağlığı, uzun ömür, folklor xəzinəsini daha da zən-ginləşdirməyi arzu edirəm.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Ramil ƏLİYEV*

# ZAMANA SIĞMAYAN ÖMÜR

Hər bir dövr öz şəxsiyyətini yetirir. Onları tarix xalqı üçün yetişdirir. Bizim Azərbaycan tarixinin bütün mərhələlərində onlar sıra-sıra öz sözlərini demişlər. Son dövrdə bir çox şəxsiyyətlər xalq üçün öz ömürlərini məşəl etmişlər. Onlardan biri də, xalqın milli-mənəvi sərvətinin keşiyini çəkən, onu millətin özünə qaytaran, bununla da özünü folklor tarixində yaşadacaq Hüseyn İsmayılovdur. Mən bu müqayisəni ona görə seçdim ki, H.Əliyevin mənəvi sımasının işığında H.İsmayılovu daha aydın görmək olur. Ona görə də «H.İsmayılov kimdir?» sualı absurd olaraq öz cavabını alır. H.Əliyev xalqın tarixində kim olaraq qalırsa, H.İsmayılov da folklorun tarixində o cür yaşayacaq.

Göyçədən bir ömür qatarı gecənin sükutunu pozaraq ağır-ağır Bakıya gəlir. Bilmirəm, Bakı onun yolunu gözləyirdimi? Amma o, Bakısız qala bilməzdi. Uzun illər neçə-neçə folklor boxçası yığmışdı. Bakıya gəlirdi ki, Azərbaycan folkloruna yaşamaq haqqı versin. Bu məqsədlə qollarını çırmaladı. Folklora Heydər Əliyev qayğısından ruhlanıb işə başladı. Bu yolda tək olmadı. Ən birinci Yaşar Qarayev dühasının xeyir-duasını aldı.

İndi illər keçib. Müstəqil Folklor İnstitutu fəaliyyət göstərir. İnstitut yaratmaq, özü də sıfırdan başlayaraq, hər oğulun işi deyil. Folkloru keşməkeşlikdən çıxarmaq, onu xalqın mənəvi güzgüsünə çevirmək müstəqillik dövrünün tələbi idi. Çünki folklorumuz da mənəvi əsarətdə idi. Folklor incilərinin yenidən toplanması, folklor külliyyatlarının, antologiyalarının çap olunması Azərbaycan folklorunu dünya folkloru sırasına çıxarmaq üçün çox əhəmiyyətlidir. Folklor İnstitutunu beynəlxalq arenaya qaldırmaq üçün dünya folklor mərkəzləri ilə əlaqələr qurulur, «Ortaq türk

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

keçmişindən ortaq türk gələcəyinə» adlı folklor konfransları keçirilir. İndi türk dövlətləri ortaq türkcənin yaradılmasına səy göstərirlər. Amma Hüseyn müəllim neçə illərdir bu çətin işin öhdəsindən uğurla gəlir. Folklor İnstitutu türk xalqlarının güvənc yerinə çevrilib. Qonaqların ardı-arası kəsilmir.

Hüseyn müəllim cənubdakı qardaşlarımızın da pənahdarıdır. Onun üçün o taylı-bu taylı Azərbaycan folklorda birləşir. Hüseyn müəllim arzulayır ki, Göyçə, Şəki, Şirvan, Qarabağ, Ağbaba, Ağdaş və s. folklor antologiyaları kimi, Ərdəbil, Təbriz, Zəncan, Marağa, Urmiya folkloru da qalaq-qalaq cildlərə çevrilsin.

Hüseyn İsmayılov həm də yeni folklorşünaslığın tarixini yaradır. O, folklor nəzəriyyələrinə yaradıcı yanaşır. Zamanına uyğun gəlməyən tezisləri rədd edir, ortaya özünün yeni konsepsiyalarını qoyur. O, bunu həmkarlarından da tələb edir.

Ömürdən illər keçir, yaşlaşır insan. Hüseyn müəllimin də sadəcə yaşının üstünə yaş gəlir. Bu illər onu qocaltmır, müdrikləşdirir. İnsana öz zamanında qiymət vermək çətin olur. Ömür qatarı öz içimizdən keçəndən sonra şəxsiyyətin qiyməti bilinir. Hüseyn İsmayılovun ömür illərini hələ yüzcildlik folklor külliyyatları bəzəyəcək. Sizi yüz yaş yaşayasınız.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Yaşar QASIMZADƏ,*
*f.e.n., AMEA-nın böyük elmi işçisi*

# AZƏRBAYCAN FOLKLORŞÜNASLIĞININ RENESSANSI

Müstəqilliyə qovuşan Azərbaycan elə ilk günlərdən milli mənəviyyatın qorunması və dirçəldilməsi zərurətini duymağa başladı. Ümummilli liderimiz Heydər Əliyev bu milli-mənəvi ehtiyacı daha da dərindən hiss edir, hamıdan yaxşı anlayırdı. Məhz bu səbəbdən də istiqlaliyyətimizin ilk onilliyində dahi rəhbərin daxili və xarici siyasətində mənəvi aləmi sağlamlaşdırmağa yönəlmiş xətt mənəviyyat sütunlarını möhkəmləndirmək xətti üstünlük təşkil edirdi. Hələ 90-cı illərdə Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Üzeyir Hacıbəyli, Bülbül, Hüseyn Cavid kimi dahi sənətkarlarımızın yubileylərinin yüksək səviyyədə qeyd edilməsi, dahi Nizami irsinə fəal müraciətin gücləndirilməsi dediklərimizə parlaq sübutdur. Ulu Rəhbərimizin misilsiz mənəvi-mədəni siyasətinin zirvəsi isə ulu Dədə Qorqudun adının və yaratdıqlarının planetar miqyaslarda yad edilməsi, anılması idi. Azərbaycan xalqının «Qurani Kərim»dən sonrakı müqəddəs kitabının – «Dədə Qorqud kitabı»nın 1300 illiyinin dünya miqyasında təntənəli etirafı Azərbaycan müstəqilliyinin bayramına çevrildi. Müharibə və mühasirə şəraitində yaşayan Azərbaycanın özünü müdfiəsi və özünü təsdiqi üçün Baba Kitabımız Dədə Qorqud dastanlarının qüdrətindən də uğurlu, təsirli bir milli-mənəvi-mədəni əsas, vasitə tapmaq mümkün idimi?!

Ümumilli liderimiz ən uzaqgörən və dahi bir Azərbaycanlı kimi, «Dədə Qorqud kitabı»nın getdikcə qloballaşan və bütövləşən dünya müstəvisində bayram edilməsi, bütün cahan mədəni ictimaiyyətinin dilindən etiraf etdirilməsi ilə xalqımızın və

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

vətənimizin halal haqqını ona qaytardı. Daha doğrusu, bu haqqın alınmasına nail oldu. Eyni zamanda həqiqətpərəst və ədalətpərəst olmayana dünya ictimaiyyətinə Azərbaycan Dövlətinin və xalqının kimliyini, əzəmətli tarixini və bugünkü dünya düzənindəki indikindən də yüksək olan yerini bir daha göstərdi. Bəli, dahi Heydər Əliyev misilsiz bir dövlət və siyasət xadimi kimi, Azərbaycanın kökləri minilliklərə gedib çıxan qədim və zəngin mədəniyyətini, yüzillikləri, minillikləri ötüb gəlmiş möhtəşəm tarixin bütün Qafqazda on min ildən bəri daşlaşmız heyrətamiz və unudulmaz coğrafiyamızı bütün dünyaya, dostlarımıza və düşmənlrimizə nümayiş etdirdi.

Dahi Heydər Əliyev «Dədə Qorqud» kitabı vastəsilə Şimali və Cənubi Qafqazın bu kitiba səpələnmiş toponimiyasını, ümumən Bəşər mədəniyyətinin dünyanın bu məkanındakı miqyas və mahiyyətini, Azərbaycan dilindən və Azərbaycan mənəviyyatından törəmə olduğunu yeni əsrin və yeni minilliyin başlanğıcında bir daha misilsiz bir dərəcədə vurğuladı.

«Dədə Qorqud kitabı»nın cahanşümül bayramı kimi AMEA-nın tərkibində yeni bir elm ocağının – Folklor İnstitutunun yaradılması da dahi öndərimizin müəzzəm milli-mənəvi-mədəni strategiyasının parlaq səhifəsini təşkil edir. Dədə Qorqud adına Folklor Elmi-Mədəni Mərkəzinin bazasında AMEA-nın Folklor İnstitunun açılması yeni əsrin əvvəlində – üçüncü minilliyin başlanğıcında ümummilli liderimizin qədirbilən xalqına bəxş etdiyi əvəzsiz töhfə, qiymətli əmanət idi. Dahi öndərimizin bu əvəzsiz zəmanətinə, tayı-bərabəri olmayan yadigarına bütün elmi-mədəni ictimaiyyətimiz, başda direktorumuz Hüseyn İsmayılov olmaqla İnstitutun kollektivi, tam sadiqdirlər və bu minnətdarlığı hər gün öz əməli işləri, yeni-yeni elmi tədqiqatları, folklorşünaslığımızı zənginləşdirən kitabları ilə təsdiqləməkdədirlər.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Beləliklə, Azərbaycan folklorunun və folklorşünaslığının fəaliyyətində, yaşam tərzində keyfiyyətcə tam yeni tarixi bir mərhələ başlandı. İstedadlı və zəhmətkeş alim Seyfəddin Rzasoyun hərarətli bir ilhamla yazılmış «Folklorlaşan alim ömrü» (Bakı 2007) kitabında geniş şəkildə izah olunduğu kimi, bu yeni mərhələ respublikamızın folklor həyatının bütün sahələrini özündə ehtiva edirdi. Ümumən son illər ərzində Azərbaycan folklorunun toplanması, nəşri və tədqiqi sahəsində görülən bütün əsaslı, fundamental işlər bilavasitə Hüseyn İsmayılovun yaxından iştirakı və rəhbərliyi altında həyata keçirilmişdir. Dədə Qorqud adına Folklor Elmi Mədəni Məkəzinin AMEA-nın Folklor İnstitutuna çevrilməsi prosesi, bir Elmi tədqiqat İnstitutu kimi yenidən qurulması işilərinin hamısı gözlərimiz önündə baş vermiş, biz bu coşqun quruculuq, yaradıcılıq işlərinin Hüseyn İsmayılov tərəfindən necə bir sonsuz həvəs, ehtirasla yerinə yetirildiyinin şahidi olmuşuq. Folklor İnstitunun yaradılması, araya-ərsəyə gəlməsi işləri ilə folkorşunaslıq elmimizin də təzələşməsi prosesləri eyni vaxtda cərəyan edirdi. Təsadüfü deyil ki, cəmi bir neçə il ərzində filoloji elmələr içərisində ən perspektivsizi və geridə qalmışı sayılan folklorünaslıq da bir elm sahəsi kimi yeniləşmiş və dirçəlməyə başlamış, Azərbaycan filologiyasının qabaqcıl və qalib sahələrindən birinə çevrilmişdir.

Filologiya elmləri doktoru Hüseyn İsmayılovun təşkilatçılıq və rəhbərlik fəaliyyəti çoxşaxəli və genişdir. Folklorumuzun regional mühitlər üzrə çoxcildli antologiyasının çap olunması, onlarla müxtəlif folklor toplularının, yüzlərlə elmi tədqiqat əsərlərinin nəşri fikrimizə parlaq sübutdur. Elə buradaca cəmi bir neçə faktı xatırlatmaq kifayətdir. Qırx il ərzində yalnız yeddi cildi çıxan «Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər»in qısa bir vaxt ərzində H.İsmayılovun rəhbərliyiyi altında otuza yaxın cildi nəşr olunmuşdur. Azərbaycan folklor külliyatının

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

monumental çoxcildliyinin nəşrinin uğurlu və məhsuldar başlanğıcı da dediklərimizə əyani misal ola bilər. Bu möhtəşəm nəşrdə folklorumuzun nümunələrinin janrlar üzrə 100 cildinin çap olunması nəzərdə tutulmuşdur. Bir məsələni də xüsusi vurğulamağa dəyər ki, Azərbaycanda ilk dəfə həyata keçirilən şifahi və bədii yaradıcılığın belə yüksək səviyyədə təqdimatının yalnız bizim mənəvi ədəbi mühitimiz üçün deyil, ümumən, türk xalqlarının və çağdaş dünyanın mənəvi-mədəni həyatında möhtəşəm bir hadisə olacağı gözlənilir. Cəsarətlə söyləyə bilərik ki, AMEA Folklor İnstitutunun geniş əks-səda doğuran aləmsümül uğurları, Milli Müstəqilliyimizin birbaşa nəticəsi olan unudulmaz nəaliyyətləri az deyil.

H.İsmayılovun yaradıcılıq fəaliyyətini yalnız qeyd etdiklərimiz səciyyləndirmir. O, elm kollektivinə rəhbərlik edən bir mütəxəssis, eyni zamanda filoloq alim və folklor toplayıcısı kimi də özünəməxsusdur. Bəli, AMEA Folklor İnstitutunun direktoru H.İsmayılov təkcə inzibati-idarəçilik nöqteyi-nəzərindən deyil, həm də peşəkar folklorşünas kimi böyük işlər görmüş, təkbaşına az qala bir böyük institutun görə biləcəyi iş normasını yerinə yetirmişdir. Əgər təbir caizdirsə, Hüseyn İsmayılov Azərbaycan folklorşünaslıq elminə adəti üzrə deyil, bizim görüb müşahidə etdiyimiz tərzdə yox, necə deyərlər, köklü-köməcli, kompleks şəkildə daxil olmuşdur. O, Azərbaycan folkloruna illərlə topladığı, özü nəşrə hazırladığı və çap etdirdiyi say-seçmə folklor topluları, nəhəng şifahi ədəbiyyat antologiyaları və fundamental elmi-tədqiqat əsərləri ilə daxil olmuşdur. Söylədiklərimizin isbatı və təsdiqi üçün məhsuldar və zəhmətkeş alimin araya-ərsəyə gətirdiyi kitabların bir neçəsinin adını çəkmək, bizcə, kifayyətdir. «Vətən qürbətdə qaldı» (Göyçə folkloru örnəkləri) B. «Yazıçı» 1993. «Müdriklik çələngi» B., 2000, «Göyçə folkloru» B., 2000, «Misgin Abdal» B.,2001 və başqaları. Bu kitabları diqqətlə oxuyarkən istedadı alim H.İsma-

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

yılov gözlərimiz önündə mahir və həssas bir folklor toplayıcısı kimi, ağız ədəbiyyatının bilicisi, şifahi mədəniyyətimizin qayğıkeş qoruyucusu kimi canlanır. Hamıya məlumdur ki, əsl folklorşünasın misilsiz fəıliyyəti ondan ibarətdir ki, o, (yəni əlahəzrət folklorçu!) xalq yaradıcılığı məhsullarını xalqın özündən alıb, elmi laboratoriydan keçirəndən sonra, yenə müəllifin özünə, xalqa qaytarır. Təbiiliyini itirməyən bu yaradıcılıq son dərəcə cazibədar və heyrətamiz bir prosesdir. MiNillikləri arxada qoymuş xalq yaradıcılığı dürdanələri, dağlardan-qayalardan süzülüb gələn bulaq suları tək şəffaf və safdır. Böyük folklorşünas istedadı bax bu təkrarsız gözəlliyə məftunluqdan doğulur, dağ çeşmələrinin təmizliyindən və bakirəliyindən qaynaqlanır, güc-qüvvət alır. Amma folklorşünas taleyini yaşamaq son dərəcə müşküldür. Xüsusən folklor toplayıcısı olmaq məşəqqətli, ağır bir vəzifəni yerinə yetirmək deməkdir. Bu iş, bu peşə dünən də, bu gün də, həmişə ağır zəhmət, gərgin əmək tələb eən bir sahə olmuşdur. Məhz bu həqiqətləri bildiklərimizə və dərindən dərk etdiyimizə görə də səkkiz yüz səhifəyə yaxın «Göyçə folkloru» (Bakı, 2000) və yeddi yüz səhifəlik «Göyçə dastanları və aşıq rəvayətləri» (Bakı 2001) kitablarını nəzərdən keçirərkən bu monumental topluların yaranması, araya-ərsəyə gəlməsi üçün hansı miqyaslarda əsəb və əmək, qeyri-adi zəhmət tələb edildiyini təsəvvür edib heyrətlənirik. Azərbaycan folklorşünaslığını yeni ideya və yanaşmalarla zənginləşdirən, təzə elmi-nəzəri impulslarla yaradıcılıq işlərinə həvəsləndirən bu nəhəng toplama məhsulları, eyni zamanda bir alim, mütəxəssis kimi Hüseyn İsmayılovu çağdaş folklor elmimizin tarixindəki yeni dövrün əsasını qoyanlardan biri kimi xarakterizə etməyə imkan verir.

XX yüz ilin ikinici yarısında uğurlu fəaliyyət göstərmiş görkəmli Azərbaycan filoloqları və folklorşünasları M. Seyidov, P. Əfəndiyev, M. Həkimov, S. Paşayev, Y. Qarayev, A. Nəbiyev, İ.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Abbaslı və başqaları haqqında rəğbətlə qarşılanmış kitabların, elmi tədqiqat əsərlərinin, məqalələrin müəllifi olan qayğıkeş və təşəbbüskar alimimiz Seyfəddin Rzaysoy «Folklorlaşan alim ömrü» kitabında elmi təfəkürümüzdə gedən prosesləri daha da dərindən arşdırmağa müvəffəq olmuşdur. Filologiya elmləri doktoru Hüseyn İsmayılov yaradıcılığını folklorşünaslığımızın son 10-15 illik nailiyyətləri kontekstində araşdırıb ümumiləşdirən Seyfəddin Rzasoyun aşağıdakı fikirləri diqqəti çəkir: «Aşıq sənətinin tarixi-prosessual strukturunun yeni konsepsiyası» müasir cağımızın görkəmli alimi, Azərbaycan folkloru və folklorşünaslığı naminə hər cür fədakarlıq göstərən, ona sözün gerçək anlamında patriarxlıq edən Hüseyn Ələsgər oğlu İsmayılova məxsusdur.

Bu ad elm aləmində, xüsusilə folklorşünaslıqda sürət və cəsarətlə elmi nüfuzun ünvanına çevrilməkdə, milli folklorşünas düşüncəmizin bir sıra əhəmiyyətli sxem və modellərini yaxın dövrümüz (bəlkə də uzaq dövrümüz) üçün standartlaşdırıcısının nominativ kordinatına isnad verməkdədir. Milliliklə bağlı olan hər cür elmi fəaliyyətə təkan verməklə özəlliklə milli folklorşünaslığımızın elmi və inzibati inkişafında rolu müstəsnadır. Elmi fəaliyyətin Yaşar Qarayev ənənələri ruhunda tərbiyə tapmış Hüseyn İsmayılovun XX yüz il Azərbaycan filoloji və estetik fikrinin patriarıxının (Y. Qarayevin) düşüncəsində doğan və arzunun milli səviyyəsini ifadə edən Folkor İnstitutu ideyasını gerçəkləşdirməsi, onu milli varlığımızın faktına çevirməsi önəmi hələ çox sonralar anıldıqca anlanacaq və dəyərləndiriləcək hadisə olmaqla Hüseyn İsmayılovun gerçəkləşmə, ifadə kodlarına sığmayan milli passionarlığından, etno-psixoloji enerji kamilliyindən, öz elmi-mədəni intelektuallığında milli düşüncəni işarələndirməsindən özünün bütövlükdə milli-mədəniyyətin ifadə kodü olmasından soraq verir».

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

XXI yüz il Azərbaycan üçün xeyirli və uğurlu başlanğıcdır. Azərbaycan iqtisadiyyatının muvəffəqiyyətləri dünya miqyasında etiraf olunmaqdadır. Dahi Heydər Əliyev siyasətinin coşqun və ilhamlı davamçısı gənc və müdrik prezidentimiz İlham Əliyevin rəhbərliyi altında Azərbaycan xalqı öz milli həyatının təkrarsız yüksəliş dövrünü – renessans epoxasını yaşamaqdadır. XXI yüz ildə başlanmış və öz vüsətinə görə misli-bərabəri olmayan Azərbaycan renessansının müəllifi və misilsiz memarı cənab İlham Əliyevdir. Azərbaycan folklorunun və folklorşünaslığının cahanşümül müvəffəqiyyətləri də ümummilli-mədəni proses olan mənəvi intibahımızın-Azərbaycan renessansının üzvi və təbii nəticəsi, mühüm tərkib hissəsi kimi qavranılmalı və dəyərləndirilməlidir. AMEA Folklor İnstitutunun yaradıcı kollektivinin filologiya elmləri doktoru Hüseyn İsmayılovun rəhbərliyi altında əsrin əvvələrindən etibarən qazanmağa başladığı ardıcıl uğurlar, araya-ərsəyə gətirdiyi yüzlərlə kitablar, beynəlxalq əhəmiyyət daşıyan elmi əsərlər, həyata keçirdiyi ümumdunya rezonansına malik konfranslar bu cür qiymətləndirmyə, məsələyə qeyd etdiyimiz qlobal miqyaslardan yanaşmağa tam ciddi əsas verir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Sənubər KƏRİMOVA,*
*AMEA Folklor İnstitutu*
*Qorqudşünaslıq şöbəsinin elmi işçisi,*
*Azərbaycan Respublikasının*
*Əməkdar mədəniyyət işçisi*

**TANRI HAQQI**

Hüseyn İsmayılovla görüşən hər kəs onun söhbətlərinin sehrinə düşür. Nənnisi Göyçə gölünün həzin ləpələri ilə həmahəng yırğalanmış, gəncliyi «qüdrətdən səngərli, qalalı dağlar»ın, zənbur çiçəkli yamacların qoynunda, sazlı-sözlü el aşıqlarının məclislərində keçmiş bu oğuz torununun hər sözü, hər kəlməsi insanı vəcdə gətirir, soy-kökümüzün genindən, qanından axıb gələn məhrəm duyğuları coşdurur.

Qəhrəmanlıq və məhəbbət dastanlarından, el deyimlərindən, Ələsgər ilhamından qaynaqlanmış Hüseyn müəllim təpədən dırnağa folklordur. Millətin bu yaddaş kodu beşikdən başlayaraq qətrə-qətrə onun varlığına hopub. Hələ Sovet imperiyasının qadağalar dövründə sinəsində tüğyan edən duyğuları vərəqlərə, kitablara köçürüb.

Azərbaycan müstəqillik qazandıqdan sonra millətimizin tarixinə, soy-kökünə, mənəvi dəyərlərinə sonsuz məhəbbət və qayğı göstərən əbədi liderimiz Heydər Əliyev milli yaddaşın oyanışı və təşəkkülü, milli mənəvi dəyərlərin qorunub gələcək nəsillərə çatdırılması üçün müdrikanə tədbirlər gördü. Bunlardan biri də AMEA Folklor İnstitutunun yaradılması idi. Həmin instituta rəhbər seçimində Köprülü tərəzisinin ağır gözü Hüseyn müəllimə nəsib oldu. Mən buna *Tanrı haqqı* deyərdim. Çünki Hüseyn müəllimin sonrakı fəaliyyəti də bunu sübut edir. Sən demə, qəlbi xalq yaradıcılığına, milli-mənəvi dəyərlərimizə coşğun

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

məhəbbətlə dolu olan bu folklorşünas alimin həm də gözəl təşkilatçılıq bacarığı varmış. Bunun üçün institutun yarandığı gündən ötən müddət ərzində görülən işlərə nəzər salmaq kifayətdir. Burada xalqımızın bədii təfəkkürünü, tarixi keçmişini, soy-kökünü, adət və ənənələrini özünə qaytarmaq, onları inkişaf etdirmək, gələcək nəsillərə çatdırmaq və ümumbəşəri qlobal-mədəni inteqrasiya sahəsində çox mühüm işlər görülmüşdür». Azərbaycan folkloru antologiyası» çoxcildliyi, «Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər», «Azərbaycan folklorunun ilkin nəşrləri» seriyası, ingilis və rus dillərində rezüme ilə dərc edilən «Dədə Qorqud» jurnalı, türkdilli xalqlarla, dünya xalqları ilə qlobal-mədəni əlaqələr, beynəlxalq konfranslar, elmi-ədəbi məclislər və s. bu qəbildəndir.

İndi planetdə qloballaşma prosesləri sürətləndikcə etnik-milli dəyərlərə qayıdış zərurətə çevrilir. Hüseyn müəllimin təşəbbüsü və rəhbərliyi ilə 2003-2007-ci illərdə keçirilən «Ortaq Türk Keçmişindən Ortaq Türk Gələcəyinə» adlı beynəlxalq folklor konfransının əhəmiyyətini nəzərə alaraq Türkiyə Respublikası Hüseyn Qazi Kültür və Sənət Vəqfi Hüseyn İsmayılovu «Türk dünyasına xidmət» ödülü ilə mükafatlandırmışdır.

Hüseyn müəllim, Siz ömrünün 55-ci səhifəsi tamamlanan canlı bir folklor ensiklopediyasısınız. Ululardan qaynaqlanmış bu zəngin xəzinənin gələcək nəsillərə əmanət edilməsi üçün Sizə uzun ömür diləyirəm. Dağ çaylarıtək coşğun təbiniz heç vaxt sönməsin.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Tacir SƏMİMİ,*
*Aşıq yaradıcılığı şöbəsinin elmi işçisi*

## CƏFAKEŞ ALİM

Səhv etmirəmsə, Hüseyn müəllimlə ilk dəfə Azərbaycan Dövlət Teleradio şirkətinin xalq yaradıcılığı redaksiyasının (radio) verilişlərinin birində rastlaşmışam. Bu veriliş hörmətli şairimiz Eldar İsmayılın «Ulu Göyçə» poemasına həsr edilmişdi. Həmin verilişdə Hüseyn müəllim də, mən də çıxış etdik. Hüseyn müəllimlə bu ilk tanışlıq məndə xoş ovqat yaratdı. Folklora, el ədəbiyyatına olan həvəsim keçici, ötəri olmasa da, Hüseyn müəllimlə görüşəndən sonra daha da qüvvətləndi. Bu yolla inamla addımlamağa başladım. Bu çətin və şərəfli yolda addımlarımın möhkəmlənməsində Hüseyn müəllim öz köməyini əsirgəmədi. O, ürəyimdə ümid çırağı yandırdı.

Bir gün baxdım ki, gəlib Ədəbiyyat İnstitutunun nəzdində olan Folklor Sarayının qarşısına çıxmışam. Hüseyn müəllimlə görüşlərimin sayı artdı. Bu, aramızdakı dostluq və səmimiyyətin qüvvətlənməsinə səbəb oldu. Mən folklora, el ədəbiyyatına ürəkdən bağlandığımdan qəti qərara gəldim. Ədəbiyyat İnstitutunun Dədə Qorqud adına Folklor Elmi-Mədəni Mərkəzində kiçik elmi işçi kimi fəaliyyətə başladım. Mən sıravi işçi olsam da, bu günə qədər Hüseyn müəllimlə münasibətlərimdə heç bir dəyişiklik görməmişəm. O həmişə mənimlə səmimidir, qayğısını əsirgəmir. Hüseyn müəllim hamıya qarşı diqqətcil və qayğıkeşdir.

Mən heç vaxt yadımdan çıxarmıram ki, mənim boya-başa çatdığım Ağbaba bölgəsinin el ədəbiyyatını özündə yaşadan kitablar («Ağbaba Folkloru», «Aşıq Nəsib») məhz bu işıqlı adamın – Hüseyn müəllimin sayəsində həyata vəsiqə aldı, işıq üzü gördü.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Hüseyn müəllim istər nizam-intizamda, istər işgüzarlqda institutda hamıya örnəkdir. Mən həmişə heyrətlənirəm ki, Hüseyn müəllim vaxtdan necə səmərəli istifadə edir.

Eşidəndə ki, Hüseyn müəllimin 55 yaşı tamam olur, düzü, inanmadım. Çünki Hüseyn müəllim iyirmi beş-otuz yaşlı gənc alimlər kimi enerji ilə işləyir. Ona bu yaşı vermək çətindir. Üz-gözündən nur tökülən bu böyük alimin işgüzarlıq, təvazökarlıq, səmimiyyət və sadəlik həyat idealıdır. Hüseyn müəllim folklorşünas alim kimi təkcə Azərbaycanda deyil, bütün türk dünyasında tanınmışdır.

Mən də Hüseyn müəllimin 55 yaşı münasibətilə təbrik edir, ona can sağlığı, uzun ömür arzu edirəm. Gün o gün olsun 100 yaşını qeyd edək, Hüseyn müəllim.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Tahir ORUCOV*

## FOLKLORA BAĞLI ÖMÜR

Həyatda çox az adamlar olur ki, həyatını əqidəsi, amalı uğrunda mübarizəyə həsr etsin, özünü elm, folklor yolunda əsl fədaiyə çevirsin, ictimai mənafeyi şəxsi mənafedən üstün tutsun. Yalnız dəmir iradəli, dönməz, mətin, doğma Vətənə qırılmaz tellərlə bağlanan, damarlarında Oğuz Kağandan, Dədə Qorquddan gələn xalis türk qanı axan insanlar bu yolu seçirlər. Təmizlik, saflıq, el-oba, doğma yurd təəssübkeşliyi, Vətənin, xalqın mənafeyini hər şeydən uca tutmaq, hər bir Vətən övladına ən əziz bir varlıq kimi baxmaq belə insanların əsl həyat amalına, ömür kredosuna çevrilir. Bütün həyatını belə şərəfli amalla, əqidə ilə yaşayan insanlardan biri də Hüseyn İsmayılovdur.

Hüseyn Ələsgər oğlu İsmayılov 1952-ci il dekabrın 10-da Qərbi Azərbaycanın ən qədim saz-söz ocaqlarından biri olan nağıllı, dastanlı Göyçə mahalının Ağbulaq kəndində dünyaya göz açıb. Göyçənin Ulu Yaradanın sanki öz əli ilə bəzək verilmiş füsunkar təbiəti, zirvəsi daim qarlı dağları, yamyaşıl meşələri, bumbuz bulaqları və ecazkar gözəlliyə malik Göyçə gölü balaca Hüseynə hələ uşaqlıqdan təsir edib, onda saza-sözə dərin, sönməz bir maraq yaradıb. Çünki Göyçədə doğulub sazı-sözü, Miskin Abdalı, Ağ Aşığı, Aşıq Alını, Aşıq Ələsgəri sevməmək, ən azı mümkün deyil. Çünki Ulu Göyçədə saz da, söz də, Vətən də Tanrı ruhlu, Tanrı nəfəslidir. Elə buna görə də onda vətən sevgisi, yurd, torpaq məhəbbəti bu qədər tükənməz oldu.

H.İsmayılov 1970-ci ildə belə bir yurdda – Göyçənin Ağbulaq kəndində orta məktəbi bitirib Bakıya gəlmiş, indiki N.Tusi adına ADPU-nun filologiya fakültəsinə daxil olmuşdur. Bu tədris ocağını müvəffəqiyyətlə bitirən H. İsmayılov yenidən doğma yur-

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

da qayıtmış, bir müddət Vedinin Şirazlı kənd orta məktəbində müəllimlik etmişdir. 1976-cı ildə isə o, hərbi xidməti başa vurduqdan sonra İrəvan Dövlət Pedaqoji Universitetində müəllim işləməyə başlayır. Onun fədakar bir millət oğlu kimi formalaşmasında İrəvan mühitinin böyük rolu olmuşdur. H.İsmayılovun həyatının bu dövrü elmi-ictimai, pedaqoji və ədəbi baxımdan zəngindir. O, İrəvan universitetində rus ədəbiyyatından mühazirələr oxumuş, Azərbaycan ədəbiyyatı tarixi və ədəbiyyat nəzəriyyəsindən dərs demiş, yeri gələndə türkün böyüklüyünü və əzəmətini ermənilərin üzünə cəsarətlə söyləmişdir.

1986-cı ildə H. İsmayılov AMEA Nizami adına Ədəbiyyat İnstitutunda "Məmməd Arif rus ədəbiyyatının tədqiqatçısı kimi" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. Onun o dövrdəki elmi-pedaqoji fəaliyyəti sırasında hazırladığı iki metodik məcmuə də xüsusi əhəmiyyətə malik olmuşdur.

Sonralar H.İsmayılov o vaxtlar Ermənistanda ən nüfuzlu qəzetlərdən birində – Ermənistan KP MK-nın orqanı olan "Sovet Ermənistanı" qəzetində çalışmağa başlayır. Bu dövr də onun həyatında və yaradıcılığında mühüm rol oynayır. O, eyni zamanda Ermənistan Yazıçılar İttifaqının Azərbaycan ədəbiyyatı şöbəsinin və "Ədəbi Ermənistan" məcmuəsinin məsul katibliyini edir, tez-tez "Sovet Ermənistanı" qəzetində Azərbaycan ədəbiyyatı və mədəniyyəti ilə, folklorla bağlı elmi-publisistik məqalələr çap etdirir. H.İsmayılov həm də 1976-cı ildən başlayaraq Qərbi Azərbaycan folklorunun, o cümlədən Göyçə folklorunun toplanması ilə məşğul olur. O, İrəvan Dövlət Pedaqoji İnstitutunun tələbələrilə hər yay folklor ekspedisiyasında olur, zəngin folklor mətnləri toplayır.

1988-1989-cu illərdə Qərbi azərbaycanlılar mənfur ermənilər tərəfindən öz doğma yurd-yuvalarından çıxarılmağa başlandılar. H.İsmayılov da vətəndən sonuncu gələnlərdən olmuş, axıra

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

qədər ermənilərə qarşı döyüşlərdə fəal iştirak etmişdir. O, Bakıya gələndən sonra həm elmi-pedaqoji, həm ictimai-siyasi fəaliyyətlə məşğul olmağa başlayır. Bu dövr milli dəyərlərin dirçəldiyi, dövlətçilik ənənələrinin bərpa edildiyi, milli özünüdərketmənin daha da artdığı çağlar idi. Bu zaman H.İsmayılov Azərbaycan Dövlət Neft Akademiyasında ədəbiyyat fənnindən dərs deməyə başlayır və o zamanlar qeyri-profil sayılan ədəbiyyat fənnini tələbələrinə dərindən sevdirə bilir.

Az sonra o, əvvəlcə "Göyçə", daha sonra isə "Ulu Göyçə" qəzetlərində redaktorluq edir. H.İsmayılov 1989-cu ilin aprel ayından 1997-ci ilin fevral ayına qədər M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun Azərbaycan dili kafedrasının dosenti vəzifəsində çalışır.

1994-cü ildə Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin qərarı ilə Nizami adına Ədəbiyyat İnstitutunun Folklor şöbəsi genişləndirilərək onun bazası əsasında Dədə Qorqud adına Folklor Elmi-Mədəni Mərkəzi ("Folklor Sarayı") yaradıldı. O vaxtlar AMEA Nizami adına Ədəbiyyat İnstitutunun direktoru olan Yaşar Qarayev yeni yaradılan bu Folklor Elmi-Mədəni Mərkəzinə rəhbərlik etməyi H.İsmayılova etibar etdi. O, buranı təhvil alanda bina uçuq-sökük və yarıtmaz bir vəziyyətdə idi. H.İsmayılov tez bir zamanda binanı təmir etdirdi, oranı normal bir hala gətirdi və Folklor EMM-ə çağdaş Azərbaycan folklorunun görkəmli nümayəndələrini, folkloru həyatının bir hissəsi hesab edən alimləri cəlb etməyə başladı. Folklor EMM tez bir zamanda böyüdü, həqiqi bir folklor, elm mərkəzinə çevrildi. Ümummilli lider, mərhum prezident H.Əliyev və AMEA-nın prezidenti M.Kərimovun Folklor EMM-ə daim qayğısını və himayəsini hiss edən H.İsmayılov qısa bir zamanda Folklor EMM-də 4 böyük şöbə və bir dərgi redaksiyası yaratmağa nail oldu: Qorqudşünaslıq, Azərbaycan folk-

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

loru, Aşıq yaradıcılığı, Türk xalqlarının müqayisəli folklorşünaslığı şöbələri və “Dədə Qorqud” dərgisi redaksiyası.

1994-2008-ci illərdə Folklor EMM-də (indiki Folklor İnstitutunda – T.O.) Azərbaycan folklorunun regional mühitlər üzrə çoxcildli antologiyasının (AFA-nın) 17 cildi (Naxçıvan, İraq-Kərkük, Göyçə, Şəki, Qarabağ, Şəki-2, Qaraqoyunlu, Ağbaba, Gəncəbasar, İrəvan Çuxuru, Şirvan, Zəngəzur, Şəki-Zaqatala, Dərbənd, Dərələyəz, Ağdaş və Muğan folkloru cildləri çap edildi. Daha 7 cild isə (Şəki-3, Borçalı, Qazax Loru Pəmbək və Cənubi Azərbaycan-3 cildlə) nəşrə hazır vəziyyətdədir. Bundan başqa, bu illərdə 300-ə yaxın müxtəlif folklor toplularının və elmi tədqiqatların da kitab halında nəşri həyata keçirildi. Əsası 1961-ci ildə qoyulmuş və 1961-1994-cü illərdə, yəni 33 il ərzində cəmi 7 cildi çapdan çıxan “Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər” məcmuəsinin qısa müddət ərzində, 1994-2008-ci illərdə daha 20 cildi (VIII-XXVII) yüksək poliqrafik səviyyədə çap olundu və beləliklə, bu məcmuənin də dövriliyi təmin olundu. Folklor İnstitutunda uluslararası “Dədə Qorqud” toplusu da məşhur türkoloq alim, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor T. Hacıyevin baş redaktorluğu ilə müntəzəm surətdə nəşr edilir. Bütün türk dünyasına yayımlanan, səhifələrində qorqudşünaslığa, folklorşünaslığa, türk xalqlarının ortaq mədəni nümunələrinə və digər mühüm elmi məsələlərə geniş yer ayıran bu toplunun da çapı müntəzəm şəkildə həyata keçirilir. 2001-ci ildən hər il 4 sayı nəşr olunan bu toplunun 28 sayı işıq üzü görmüşdür.

Bütün bunlar isə AMEA rəhbərliyinin, şəxsən AMEA-nın prezidenti akademik M.Kərimovun nəzərindən heç vaxt yayınmayıb. Hər il keçirilən AMEA Rəyasət Heyətinin hesabatında Folklor Mərkəzinin gördüyü işlər yüksək qiymətləndirilib. Bunları nəzərə alan AMEA rəhbərliyi 2003-cü il aprelin 2-də Dədə Qorqud adına Folklor Elmi-Mədəni Mərkəzinin daha böyük struktur vahi-

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

dinə – Folklor İnstitutuna çevrilməsi haqqında sərəncam imzaladı. Bundan sonra Folklor İnstitutunda əvvəlki 4 şöbə – Qorqudşünaslıq, Azərbaycan folklorşünaslığı, Aşıq yaradıcılığı və Türk xalqlarının müqayisəli folklorşünaslığı şöbələri saxlanılmaqla, əlavə 4 yeni şöbə də yaradıldı: Folklor nəzəriyyəsi, Mifologiya, Redaksiya-Nəşriyyat və Folklor laboratoriyası. Bütün bu işlərin görülməsində, Folklor İnstitutunun belə uğurlar qazanmasında H.İsmayılovun son dərəcə böyük və danılmaz xidmətləri vardır. O, Folklor İnstitutunda görülən bu işlərdə təkcə inzibati elmi rəhbər kimi yox, eləcə də bir folklorşünas alim kimi yaxından iştirak edib. Belə ki, o, Göyçə, Qaraqoyunlu, Ağbaba, İrəvan Çuxuru, Dərələyəz folklorunun toplanması və tədqiqi sahəsində həcm və sanbal baxımından müqayisə olunmayacaq işlər görmüşdür. Bu sıradan alimin "Vətən qürbətdə qaldı", (Göyçə folkloru örnəkləri. Bakı, "Yazıçı", 1993), "Müdriklik çələngi" (Bakı, Səda, 2000), "Göyçə folkloru" (AFA, III c. Bakı, Səda, 2000), "Miskin Abdal" (Bakı, Səda, 2001), "Göyçə dastanları və aşıq rəvayətləri" (Bakı, Səda, 2001), "Qaraqoyunlu folkloru" (AFA, VII c. Bakı, Səda, 2002), "Ağbaba folkloru (AFA, VIII c. Bakı, Səda, 2002). "Göyçə aşıq mühiti: təşəkkülü və inkişaf yolları (Bakı, Səda, 2004), "Aşıq yaradıcılığı mənşəyi və inkişaf mərhələləri" (Bakı, Səda, 2004), "Azərbaycan xalq ədəbiyyatından seçmələr" (Bakı, "Şərq-Qərb", 2005,) "Azərbaycan folklorunun regional xüsusiyyətləri", (Bakı, Səda, 2006), "Dərələyəz folkloru" (Bakı, "Nurlan", 2007) və s. kitabları onun Azərbaycan folklorşünaslığındakı fəaliyyətinin misilsiz bir göstəricisinə çevrilmişdir. Bunun üçün təkcə bu faktı demək kifayətdir ki, yalnız praktik toplama materialları olan "Göyçə folkloru" – 766 səhifə, «Göyçə dastanları və aşıq rəvayətləri» – 700 səhifə, "Gəncəbasar folkloru" – 522 səhifə, "Ağbaba folkloru" – 476 səhifə, "Qaraqoyunlu folkloru" isə 464 səhifədir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

2004-cü il H. İsmayılovun həyatında əlamətdar bir il oldu. Belə ki, H. İsmayılovun rəhbərliyi və təşkilatçılığı ilə Folklor İnstitutu üçün əlavə, müasir tələblərə cavab verən üçmərtəbəli, yeni bir bina tikilib istifadəyə verildi və bir il ərzində rekord sayda – 31 adda kitab nəşr olundu. İnstitut üçün əlavə avadanlıq, o cümlədən 5 yeni kompyüter, skanyer və printerlər də alındı. H.İsmayılovun özü isə 2004-cü ildə Bakı Dövlət Universitetində AAK tərəfindən yaradılmış birdəfəlik Müdafiə Şurasında doktorluq dissertasiyası müdafiə etdi və Türkiyənin nüfuzlu yaradıcılıq qurumlarından olan Hüseyn Qazi Kültür və Sənət Vəkfi tərəfindən "Türk folkloruna xidmət ödülü" ilə təltif olundu.

Folklor İnstitutunun kollektivi arasında H.İsmayılovun yüksək məmur imici və böyük hörməti vardır. O, bu xüsusiyyətlərə özünün əsl insani keyfiyyətləri, işgüzarlığı, yorulmazlığı, bacarığı və hərtərəfli elmi potensialı ilə nail olmuşdur. Ona həm də dərin müşahidə qabiliyyəti, hər kəslə elə onun öz dilində danışmaq, müəyyən məqamlarda lazımi manevrlər etmək və yüksək səviyyədə idarəetmə qabiliyyəti də xasdır.

H.İsmayılov eyni zamanda fundamental və orijinal düşüncəyə malik bir alimdir. O, uzun illərdir ki, Azərbaycan aşıq sənətinin tarixi-prossesual strukturu üzərində araşdırmalar aparır. Onun bu sahədə Göyçə aşıq mətnlərinə əsaslanan "Göyçə aşıq mühiti: təşəkkülü və inkişaf yolları" adlanan doktorluq dissertasiyası ədəbi hadisə səviyyəsində müdafiə olunmuşdur. H. İsmayılov bu dissertasiyada Azərbaycan aşıq sənəti tarixinin konseptual modelini ortaya qoymuş, bununla da həm elmi saxta və əsassız ehkamlardan xilas etmiş, həm də Azərbaycan elmini dünya türkoloji arenasına çıxaran yeni bir konsepsiya irəli sürmüşdür.

Öz irihəcmli və orijinal məqalələri, elmi çıxarışları ilə elmi mətbuatda, radio və televiziya kanallarında ardıcıl və məhsuldar

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

çıxış edən H.İsmayılov Azərbaycan folklorşünaslıq elminə, eləcə də ictimai-ədəbi fikrə yeni-yeni töhfələr vermişdir.

H. İsmayılov fundamental folklor tarixi yaratmağa nail olmuşdur. Belə ki, 2006-cı ildən etibarən, H. İsmayılovun bilavasitə rəhbərliyi ilə Folklor İnstitutunda yüzcildlik "Azərbaycan folkloru külliyyatı"nın (AFK) nəşr olunmasına başlanmışdır. Qısa müddətdə bu silsilədən olan on cild – "Nağıllar" cildləri folklorşünasların və geniş oxucu kütlələrinin ixtiyarına verilmişdir.

H.İsmayılov siyasi, milli, mənəvi cəhətdən bütöv şəxsiyyətdir. Onun vətənə, dövlətə və xalqa sədaqətli xidməti ali siyasi rəhbərliyin daim diqqət mərkəzində olmuş və bu, müxtəlif səviyyələrdə dəfələrlə qeyd edilmişdir.

Bu il – 2007-ci il dekabrın 10-da həyatı mübarizələrlə, keşməkeşlərlə, nağıl və dastanlarla, sazla-sözlə keçən, əqidəsi, amalı yolunda polad tək əyilməyən və bütün keşməkeşlərdən, mübarizələrdən qalib, üzüağ çıxan H.İsmayılovun 55 yaşı tamam oldu. Qoy Ulu Tanrının Sizə bəxş etdiyi bu qoşa beşin mayak tək yanan işığı sizin həyat yollarınıza daim işıq saçsın və bu qoşa beşin üzərinə daha bir qoşa beş də əlavə olunsun. O zaman isə yubileyinizi nəvə-nəticələrinizlə, doğmalarınızla birlikdə, hələ də yağı düşmən əlində inləyən Ulu Göyçədə, doğulub boya-başa çatdığınız Ağbulaqda qeyd edək!!! Əlli beş yaşınız mübarək olsun, Hüseyn müəllim!

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Şakir ALBALIYEV*

## UÇULMAZ KÖRPÜ TAĞI

Hələ universitetin filologiya fakültəsinin tələbəsi ikən tələbə yoldaşım Maral xanım Azaflı mənim folklora dərin marağımı hiss edib, Folklor Sarayı kimi fəaliyyət göstərən sarayın müdiri Hüseyn müəllimlə əlaqə saxlamağı məsləhət bilmişdi. Həmin ərəfədə görüşə bilməsəm də, nə vaxtsa onunla görüşməyi düşünmüşdüm. Sonralar – 1999-cu ildə «Kredo» qəzeti nəşrə başlayanda mən qəzetin məsul katibi kimi Hüseyn müəllimlə görüşdüm, müsahibə xarakterli bir yazı hazırladım...

Bir də Hüseyn müəllimlə xeyli sonralar, Folklor sarayı Dədə Qorqud adına Folklor Elmi-Mədəni Mərkəzinə çevriləndən sonra ara-sıra görüşürdük. 2004-cü ilin fevralında isə Hüseyn müəllimə yaxınlaşıb, ondan iş istədim. Böyük məmnuniyyətlə məni elmi işçi vəzifəsinə götürdü. Beləcə, əməkdaş kimi işə başladım.

Artıq o vaxtdan dörd ildən çox vaxt ötüb. Böyük bir institutun rəhbəri kimi, özünün qayğıkeşliyi və səmimiyyəti, humanistliyi ilə özünü kollektivə sevdirməyi bacarıb Hüseyn müəllim. 55-ci yaşın zirvəsinə yol gedir, bu, məncə, o qədər də böyük yaş deyil. Amma özünün insanpərvərliyi, genişürəkliliyi ilə hamının gözündə bir ağsaqqal kimi ucalıb. Qədimi, köhnə kişilər kimi, aqil insan, böyük ağsaqqal kimi...

Hüseyn İsmayılov gülərüz insandır, onun gülüşündə yalançı təbəssüm sezə bilməzsən, bu da onun saflığının bir nişanəsidir.

Hüseyn İsmayılov həm də ciddi adamdır, bu, özünü sözübütövlüyündə göstərir, dostlara sədaqətliliyində, tabeliyində olduğu işçilərinə qayğılı münasibətində büruzə verir.

Hüseyn İsmayılov təmənnasız rəhbərdir, hər kəsi qabiliy-yətinə görə dəyərləndirir, savadına görə qiymət verir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Onun haqqında xoş sözlər silsiləsini çox artırmaq olar. Amma bircə onunla kifayətlənirəm ki, Hüseyn müəllim bir mənəviyyat körpüsüdür. Keçmiş nəsillərlə indiki və gələcək nəsillər arasında.

Keçmişin adamları kimi sadədir, safdır, təmənnasızdır və öz timsalında keçmişin mərd kişilik mücəssəməsini bu günkü nəslə nümayiş etdirir, ondan nümunə götürən müasir gənclik bu kişilik-ərənlik nümunəsini gələcəyə estafet kimi aparır. Keçmişimizin mənəvi irsini – folklorumuzu yaşatmağı və gələcəyə çatdırmağı özünün böyük mənəvi missiyası hesab edən Hüseyn İsmayılov rəhbərlik etdiyi institutun kollektivini buna səfərbər etməklə uçulmaz bir körpü tağıdır – mənəviyyat körpüsü!..

*Rüvşən ƏLIZADƏ,*
*AMEA Folklor institutunun elmi işzisi*

**USTADIMIZ, MĞRŞİDİMİZ…**

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

AMEA Folklor İnstitutunun adı, ğnğ, mğsbət imici hazırkı zaman kəsiyində yalnız ülkəmiz daxilində yayılmayıb, həm də ülkə hğdudlarından kənara zıxaraq dğnyanın qabaqcıl folklor məkanlarının diqqətini cəlb edibdir. Bir süzlə, bu gğnə qədər Folklor İnstitutu ilə bağlı əvəzsiz rəğbətlərin, sayqıların şahidi olmuşuq və bu şahidlik, bu təəssğrat radiusu gğnbəgğn büyğyğr, genişlənir. Bu uğurların, fərəhlərin ilkin səbəbkarı, ilkin zəhmətkeşi və təşkilatzısı yorulmaz folklorşğnas alim, institutumuzun direktoru, filologiya elmləri doktoru, professor Hğseyn İsmayılovdur.

2003-cğ ili xatırlayıram. Həmin il hərbi xidmətimi bitirmiş və elmi iş ğzərində işləmək ğzğn Folklor İnstitutunun direktoru Hğseyn mğəllimə mğraciət etmişdim. İlk tanışlığımız zamanı zəhmli və gərgin gürdğyğm Hğseyn mğəllim, mənim folklor sahəsinə, Folklor İnstitutuna gəlişim ğzğn yaşıl işıq yandırdı. Sonrakı düvr ərzində Hğseyn mğəllimdə gürdğyğm dəyanəti, bğtüvlğyğ, kişiliyi, insaniyyəti və digər mğsbət keyfiyyətləri hər ziyalıda mğşahidə etmədiyimin də fərqinə vardım. Folklor İnstitutunda ilk gğnlərdən gürdğyğm nizam, ədalət və səmimi atmosfer əhvalımı bğsbğtğn dəyişdi. Dərk etdim ki, qurumun rəhbərinin, onun idarəzilik prinsiplərinin dğrğstlğyğ təşkilatın bu səviyyəyə zatmasının başlıca səbəbidir. Haqq və ədalət, elm və məsuliyyət, dğrğstlğk və zəhmət kimi prinsipərin Hğseyn mğəllimin həyat amalı olduğunu da dərk etdim. Bu gğnə qədər bunları gürdğm, bunları duydum…

Hğseyn mğəllim hər zaman bizlərə – institutun gənc elmi əməkdaşlarına folklorşğnaslıq elmini sevməyi, dərindən üyrənməyi, təbliğ və təşviq etməyi tüvsiyə edibdir. Bu təlqininə, bu zəhmətinə gürə Hğseyn mğəllim yalnız bizim direktorumuz yox, həm də ustadımız, mğrşidimizdir. Yğzlərlə elmi məqalənin, onlarla elmi monoqrafiyanın, nezə-nezə elmi kitabın mğəllifi olan Hğseyn

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

mğəllim, Azərbaycan elmi mğhitini fəth etmiş folklorşğnas alim kimi hər birimizin fəxridir, idealıdır. Hğseyn mğəllimin bu gğnə qədər ğmumtğrk kontekstində gürdğyğ qlobal işləri, yğrğtdğyğ tğrkzğlğk ideologiyasını bu yazımızda əhatəli şəkildə sadalamaq mğmkğnsğzdğr. Qeyd edək ki, bğtğn uğurlar, o cğmlədən Hğseyn mğəllimin təşkilatzılığı və gərgin zəhməti ilə kezirilmiş "Ortaq Tğrk Kezmişindən Ortaq Tğrk Gələcəyinə" adlı Uluslararası Folklor Konfransları (2007-ci ildə Beşinci konfrans kezirildi) tarix səhifələrinə qızıl hərflərlə yazıldı.

Bu yaxınlarda hürmətli direktorumuz Hğseyn İsmayılovun 55 yaşı tamam oldu. Fikrimcə, bu yaş da Hğseyn mğəllimin mğdrikliyinə, vətənpərvərliyinə, düvlətzilik eşqindəki əzm və təpərinə daha bir təkandır. Mən Hğseyn mğəllimi təbrik edir, ona uzun ümğr, can sağlığı, yeni-yeni elmi uğurlar və hər zaman indiki kimi gənc qalmağı arzulayıram.

## ĞMUMTĞRK FOLKLORUNUN "GÜYZƏ YÜRƏSİ"

Büyğk tğrk folklor arealına dair bu gğnə qədər bir zox elmi yeniliklər baş vermişdir. Bu yeniliklərdən biri də, 2008-ci ilin başlanğıcında AMEA Folklor institutunun direktoru, filologiya elmləri doktoru, professor Hğseyn İsmayılovun "Azərbaycanda Aşık Sanatı (Güyze Yüresi)" adlı kitabının Tğrkiyənin başkəndi Ankarada nəşr edilməsidir.

Professor H.İsmayılovun konseptual araşdırmasının nəticəsi kimi bu kitab, tğrk milli-mənəvi dəyərlər dğnyasının zəngin folklor arsenalına salınmış mütəbər kürpğlərdən biri olmaqla, həm də dğnya xalqlarının süz-informasiya əlaqələrinin bərpası baxımından xğsusi ünəm daşıyır. Artıq bu kitabla tanış olan hər bir Anadolu-tğrk bilim adamı və sadə oxucusu üzlğyğndə Azərbaycan aşıq sənətinin

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

şəcərəsi, onun yayılması, genezisi haqqında bğtüv bir təsəvvğr, tamlaşmış bir qənaət formalaşdıra biləcək. Bir zox əsərlərində, kitablarında Azərbaycan-tğrk aşıq sənətinin mahiyyətinə geniş elmi prizmadan nğfuz etmiş prof. H.İsmayılov, bu monoqrafiyasında da aşıq sənətinin lokal coğrafi məkanı, Güyzə aşıq sənətinin təşəkkğl və təkamğl mərhələlərinə dair tutarlı faktlar güstərmiş, yeni formatlı arqumentləri mğəyyən etmişdir.

Kitabda Azərbaycan – tğrk aşıq sənətinin müvcud mğhitləri izərisində Güyzə aşıq mğhiti digər mğhitlərin genetik bazası kimi güstərilir. Prof.H.İsmayılov bu təyinatdan qabaq mərhum akad.Yaşar Qarayevin elmi tezisinə diqqəti yünəldir: "Tarixdə hər şey bizim ğzğn folklordan, folklor isə... Güyzədən başlayır. Rğbabın (Fğzuli qəlbinin telinin) vətəni Dəclə və Fərat arası, lirikanınkı- Egey dənizinin sahili, Qopuzun vətəni isə Güyzənin bətninin, bağrının başı olub. Hər halda Qopuzdan ilk ilahi, şifahi simfonik səda Qafqaza Güyzədən yayılır"(Y.Qarayev). Qeyd edək ki, mğəllif kitabında Güyzə aşıq mğhitini geniş və mğstəqil sferada araşdıraraq folklor mğhitlərinin transformasiya hadisələrini, bunların səbəblərini aydın şəkildə təhlil edir və təhlillərində problem kimi gürğnən məqamları sistemli variantlarda güstərir.

Qısa olaraq biz, prof. H.İsmayılovun Güyzə aşıq mğhiti ilə bağlı mğəyyən etdiyi elmi qənaətlərin bəzilərini diqqətə zatdırırıq:

– Qərbi Azərbaycan, Borzalı və Azərbaycanın qərb rayonlarındakı aşıq sənətinin qaynaqlandığı mğhit Güyzə aşıq mğhitidir;

– Güyzəni ədəbi-mədəni mğhit kimi səciyyələndirən başlıca güstərici isə qədim tğrk xalq ənənələrinə maksimum bağlılıq, sadiqlik və tğrk üzgğrlğyğdğr.

Bu dəyərləndirmədən sonra prof.H.İsmayılov Azərbaycan aşıq sənətinin inkişaf mərhələlərini miqyaslı mğstəvidə mğəyyən-

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

ləşdirir və qeyd edir ki, Güyzə aşıqları aşıq şəcərəsini birmənalı şəkildə Miskin Abdaldan başlayırlar. Bu başlanğıc ikili xarakter daşıyır:

1. Miskin Abdal Ozan İbrahimin şagirdi olubdur. Başqa süzlə, bu, ozan-aşıq transformasiyasının təsdiqidir.

2. Miskin Abdal haqq aşığıdır; başqa süzlə sufi-dərvişdir – mğrşiddir; bu da aşiq-aşıq transformasiyasını təsdiqləyir.

Buradan o nəticəni zıxarmaq olar ki, aşıq sənətinin əsasında həm ozan sənəti, həm də sufi təriqəti dayanmışdır (H.İsmayılov).

Qeyd edək ki, tədqiqatzı alim, İlahi eşqlə haqqa yetən qəhrəmanın bəsirət güzğnğn azılmasına, aləmin sirlərinə vaqif olmasına aid maraqlı faktlar güstərir. Məlum olur ki, "Kandan məkana səfər eyləyən" haqq aşığı İlahi eşqə yğksəlir, mistik qatlı qıfılbəndləri İlahi qğdrətin gğcğylə züzğr, dağla-daşla danışır. Mənalar dğnyasının bilicisi kimi bu haqq aşığı obrazının təşəkkğl tapmasında xalq sufiliyinə mənbə sayılan şamanzılıq gürğşlərinin də izi vardır. Alim şamanzılıqla bağlı yazır: "Tğrk şamanzılığından fərqli olaraq oğuz şamanzılığından yalnız dğnyagürğş səviyyəsində danışmaq olar".

Araşdırmalar nəticəsində bəlli olmuşdur ki, əski zağlarda həm başzı, həm gələcəkdən xəbər verən, həm kahin və təbib olan şamanların cəmiyyət həyatında ayrıca bir yeri var idi. Məsələn, şaman mifologiyasında başlıca fiqur təbiəti metaforik olaraq canlı varlıq kimi qavrayan şamanın üzğdğr. O, qamlıq eləyərək ruhlarla insan oğulları arasında əlaqə yaradan bir mediatordur.

Tədqiqatzı alim daha sonra Miskin Abdalla bağlı yazır: "Miskin Abdalla bağlı elmi araşdırmaların məhdudluğunu da nəzərə almaqla süzğgedən şəxsiyyətin və onun zoxistiqamətli fəaliyyətinin aşağıdakı kontekstlərdə üyrənilməsi vacibdir:

a) Miskin Abdalın şəxsiyyəti (siyasi fəaliyyəti və sosial statusu).

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

b) Miskin Abdalın sufi statusu.

c) Miskin Abdalın sənətzilik fəaliyyəti".

Prof.H.İsmayılov yazır: "XVII-XVIII əsr xalq şeirinin Dərdli Nəsib, Şımpırlı Sevgili, Qul Mahmud, Zodlu Fatma xanım kimi gürkəmli nğmayəndələrinin yaradıcılığı həmin mərhələnin məhsuludur".

XIX əsri Güyzə aşıq poeziyasının intibah düvrğ kimi səciyyələndirərən alim qeyd edir: "XIX əsr bğtüvlğkdə Azərbaycan tarixində mğrəkkəb bir düvrdğr. Yaranışından azad yaşayan tğrk insanı bu əsrdə işğala məruz qalıb; tğrk eli dağıdılıb, tğrk xalqı yağı əlində qul edilib və nəticələri bu ggn də mğşahidə edilən mədəni-mənəvi, dini-ruhani deqradasiyaya uğradılıb... Eyni zamanda Azərbaycan milli şğurunun oyanması və milli azadlıq hərəkatının ilkin rğşeymlərinin yaranması da XIX əsr Azərbaycan reallığının faktıdır".

Tədqiqatzı alim "Güyzədə dastan yaradıcılığı" adlı fəsildə yeni təsnifatlar təqdim edir:

"Əski xalq şeiri ğstğndə yaranan ədəbiyyat tarixi-xronoloji ardıcıllıq və mədəni-genetik əlaqəni itirmədən iki xğsusi tip təşkil edir:

1. Qopuz şairləri.
2. Saz şairləri.

Birincilərin daşıyıcı subyekti "ozanlar", ikincilərinki isə "aşıqlar" idi".

Bizim ğzğn aydın olur ki, qopuzun əski bir musiqi aləti kimi qədim tğrk baxşı-ozanlarının saqu (ağı) süylədiyi, dastanlar oxuduğu zaman oynadığı rol, yerinə yetirdiyi funksiya məhz sakral aləmdən nəşət tapmış akt idi. Bğtğn baxşılar ayin zamanı qopuzdan istifadə edirdilər. Qazaxların, qaraqalpaqların arasında dolaşan rəvayətlərə əsasən üvliya Qorqud Ata qopuzun ilk yaradıcısı idi. Qopuzun mistik mənalarından biri də şamanın üz küməkzi ruhlarını onun sədaları altında zağırmaları ilə bağlı olmuşdur.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Tədqiqatzı alim Qorqud məfhumu ilə bağlı maraqlı faktlar ortaya qoyur: «Qorqud» nə qeyri-mğəyyən bir mifoloji obraz, nə də mğəyyən bir tarixi şəxsiyyətdir. Əski zağın reallığına gürə bu konkret olaraq "qurd" (bürğ, gük bürğ, canavar) kimi təsəvvğr olunmuşdur. Hami ruh kimi (animizm səviyyəsi), totem kimi (totemizm səviyyəsi) təsəvvğrlərdə oturuşmuş Qorqud (qoruyucu qurd, xilaskar qurd) mifopoetik qavrama prosesində sakral (xilaskar, şaman, ata, peyğəmbər) və real (kahin, ozan, ağsaqqal, mğdrik şəxsiyyət) olaraq ğzvlənmişdir".

Tğrklərin əski zamanlardakı hegemoniyası, dili, ədəbiyyatı ilə bağlı Prof. H.İsmayılov tutarlı, maraqlı elmi izahat təqdim edir: "Tğrklərin zox əski zamanlardan geniş ərazidə yayılması mğxtəlif coğrafi, iqtisadi, siyasi, mədəni, dini mğhitlərə dğşməsi, etnik-mədəni təkamğl və başqa etnik – mədəni sistemlərlə əlaqələr tğrk ədəbiyyatının inkişafında zeşidli təmayğllər və hətta ədəbiyyat tiplərinin yaranması ğzğn əsas faktorlar olmuşdur. Tğrk mədəni-ədəbi mğhitinin Şərqdə – Tğrkğstanda (Mərkəzi Asiyada) yaratdığı ədəbi dəyərlər sistemi qərbdə – Qərbi Asiyada və Şərqi Avropada mğstəqil ədəbi mğhitlərin yarana bilməsini istisna etmir. Məlumdur ki, qərbdə əski tğrk-bulqar ədəbiyyatı Şərqdə əski tğrk-uyğur və tğrk-oğuz ədəbiyyatlarına nə yaranma zamanına gürə, nə də poetik mğkəmməlliyinə gürə gğzəştə getmir. Şərq tğrklərinin və Qərb tğrklərinin həm dilini, həm də ədəbiyyatını qovuşduran oğuz-qıpzaq dili və oğuz-qıpzaq ədəbiyyatıdır. Şərqdə karluq və uyğurların, qərbdə isə bulqarların təkcə mədəniyyətdə və ədəbiyyatda deyil, həm də birbaşa etnomədəni təkamğlğndə oğuzların və qıpzaqların iştirakı şğbhəsizdir".

Prof. H.İsmayılovun tədqiqat əsərindən bir həqiqət də məlum olur ki, Tğrkğn əzəməti onun əski zağdakı yaradıcılığı, üzğndə

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

ilkin əcdad, mədəni qəhrəman cizgilərini əks etdirməsi və bğtüv-lğkdə tğrk dğnya nizamını dğzənləyən demiurq olması ilə bağlıdır.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Qalib SAYILOV*
*AMEA, Folklor İnstitutunun elmi işçisi,*
*«Lider-fakt»ın baş redaktoru*

## İŞIQLI ALİM, SƏMİMİ İNSAN

İnsan doğulduğu gündən onunla bahəm bir ömür kitabı səhifələnir. Haqlı olaraq ərəblər insan ömrünü kitaba bənzədiblər. Ancaq elə yaşamalısan ki, sənin ömür kitabının səhifələri yeknəsəq, yorucu deyil, mənalı, şərəfli və məntiqli olsun. Mehmet Əbdülfəttah Şahinin təbirincə desək, ən uzun ömürlülər ən çox yaşayanlar deyil «çevirib-çevirib» həyatlarından ən çox səmərə və cəmiyyətə səmərə verə bilənlərdir. Bu ölçüyə görə, yüz yaşında qısa ömürlülər olduğu kimi, on beş yaşında, yüz illərdə əldə edilə biləcək bərəkət və feyzlərlə başı göylərə ucalan insanlar da mövcuddur.

İyirminci yüzil Azərbaycan bədii söz sənətinin, rəssamlığın, elmin və mədəniyyətin sürətlə inkişaf etdiyi, el sənətinin, folklorun və xalq yaradıcılığının geniş intişar tapdığı, hər SAhədə milli özünüdərkin, milli oyanışın gücləndiyi bir dövrdür. Belə bir məqamda sənətin, elmin inkişafına xidmət edənlər fərdlər və şəxsiyyətlər olmuşdur. Hər bir sahədə fərdi yaradıcılıq özünü bariz surətdə göstərmişdir. Azərbaycan folklorunun inkişafında yeni elmi konsepsiyanın müəllifi isə canı və qanı ilə vətənə, torpağa bağlı bir insan, işıqlı alim Hüseyn Ələsgər oğlu İsmayılovdur. Filologiya elmləri doktoru H.Ə.İsmayılov yalan və bəlağət üzərində qurulmuş dırnaqarası nəzəriyyələri darmadarğın etmiş, daha orijinal və mütərəqqi konsepsiya – yeni nəzəriyyə ilə çıxış etmişdir.

Bizə məlumdur ki, cəmiyyətin bütün sferalarında baş verən ən mütərəqqi hadisə və olaylar, dəyişmələr idrak məhsulu olaraq

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

hər şeydən əvvəl insanların şüuru ilə bağlıdır. Avtoritar və totalitar sistemlərin hüquqi demokratik sistemlə əvəz olunması cəmiyyətin şüurunda köklü dəyişikliklərin baş verməsi ilə nəticələnir. Demokratik proseslər ziyalıda vətəndaşlıq ləyaqətinin, dövlət və xalq qarşısında məsuliyyət hissinin daha da möhkəmlənməsinə imkan yaradır. Hazırda ölkəmizdə mütərəqqi islahatlar prosesinin fəallaşması, bir sıra aktual problemlərin həlli folklor SAhəsində də sanballı tədqiqatlara başlamağı həyati tələbata və elmi zərurətə çevirdi. Beləliklə də, ümumilli lider, böyük öndər H.Əliyevin xeyirduası, f.e.d. H.İsmayılov fədakarlığı və əzmkarlığı ilə müqəddəs bir ocaq – Folklor İnstitutu yarandı. Respublikanın bütün mütərəqqi ziyalıları bu hadisəyə ürəkdən sevindilər. Tezliklə bu saf və halal MƏKANDA Ölkənin ən sanballı və ləyaqətli folklorçu alimləri cəm oldu. Akademiklər, tanınmış professor və elmi işçilər institutun perspektivlərini müzakirə edir, hər bir işdə bilik və bacarıqlarından maksimum istifadə edirdilər. Gecə ilə gündüzün, qaranlıqla işığın, xeyirlə şərin mübarizəsi həmişə olmuşdur. Belə bir müqəddəs ocağın – Folklor İnstitutunun yaranmasına sevinənlərlə bahəm ona paxıllıq edənlər, xudbin əməllərlə bu saflıq və paklıq ocağına şərböhtan atanlar da tapıldı. F.e.d. H.İsmayılov həmin xudbinləri birərbirər tapıb İFşa etdi. Onların elmdən uzaq olduqlarını, alverçi xislətlərini faş etdi. Lakin «qara əllər» yenə sakit dayanmadı. Öz SAvadsızlıqlarını və plagiatlıqlarını həmişə aranı qarışdırmaq və intiriqalar salmaqla diqqətdən yayındıranlar yenə də qara əməllərindən əl çəkmirdilər. Bu dəfə də Hüseyn İsmayılov onlara qələbə çaldı. Bir çoxlarının elmsizliyini sübut etdi. Belə əcaibqəraib əcinə xislətlilərin səsini kəsmək Hüseyn müəllimin sağlamlığı bahasına başa gəlirdi. Hüseyn müəllim özünün və İnstitutumuzun, eləcə də ölkəmizin ləyaqətinin qorunmasında nəinki sağlamlığından, hətta həyatından keçməyə hazır olduğunu mətnlə nümayiş etdirdi. Bu bizlər üçün bir örnək oldu. Belə

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

əzmkarlıq isə onun doğulduğu və böyüdüyü mühitlə bağlı idi. Hüseyn müəllim Göyçə kimi zəngin mənəvi bir mühitdə dünyaya gəlib. Dədə Ələsgərin zəngin irsini öyrənə-öyrənə özü də Dədələşib.

İbtidada «əlif» - Allah,
«Bey» - birliyə dəlalətdi.
«Tey» - təkdi, vahidi – yekta,
Arif bu elmə bələddi – deyən Dədə Ələsgərin, ocaq Ələsgərin külliyyatını birər-birər muncuğu sapa düzən kimi düzə-düzə Hüseyn İsmayılov özü də üzü pirliyə-piraniliyə doğru yön aldı. Ömrünün pir və pirani məqamına yetişdi. O da ocaqlaşdı, o da pirləşdi.

Onun folklor elminə gətirdiyi yeni konsepsiyalar elmi ictimaiyyət tərəfindən təqdir olundu. «Aşıq sənətinin təşəkkülü; inkişaf mərhələləri», «Göyçə dastanları və aşıq rəvayətləri», «Misgin Abdal», «Azərbaycan folklorunun regional xüsusiyyətləri» və s. kimi fundamental əsərləri elmi ictimaiyyət tərəfindən maraqla qarşılandı. Bəzi özlərini folklorçu sayan «alimciklər» Hüseyn İsmayılova çox fitnə-fəsad etdilər. Lakin «günəşin üzərinə çökən buludlar» günəşin ziyasını heç vaxt azalda bilməz.

Əzizim Hüseyn müəllim!

Sizə mane olanlar həmişə özlərinin toxumuş olduqları xəbislik və riya torunda boğulacaqlar. Çünki riya və yalan üzərində qurulan şey möhtəşəm ola bilməz.

İlk bahar gəlirkən akasiya ağacı da, alma ağacı da çiçək açır. Çox çəkmir ki, akasiyanın çiçəkləri solur, lakin heç bir meyvəsi olmur. Alma ağacının isə çiçəkləri töküldükdən sonra barı-bəhəri olur. Sizin barınız bizik, Sizin dissertantlarınız, şəyirdləriniz.

Hüseyn Ələsgər oğlu böyük alimdir, yaxşı təşkilatçıdır, ağsaqqallığı bacaran rəhbərdir. Bütün bunlara rəğmən səmimi insandır və şəxsiyyətdir. Sözün əsl mənasında yaxşıdır.

Şair demişkən:

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Könlüm zirvələrlə görüşmək istər,
Yol tapa bilmirəm duman əlindən.
Yaxşı ki, dünyada yaxşı varıymış,
Yoxsa tərg olardıq yaman əlindən.

Yaxşı ki, yaxşılar var. Yaxşı ki, Hüseyn müəllim var. Allaha şükürlər olsun! Deməli, hələ yaşamağa dəyər!

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Fəxrəddin SALİM*

# CƏSARƏTİN TƏNTƏNƏSİ

Xalqın folklorunu, milli dəyərlərini araşdıran, ona şəkil verən alimlər çoxdur və bundan belə də olacaq. Folklor bəlkə də yeganə milli dəyərdir ki, millətin coğrafi arealı, tarixi gerçəkliyi burada öz fəlsəfi-estetik simasını qoruyub saxlayıb. Folklor inciləri tarixin, insanlığın sınağından keçir, ələnir, ən gözəl və layiqli nümunələrini əsrlərdən adladaraq yaşadır.

Lakin folklora, milli-mənəvi dəyərlərə baxış, onların elmi-fəlsəfi təhlili hər alimin elmi-mədəni səviyyəsindən asılı olaraq dəyişir.

Azərbaycan milli məfkurəsinin ən dəyərli atributlarından biri də aşıq sənətidir. Prof. Hüseyn Ələsgər oğlu İsmayılovun bu sahədəki tədqiqatları təkcə elmi yenilik deyil. Hüseyn müəllim qırmızı imperiyanın yaratdığı elmi-ateizm təbliğatının canlı qurbanı olan aşıq sənətinin üzərindəki material-dünyəvilik kabusunu sındırdı. «Aşıq» məfhumunun əslində Haqq nurunun təcəllası olaraq, məclis, əyləncə sənəti yox, ürfani-missioner bir hadisə olduğunu Hüseyn Ələsgər oğlu sübut etdi. Onun «Aşıq yaradıcılığı: mənşəyi və inkişaf mərhələləri» adlı fundamental elmi nailiyyəti uzun illərin axtarışı kimi çox qiymətli bir əsərdir. Hüseyn İsmayılovun ən böyük xidməti isə özündən sonra gələn yenilikçi, cəsarətli elmi konsepsiyalara meydan açmağı oldu. Bəli, Hüseyn müəllim ənənəvi stereotiplərə son qoydu, aşıq sənəti və ümumiyyətlə xalq yaradıcılığı üzərindəki kommunizm tilsimini sındırdı. Bu çox böyük qələbədir. Ən başlıcası isə azman bir cəsarətdir.

Biz bu gün AMEA Folklor İnstitutunda bu böyük cəsarətin təntənəsini yaşayırıq. Hüseyn Ələsgər oğlu bizə Miskin Abdalı qaytardı, Ələsgər fəlsəfəsinin əslində yüngül bəşəri hisslərdən

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

ibarət olmadığını göstərdi. Bu keyfiyyətləri nəzərə alaraq, cəsarətlə söyləmək olar ki, alimin konsepsiyası nəinki Azərbaycanda, eləcə də Azərbaycan xalq məfkurəsinin mühüm yerə malik olduğu ümumtürk milli-mənəvi dəyərlər sistemində elmi yenilikdir. Bu cəsarət yolunda biz doğma alimimizə daha yeni və fundamental elmi nailiyyətlər arzulayırıq.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Atəş ƏHMƏDLİ*
*AMEA Folklor İnstitutunun elmi işçisi*

# FOLKLORDAN KEÇƏN ÖMÜR

Folklordan dissertasiya yazıb alimlik zirvəsinə yuksəlmək hələ folklora bağlılığın tam göstəricisi deyil. Elə insanlar (yəni mütəxəssislər) var ki, əldə etdikləri bu cür uğur onların həyatında müəyyən bir mərhələni təşkil etməsindən dolayı önəm daşıyır. Elə insanlar da var ki, onların ömür tarixçəsindəki belə zaman kəsimlərini ayrıca vurğulamağa ehtiyac qalmır. Peşəyə vurğunluq həyata vurğunluq qədər olur belə insanlarda. Peşə qayğıları gündəlik qayğılarını da alır onlardın. Məhz Hüseyn Ələsgər oğlu da belələrindəndir. Hüseyn müəllimin sadə və səmimi insan olması onu çevrəsindəki çoxluqdan o qədər də fərqləndirmir. Çünki bu keyfiyyətlər çoxluğun (tam mənada cəmiyyətin) dəstəklədiyi adi insani normalardır. Hüseyn müəllimi çevrəsindən fərqləndirən ondakı adi görünməyən keyfiyyətlərdir. Məsələn, məlum səbəblər üzündən Qərbi Azərbaycandan deportasiya olunduqları zaman canını, qismən də malını bir təhər ərazidən çıxarmağa səy göstərən soydaşlarından (birellilәri nəzərədə tutulur) fərqli olaraq, Hüseyn müəllim canı qədər əziz tutduğu folklora aid maddi olanların (yazılı mənbələrin, hazır eks-ponatların və s.) xilasına çalışıb. Özünün dediyinə görə, Bakıya gətirə bildiyi materialların həcmi bir yük avtomobilinə sığacaq qədər imiş.

Bəs Hüseyn müəllimin folklorun sehrinə düşməsinin əsl səbəbi nədə idi?! Yazıb-pozmağa qədəm qoyduğu məktəb illərin-dəmi?! Yoxsa ali təhsilə yiyələndiyi institut həyatındamı?! Bəlkə doğulub boya-başa çatdığı Vətən torpağından boy verən milli-etnik yaddaşın, genetik kodun özü idi bu sehr?!!! Elə Göyçədə

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

doğulmaq həm bu kodun, həm də «Vətən yükü» qədər ağır bir yükün daşıyıcısı olmaq demək idi. Göyçə sözü-saza, sazı-sözə sarılan, sonra da sarmaşıq tək yuksəkliyə can atan, dədə-ozan minarəsinin ən uca minbəri idi Hüseyn Ələsgər oğlu üçün! Əhsən bu ucalığa, haqdan yaranmış qüdrətə!!!

Göyçə həm də məkani bir reallıq, yurd yeri, dədə-baba ocağı idi Hüseyn Ələsgər oğlu üçün!.. Bu məkanı, bu yurdu, bu ocağı dağıtdılar. Ancaq bu ocağı söndürə, bu soyu qıra, bu ruhu öldürə bilmədilər. O bu ocağın (sevgili övladları kimi) közünü gözündə, ruhunu canında daşıdı və vücudundakı bu ruh, bu atəş ona bəs etdi ki, Vətənin başqa bir guşəsində yenidən bu ocağı közərtsin, qalasın, alovlandırsın! İndi bu ocağın ətrafında kimlər yoxdu?! Milli-mənəvi dəyərlərimizi uca tutan, folklor işini haqq işi, milli mücadilə kimi dərk edən (hər cür fitnə-fəsaddan uzaq) folklorçuların demək olar ki, hamısı bu ocağa tapınıb! Kimlər bu ocaqda yoxdusa, ocağın nə günahı?! Bu yerdə altmış illiyində Elxan Məmmədliyə həsr etdiyim kiçik həcmli yazıdan bir fraqmenti yada salmağa ehtiyac duydum: «Allah Hüseyn müəllimdən razı qalsın! Ölkəyə səpələnmiş folklorçuların bütöv arsenalını bu ocaqda cəmləşdirib onlardan «nizami ordu» təşkil edə bildi».

Folklor İnstitutu əməkdaşlarının çox önəm verdiyi və tez-tez işlətdiyi bir istinad var: «İnstitutun ab-havası «bayırdakından» çox seçilir. Bura daxil olan kimi adamın əhvalı yaxşılaşır». Bu ab-havanın özü çox yaxşı, fəqət onun yaradılması çox zordur! Buna görə hamılıqla Hüseyn müəllimə minnətdarıq! (Əfsuslar olsun ki, bu ab-hava çox yerdə hiss olunmur) Mübaliğəsiz Hüseyn müəllimin müsbət keyfiyyətlərini sadalaya billərəm. Lakin daha çox önəmli saydığım keyfiyyəti onun təmənnadan çox-çox uzaq bir vəzifə sahibi olmasıdır. Çox təəssüf ki, zamanımızda bu keyfiyyət çox

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

kişinin xislətində sezilmədi. Mənən zənginləşmək istəyənlərə şəxsi nümunə ola bilər Hüseyn Ələsgər oğlu!

Hüseyn müəllim dostları ilə keçirdiyi vaxtı özünün ən duyğulu anlarından sayır. Daha şən və sərbəst olduğundan belə anlarda «onu tutmaq olmur». Elə bir neçə ay öncə onun doğum günündə onunla birgə keçirdiyimiz gündəki kimi... Həmin günün sevinci onunçün ikiqat idi. Həm doğum günü, həm də dostların əhatəsi... (Hüseyn müəllimlə dost olmaq istəyən adamın sadə və səmimi olması yetərlidir). Həmin günü ona çoxlu səmimi sözlər ünvanlandı. Hər kəs onun barəsindəki fikirlərini onunla bölüşmək istəyirdi. Sıra mənə yetişdi. Fikirlərim orijinal səslənsin deyə fərqli çıxış etməyə çalışdım. Bilmirəm nə dərəcədə uğurlu alındı, amma sözlərimin səmimiliyinə şübhəm yox idi. Fikirlərimin zirvəsi isə ən azı Dədə Ələsgər ömrü qədər (105 il) ömür, gün istəyim oldu Hüseyn müəllimə...!

**55 yaş onun hələ qarşıda neçə-neçə uğurlu yaradıcıq illərinin olacağını, neçə-neçə insana arxa duracağını ismarıclayır.**

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Atif İSLAMZADƏ*

## KEÇMİŞLƏRDƏN GƏLƏN ADAM

Əlli beş yaşını təzəcə qeyd edən Hüseyn müəllim ilə mənim tanışlığım cəmi-cümlətani beş ildir. Bu beş ildə beş yaşlı körpə uşaq kimi qəlbi kövrək olan bu insanı, sanki, əlli ildir tanıyıram. Ona baxmayaraq ki, mənim hələ qırx yaşım təzəcə tamam olub. Allahın bəxş etdiyi bu Qədər yazısında yaşımın üstünə yaş gəlib, yaşıdı olduğum Hüseyn müəllimin doğum şəhadətnaməsində deyil, mənəvi dünyasında hesablanan yaşını beş il tanıdığım hesabla öz yaşımın otuz beşinə vursam, iki əsrə yaxın edər. İliyindən qanınacan, kökündən sümüyünəcən, soyundan görkəminəcən, görkəmindən davranışlarının spesifik təzahürünəcən türk oğlu türk olan, bütün həyatı boyu türk sözünü götürüb böyük millət sevgisiylə içindən keçirib, zahirində daşıyan bu dəyərli insanın türkün boy göstərdiyi hər məkan içindən sevgisi yol gəlirsə, yaşını özünüz hesab edin.

Mən heç zaman Hüseyn müəllim kimi insanlar barəsində çox danışa bilməmişəm. Danışmaq istəsəm də, yenə bacarmamışam. Onları daxilimdə daşıyıb, iç dünyamda həmişə onlar ilə danışmışam. Bir kəs haqqında həmişə daha çox danışa billəcəyin halda, daha az danışsan daha yaxşıdır. Çünki onu birtərəfli təqdim etmək yaxşı olmaz. Hərtərəfli təqdim etmək sözün çoxluğunda mümkün olmaz.

Əzizimiz Hüseyn İsmayıl soylu, Ələsgər oğlu!
Yaşının üstünə yaş gətirsin Uca Yaradan,
Muradına əlin çatsın,
Mənzilinə yolun.
Hansı əsrdən gəlmisən bilmirəm,
Allah izn versin inşallah, –

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Ya bu əsrdəkiləri yığ apar öz əsrinə,
Ya o əsrdəkiləri gətir bu günə.
Getdiyin yolun aydınlığı,
Su kimi çilənsin ömrünə!
Amin!

## SAZ HAVASINDA DEYİLƏN QOŞMA

Ay hüseyn lələ, saz götür ələ,
Hikmət ilə danış, din aramızda.
Könlü gətir dilə, mizrab vur telə,
Bir elə, bir olsun min aramızda.

Sən səlam əhlisən, səlam söyləyək,
Gözəl sözə gözəl kəlam söyləyək.
Əzəl başda «Əliflə» «Lam» söyləyək,
«He» olaq, «nun» olaq, «sin» aramızda.

Qafil olan guya gedir düz yolu,
Nə sağı görməyir, nə də ki, solu.
Sağı mələk, solu şeytanla dolu,
Bir yolu gedirik, cin aramızda.

Dünyadan nə qədər olsa da pünhan,
Bəlli yolundadır mələklə şeytan.
Bircə yol itirib cin ilə insan,
Haqq ilə batildi din aramızda.

Əzəl yaranışdan növi-bəşərik,
Bir kürədə eyni odda bişərik.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Biri birimizdən ayrı düşərik,
Həmişə dolanar kin aramızda.

Hər yerdə bir adda çağrılır Allah,
Allah bağışlasın, əstəğfürullah.
Çoxdan dağılardı yer üzü vallah,
Nə yaxşı ki, var «amin» aramızda.

Bu dünyada dünyası var hər kəsin,
Avazı da özündədi hər səsin.
Könül istər, bircə dostlar deməsin,
Atif, sınıb qələmin aramızda.

***2007-ci il.***

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Alı ALIYEV,*
*Sumqayıt şəhər 25 saylı məktəbin müəllimi*

## SAZ-SÖZ XİRİDARINA

Ulu Göyçənin axar-baxarlı bir bölgəsində dünyaya göz açan qaya əzəmətli, dağ vüqarlı, gəncliyinin müdrik çağlarını yaşayn hörmətil professor Hüseyn İsmayılov, ömrün-günün uğura calansın!

Siz gənclik illərindən elmə, o cümlədən ümumtürk folkloruna maraq göstərməklə, ilk öncə ulu Göyçənin folklor xəzinəsini və itib batmaqda olan, ədəbi ictimayyətə bəlli olmayan söz sərraflarının adlarını üzə çıxardınız və onların yaradıcılıqları haqqında ilk məlumatları mətbuatda işıqlandırdınız. Belə tapıntılardan Aşıq Alı, Xəstə Bayraməli, Şair Aydın, Miskin Abdal, Ozan İbrahim, Şair Aqil, Ozan Heydər və digərlərinin Adını çəkmək olar.

Hörmətli Hüseyn müəllim, Siz hələ İrəvan Dövlət Pedoqoji İnstitutunda işləyərkən daim elmi axtarışlar apırır, necə deyərlər, **xam və maraqlı mövzularla** dövri mətbuatda məqalələr dərc etdirirdiniz. Sizin həmin məqalələriniz sanki, məcbur edirdi ki, digər bölgələrdə yaşayan ziyalılar da mütləq öz regionlarının folklor tarixinə nəzər salsınlar, qocaları danışdırıb onların yaddaşında olanları üzə çıxarsınlar. Siz tələbələrə də ciddi tapşırırdınız ki, hər kəs öz kəndinin, bölgəsinin folklor nümunələri əsasında referat, diplom işi hazırlasın. Mən Sizin tarixə, folklora bağlılığınızın daim şahidi olmuşam. Siz hələ İrəvanda olarkən istəyirdiniz ki, vaxtilə Oğuz-Türk yurdu olan Göyçənin, Qaraqoyunlunun, Zəngibasarın, Vedinin, Dərələyəzin, Zəngəzurun, Qarkilsənin (Sisyanın) folklor nümunələrini toplayıb nəşr etdirəsiniz. Siz nə qədər də uzaqgörən imişsiniz. Belə bir missiyanın yerinə yetirləməsi Ermənistanda

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

yaşayan azərbaycanlı ziyalıların çiyinlərinə düşürdü. Nə yaxşı ki, mən də üzərimə düşən bu missiyanı qismən də olsa yerinə yetirməyə çalışmışam.

Hörmətli professor, Dərələyəz folklorunun regional xüsusiyyətlərinin mənim tərəfimdən tədqiq edilməsi də məhz elə sizin təşəbbüsünüzlə həyata keçirildi. Bu elmi işin ərsə-araya gəlməsində sizin əməyiniz, bir elmi rəhbər kimi, danılmazdır. Mən çəkinmədən deyə bilərəm ki, siz təkcə folklor tarixini araşdırmaqla kifayətlənmirsiniz, həm də onun xiridarısınız. Mətbuatda, televiziyada onu işıqlandırmaqla yanaşı, həm də analoqu olmayan bir iş görməklə bütün bölgələrin folklorunun toplanıb nəşr olunmasına nail olmusunuz. AMEA-nın Ədəbiyyat İnstitutu nəzdində fəaliyyət göstərən «Folklor evi»ni bu gün həqiqi mənada geniş elmi araşdırmalar aparan bir fəal instituta çevirmisiniz. Çox mehriban və işlək bir kollektiv yaratmısınız. Fəxrlə deyə bilərəm ki, sizin ayrı-ayrı televiziya kanallarında folklor xəzinəmizin bu və ya digər növlərindən verdiyiniz açıqlamalar dəyərli tamaşaçıların ürəyincədir.

Möhtərəm professor, Sizdə olan dözüm, iradə, folklor xəzinəmizə maraq, hazırcavablıq deyərdim ki, boya-başa çatdığınız ulu Göyçə mahalından və bir də kökdən, nəsildən gəlir. Hüseyn İsmaylovla Eldar İsmayıl tamın ikiyə bölünməyən hissələridir. Həmin tamda müdriklik, alicənablıq, sözün sərrafı olmaq qabliyyəti var. Gəncliyinizin yetkin çağında ağsaqqallıq, idarəçilik, rəhbərlik missiyasını da şərəflə daşıyırsınız.

Hörmətli Hseyn mülləim, tarixin, folklorun açılmamış səhifələrini açmaqla istər itirilmiş, istərsə də itirilmək təhlükəsində olan bölgələrimizin qan yaddaşını, söz incilərini ipə-sapa düzməklə şərəfli bir yükün alıtına girərək sanballı bir monoqrafiya yaratmısınız («Azərbaycan folklorunun regional xüsusiyyətləri»).

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Sizin bu xidmətiniz alimlərimiz tərəfindən layiqincə qiymətləndirilsə də, əminəm ki, gələcəkdə toplayıb tədqiq etdiyiniz materiallarda söylədiyiniz elmi mülahizələrinizdən tədqiqatçılarımız bəhrələnə biləcəklər.

Sizin hər bir yazınız bütövlüklə Oğuz-Türk eli olan bir məmləkətin tarixi salnaməsinə çevrilmişdir.

Hüseyn müəllim, Siz olduqca sadə və gözü tox insansınız. Sizin haqqınızda ayrı-ayrı məclislərdə daim yaxşı sözlər eşitmək mənim üçün çox xoşdur. Yaş fərqimiz çox az olsa da, siz mənim elmi rəhbərim, yəni müəllimimsiniz. Bu isə məndə məsuliyyət hissini artırır.

Möhtərəm Hüseyn müəllim, Sizin haqqınızda bir çox tanınmış insanlar, alim yoldaşlar xoş fikirlər söyləmişlər. Mənim ürəklə söylədiklərim çox emosional olmasa da, səmimidir, qərəzsiz və təmənnasızdır. Eloğlunun müdrik bir şəxsiyyətə ünvanladığı ürək sözləridir. İnanıram ki, Sizin elmi fəaliyyətiniz haqqında tədqiqatçılarımız layiqli fikirlərini söyləcəyəklər.

Əziz Hüseyn müəllim, Sizə ilk növbədə möhkəm can sağlığı, yaradıcılıq uğurları arzulayıram. Zaman-zaman qazandığınız bu nüfuz və hörmət ömrünüzün sonuna kimi nəsibiniz olsun. Amin!

***21.04. 2008.***

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Xuraman KƏRİMOVA*
*«Qorqudşünaslıq» şöbəsinin elmi işçisi*

## AZƏRBAYCAN FOLKLORŞÜNASLIĞININ GÜVƏNC YERİ

Hüseyn müəllim haqqında fikir söyləmək, onun insani keyfiyyətlərini açıqlamaq ətrafındakı insanlara münasibətini dilə gətirməyi bacarmayan bir kəs üçün çox çətindir. Lakin 55 illik ömrün təntənəsi məqamında söz sözü çəkərkən sözün cazibəsindən kənarda qalmaq daha çətindir.

Kiminsə haqqında düşünəndə ilk növbədə onun ən qabarıq xüsusiyyəti göz önünə gəlir və bu prizmadan baxaraq onu bir şəxsiyyət kimi fikir süzgəcindən keçirirsən.

Laylası «Göyçəgülü», «Ruhani» üstündə çalınan, dil açanda «Əzizim, vətən yaxşı», «Mən aşiq, oyan, dağlar» deyən, «beşikdən qəbrədək» yol yoldaşımız olan xalq ədəbiyyatının bu gün canıyananlıqla qayğısına qalan Hüseyn müəllim, hər şeydən əvvəl, təmənnasızlığı ilə yaddaşımda özünə yer eləyib. Təmənnasızlıq elə bir mənəvi dəyərdir ki, insan haqqında təkcə bunu bilməklə mükəmməl fikir söyləmək olar. Çünki o, insan xislətində ola biləcək pislikləri məhv edir. Çox gözəl keyfiyyətlər də məhz təmənnasızlıqdan intişar tapıb göyərir.

Mənəviyyatı bu dəyər üzərində qurulmuş, Azərbaycan folklorşünaslığının güvənc yeri, görkəmli alimimiz Hüseyn İsmayılovu 55 illik ömrü ləyaqətlə yaşaması münasibəti ilə təbrik edir, ona sazlı-sözlü folklor ömrü arzulayıram.

Bu illərdə nələr keçib ömürdən,
Uğurlardır qazancınız, varınız.
Ötən günlər bir nağılın əvvəli,
Yüzə doğru addımlayın, varınız!

***Aşıq ALTAY***

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## ŞINIXDAN GÖYÇƏNİN HAVASI GƏLİR

1995-ci ildə I kurs tələbəsi olarkən bir dostum ilə İçərişəhərdə yerləşən Folklor Sarayına getdik. Bizi orta yaşlı, sanki qiyafəsindən nur yağan, gülərüzlü bir adam qarşıladı. Otağına dəvət etdi. Kim olduğumuzu soruşdu. Biləndə ki, mən Gədəbəydən Şınıx mahalındanam, İncəsənət İnstitutunun tələbəsiyəm, saz çalıb oxumağı bacarıram, nurlu çöhrəsinə bir az da işıq gəldi. Gülümsədi, sanki xəyalları çox uzaqlara getdi. Ahəstə olaraq kövrək bir səslə şairanə tərzdə: «Çox yaxşı elə bil Göyçəni gördüm, – dedi. – «Şınıxdan Göyçənin havası gəlir» misrasını söylədi. Bəli, bu sadə, səmimi böyük insan Hüseyn müəllimlə ilk tanışlığımız belə başladı. Hələ biz tələbə olarkən məni və neçə-neçə saz-söz adamlarını Folklor Sarayına dəvət etdi, işə götürdü. Azərbaycanın qədim şəhəri olsa da, qara nəfəslərin, yad qüvvələrin təsirindən milli musiqimizin səsi gəlməyən İçərişəhərdə əsl bayram başlandı, saz-söz ab-havası yaşandı. Hüseyn İsmayılovun fədakarlığı sayəsində Folklor Sarayı genişləndi, tanındı. Ulu öndərimiz Heydər Əliyevin sərəncamı Folklor İnstitutunun yaranmasını meydana gətirdi. Hətta Ölkəmizin hüdudlarından kənarda da şöhrətlənmiş Folklor İnstitutu Hüseyn müəllimin zəhməti sayəsində xalqımızın məbədgahına çevrilmişdir. Hüseyn müəllim görkəmli alim və şəxsiyyət olmaqla yanaşı, həm də sədaqətli dostdur. Dünya malında gözü olmayan alim xalqına, torpağına, milli-mənəvi dəyərlərə, türkçülüyə varlığı ilə bağlı bir insandır.

Mən uzun illər yaxından tanıdığım, özümə həmişə böyük bildiyim, gözəl məsləhətlərinə qulaq asdığım, əzizim Hüseyn müəllim haqda çox danışa bilərəm. Hörmətli alimi yubileyi mü-

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

nasibəti ilə təbrik edirəm və ona ailə üzvləri ilə birlikdə uzun ömür, can sağlığı arzu edirəm.

Ariflər anlayar, duyanlar deyər,
Tanrının nurundan paydı Hüseyn.
Vətən torpağına, vətən oğluna,
Ürəyi gülşəndi, yaydı Hüseyn.

Bəzən xəyallanar, yol alar kəndə,
Bulaqlar başında şehli çəməndə
Ələsgər sazından söhbət düşəndə
Coşan şəlalədi, çaydı Hüseyn.

Gəlsə də düşmənin yüzü, əyilməz,
Altayın ürəyi, sözü əyilməz.
Sözü yerə düşməz, dizi əyilməz,
Ərən oğullara taydı Hüseyn.

***Bakı, 2 iyun 2008.***

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Ülkər ƏLİYEVA*

## SAĞLIĞINDA QİYMƏT VERƏK İNSANLARA

Bir çox insanlar var ki, onlar ömür boyu pislik etməyi bacarmaz, yaxşılıq etməkdən usanmazlar. O kəslər kimsəni sevindirərlərsə onun sevinci ilə sevinər, öz xeyirxah əməllərindən həmişə məmnunluq duyarlar. Xeyirxahlıq belə insanların həyat meyarına çevrilir. Onlar etdikləri yaxşılıqlara görə kimsədən əvəz ummazlar. Yalnız Allahın mərhəmətinə sığınar və ondan mükafat gözləyərlər. El arasında belə insanlara «əməlisaleh insanlar» deyirlər. Ulularımız deyirlər ki, əməlisalehlərin yeri Tanrının dərgahında ucalardan ucadır.

Hörmətli Hüseyn müəllim, siz də belə şəxsiyyətlərdənsiniz. Mən bunu mübaliğəsiz deyirəm. İnstitutumuzun direktoru olduğunuz üçün Sizin haqqınızda yazmaq mənim üçün çox çətindir. Sizin ehtiyacınız olmayan gəlişigözəl ifadələrdən, bayağı təriflərdən qaçaraq yalnız ürəyimdən keçənləri qələmə almağı özümə borc bildim. Mən sizin qarşınızda özümü həmişə borclu bilirəm. Siz elə bir vaxtda mənim əlimdən tutdunuz ki, o xeyirxah ələ mənim çox böyük ehtiyacım var idi. Elə o gündən körpə uşaq təzə ayaq açan kimi mən də tədricən irəliləməyə başladım. İnstitutdakı gözəl abhava da məhz Sizin təsirinizdən yaranmışdır. Sizə də məlumdur ki, İnstitutumuza gələn hər kəs buranı özünə doğma bilir. İnstitutumuzun günü-gündən artan uğurları, nailiyyətləri, institutdaxili istilik, səmimiyyət – bunların hamısı Sizin adınızla bağlıdır. Bütün bunlara görə biz Sizə minnətdarıq. Ulu Tanrıdan Sizə sağlam can və ucalıq arzulayıram.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Xəyalə ƏLİYEVA*
*AMEA Folklor İnstitutu*

# KOLLEKTİVİN SEVİMLİSİ

Folklor hər bir xalqın milli-mənəvi sərvətidir. Şifahi xalq nümunələrinə sahib çıxmaq millətin özünüdərk məsələsidir. Azərbaycanda Folklor Elmi-Mədəni Mərkəzinə İnstitut statusu verilməsi çox vacib olduğu kimi, bu istituta millətini sevən bir şəxsin rəhbərlik etməsi də son dərəcə zəruridir. Hüseyn İsmayılov məhz belə insandır. Mən artıq səkkiz ildir ki, bu elm ocağında çalışıram. Birinci gündən Hüseyn müəllimin xoş, mehriban siması ilə qarşılaşmışam. Hüseyn müəllim kollektivi sevən, onun qayğısına qalan bir insandır. Səmimiyyəti onu kollektivə yaxın edir. İşçilərin nizam-intizam qaydalarına riayət etməsi, öz işini sevməsi onun çox xoşuna gəlir. Hüseyn müəllim elə şəxslərdəndir ki, özünü sevdirməyi bacarır.

Hüseyn İsmayılov gözəl insan olmaqla bərabər həm də elm sahəsində xeyli uğurlar qazanmışdır. Öz elmi fəaliyyəti ilə elmlər doktoru dərəcəsinə qədər yüksəlmişdir. Folklor İnstitutunda fəaliyyətə başladığı dövrdən ayrı-ayrı bölgələrdən toplanmış materialları çap etdirmişdir. Antologiyaların nəşri folklorumuzu gələcək nəsillərə çatdırmaq baxımından çox əhəmiyyətlidir. Bundan başqa, İnstitutda fəaliyyət göstərən elmi işçilərin ayrı-ayrı mövzulara həsr olunmuş monaqrafiyalarının çap olunması folklorumuzu gələcək nəsillərin dərk etməsi baxımından çox əhəmiyyətlidir.

Hüseyn müəllim həm də mənim elmi rəhbərimdir. Aspiranturaya qəbul olduğum gündən mənə dəstək olub. Öz dəyərli məsləhətləri ilə məni ruhlandırıb. Mən öz müəllimimə elmi fəaliyyətində uğurlar arzu edirəm. 55 beş yaşınız mübarək! Canınız sağ, Ömrünüz uzun olsun!

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Nemət QASIMLI*

## HÜSEYN MÜƏLLİM, 55 YAŞIN MÜBARƏK

«Hüseyn İsmayılov, 55 yaşın mübarək» kəlmələri deyiləndə xəyal məni 1995-ci ilə apardı. O ilə ki, o vaxtlar mənim həyatımda yeni bir səhifənin açılışına – elm ocağının dərinliyinə girmək şansı verildi. İlk tanışlığımızın təməli sazla başlandı. Elə o vaxtlar mən hiss etdim ki, Hüseyn İsmayılov deyiləndə Göyçə, Göyçə deyiləndə saz yada düşəcək. Bu insan elinə, obasına, vətəninə, xalqına o qədər bağlıdır ki, onun gördüyü işləri təhlil edəndə yalnız sevinirsən, fəxr edirsən.

Nə gözəldir bu dünyanın gərdişi,
Ömrü yarı edə bilməz hər kişi.
Təbrik üçün gəldim atıb hər işi,
Səmimidir saf sözlərlə bu ürək
Hüseyn müəllim, 55 yaşın mübarək.

Bu gün şübhəsiz ki, Hüseyn İsmayılovun elmi fəaliyyəti, televiziyada apardığı «Ustadnamə» verilişi, aşıq sənətinə, saza olan məhəbbəti – bunlar hamısı onun şəxsində mənəvi xəzinəmizin, Azərbaycanın mənəvi dəyərlərinin, əxlaqi sərvətlərinin Hüseyn İsmayılovun təbliği sayəsində daha da zənginləşən bir dünyasıdır. O, adilikdən çox uzaqdır. Hüseyn İsmayılovu heç zaman bu duyğulardan kənarda görməmişəm və onu, sözün düzü, məntiqli danışığı, yüksək səviyyədə təşkilatçılıq qabiLiyyəti, ən əsası isə əsl Azərbaycan kişisinə məxsus xüsusiyyətləri ilə tanıyıram. Bunlardan kənarda Hüseyn İsmayılov yoxdur. O, bunlarsız bir gün belə yaşaya bilməz. Millətinin, xalqının, yurdunun, yuvasının, torpağının oğludur Hüseyn İsmayılov. Şükürlər olsun ki, onun gördüyü işlər öz müasirləri tərəfindən layiqincə dəyərləndirilir. İnanıram ki, uzun illər topladığı təcrübə müdriklik, saza sözə bağlılıq Hüseyn İsmayıovu gələcəkdə bir ziyalı alim, folklorşünas kimi daha da

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

zirvələrə qaldıracaqdır. Hüseyn İsmayılovun ən dəyərli işlərindən biri Miskin Abdalın yenidən geniş formada xalqa təqdim edilməsidir. Göyçə aşıq mühitinə yeni baxış, yeni yanaşma tərzi Hüseyn İsmayılovun timsalında aşıq sənətinə verilən ən dəyərli ənamdır. Onun aşıq sənəti haqqında toplanan işləri, təhlilləri digərlərindən çox fərqlənir. Özünün Sözü ilə desək, foklorçu sonradan yaranmır. Hüseyn İsmayılov bu sözlərilə həm də folklorumuza xor baxan insanları özünə qaytarır, kimliyini dərk etdirir. Həyat çox mürəkkəbdir, insan Tanrının ona bəxş etdiyi ömür payını yaşayır, bu ömür payının içərisində çətinliklər də az deyil, bəzən təsvirə gəlməyən, bəlkə də heç tanımadığın bir insan sənə o qədər doğma olur ki, bu doğmalıq həyatın boyu sənə güc-qüvvət verir. 15 ildir mən Hüseyn İsmayılovu tanıyıram. İlk gündən necə görmüşdümsə, elə o cür də yadımda qalıb. Yaşının üstünə yaş gəlsə də, həminki kimi odlu-alovlu, eşqli, məhəbbətli, atmacalı bir atadır. Çünki o bizlərə doğma övladı kimi həmişə yol göstərir, məsləhətlər verir, hərdən bir hirslənər və tez də «oğlum Səbuhiyə də belə məsləhətlər verirəm» deməklə könlümüzü alar. Hüseyn İsmayılov həmişə «folklor bizim evimizdi, burda ancaq layiq olanlar işləyə bilər» deyir. Folkloru evi, işçiləri övladı hesab edən müdirin təbii ki, ata olmaq haqqı var. Bu baxımdan atanın yaşının üstünə yaş gəlməsi övladı nə qədər kövrəldirsə, o qədər də qürurlandırır. Ona görə ki, bu ömür yolu çox fərəhli olub, xalqına, millətinə xidmətdən güc alır. Azərbaycanın bəşəriyyətə verdiyi ali dəyərlər dünya xalqları ilə müqayisədə çox zəngindir. Qədimlikdə ali, uca, insani nə varsa, bü günkü mayamıza qatmaq və onu həyatımıza yeni nəfəs gətirən xəlqi dəyərlərimizə təməl tökməyin tərəfdarıyıq. Elə dəyərlərimiz var ki, ona bizim varlığımızın üzvi hissəsidir və bizim ilk xalq olaraq əbədiyyətə gedən keyfiyyətimizdir. Belə dəyərlərimizdən biri öz ali qədimliyi və əbədiliyi baxımından bəşəri ucalıqda bərqərar olan sazdır. Konkret olaraq çağdaş həyatımızda onun yaşamasına ləyaqətlə xidmət edən alim, ziyalı

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Hüseyn İsmayılov sevgisi, işığı düşür keçmişimizə. Hər kəs elə yaşamalıdır ki, bu ömürdən bayram etməyə məqamlar olsun. Ayrı-ayrı məqamlar deyil, ömrün bütövlüyu bayram ediləcək səviyyədən ibarət olanda şəxsiyyət yaranır və bu şəxsiyyət xalqı təmsil edir. Bu baxımdan həyat yolu uğurlu, bənzərsiz dəyəri olan, həm elmi, həm də mədəni xidməti Hüseyn İsmayılov mənliyini bizlərə təqdim edir. Qədim çin filosofu Konfusinin müdrik bir kəlamı var. Deyir, heç nə bu dünyada nə vaxtından tez, nə də gec gəlmir. Nə gəlirsə, elə öz vaxtında, öz vədəsində gəlir!» Mən Hüseyn İsmayılov haqqında birmənalı olaraq söz desəm, böyük filosofun müdrik kəlamına istinadən cavab verərdim. Milli dəyərlərimizin, adət-ənənələrimizin, sazımızın, sözümüzün sıxıldığı, pərakəndəliyə məruz qaldığı bir dövrdə Hüseyn İsmayılovun apardığı mübarizə öz məntiqi nəticəsini verdi. Folkor İnstitutunun elm ocağı kimi gördüyü işləri – şifahi xalq yaradıcılığının kitab halında gələcək nəsillərə ötürülməsini təmin etdi.

Yüz il bizdən sonra gələn nəvələr
Gəlmişik-getmişik nə biləcəklər.
Bizlərdən yadigar qalmasa bir şey,
Biz nələr etmişik nə biləcəklər.

Bu bəndin üçüncü misrasında deyildiyi kimi, «Bizlərdən yadigar qalmasa bir şey». Bəli özündən sonra iz qoymaq, yol açmaq, elmdə sözünü demək və cəmiyyətin qəbul etdiyi ziyalıya çevirilmək qisməti Hüseyn İsmayılovun taleyinə yazılmışdır. Hüseyn İsmayılovun elmi keçmişlə, bu günlə gələcəyə körpü rolunu oynayacaq səviyyədə özünü təsdiqləmişdi. O, çox kövrək insandır! Deməli, hiss edir, duyur, yaşayır, yaradır, ağlayır, ağladır. Bu sözlər musiqiçilər arasında daha çox işlədilir. Ötən günlərdən bir xatirə: 2002-ci il 20-26 may Türkiyə səfəri. Naxçıvandan Silifke şəhərinə avtobusla yol gedirik. Araz çayı boyunca yollar gah onu düşündürür, gah əsəbi halda itirilən torpaqlardan danışır; birdən, a Nemət, sazını

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

çıxart çal, deyir. Mən sazı götürər-götürməz «Göyçəgülün»dən başla kəlməsini eşidirəm.

Sazın sədaları altında Hüseyn İsmayılov fikrə gedir, mən bu kövrək məqamı çox həssaslıqla müşahidə edirəm. Billərəkdən havanı dəyişmirəm, 1 saata yaxın «Göyçəgülü» ifa edirəm. Bu məqamda Hüseyn İsmayılovun göz yaşlarını görürəm. Bu o məqam idi ki, Hüseyn İsmayılov Tanrı dərgahına qovuşmuşdur. Harda olduğunu yalnız özü bilirdi. Birdən pıçıltılı bir səslə zümzümə etməsini və təəssüflə «heyif o torpaqlardan, heç yer oranı əvəz edə bilməz» deməsini eşidirəm.

Hər saz çalınanda eksztaz vəziyyətinə gəlmək Tanrı dərgahına qovuşmaq onun bir insan kimi saflığının, paklığının, müdrikliyinin və ucalıqlarda olmasının əyani təzahürüdür. Bu mənzərə sanki, ona gələcəkdə Göyçə haqqında daha dəyərli kitabların yazılmasına stimul verəcək. Biz inanırıq ki, yaxın zamanlarda Göyçəmizə, Zəngəzurumuza, Qarabağımıza, Təbrizimizə və itirilən torpaqlarımıza qayıdacağıq. Hüseyn İsmayılovun 60 yaşını öz doğma kəndi Ağbulaqda keçirəcəyik və mən orda «Göyçəgülü»nü yenidən ifa edəcəyəm. Bu istəklə, bu arzuyla Allahdan Sizə uzun ömür, sağlam can diləyirəm. Amin!

Bu xoş gündə, xoş saatda, xoş anda,
Yarın, dostun, övladların yanında,
Arzu qanad açır duyğularında,
Səmimidir saf sözlərlə bu ürək,
Hüseyn müəllim, 55 yaşın mübarək.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

*Elçin QALİBOĞLU*

## FOLKLORDA GERÇƏKLƏŞƏN RUH YOLÇULUĞU

Mənim tanıdığım Hüseyn İsmayılov fitri türksevərdir, insansevərdir, yurdsevərdir. Onun fitrətində daşıdığı türk ruhuna bağlılığı türksevərlik, insansevərlik, yurdsevərlik yönümü yaradıb. Əslində onun fitri folklorçuluğunun təməli bu cəhətlərin birliyindəndir.

Aqibət hər kəsdə bir cür yaşanır. Hər kəsin insanilik imkanı var və bu imkana yetmək, insanilik haqqını təsdiq etmək insandan hünər istəyir.

Türksevərlik – türk ruhuna fitri sevgidir. Türk ruhuna yetib qərarlaşmaq həqiqət yolçuluğuna düşəndən sədaqət tələb edir. Əslində səadət, sədaqət, ləyaqət – üçü bir anlamı ifadə edir. Türk ruhuna bağlılıq, milli vüqarı təsdiq bəşəriliyi yaşatmaq olur əslində.

Bu gün dünyanın özündən ayrıldığı, ruhsuzlaşdığı bir məqamda türk ruhu dünyaya hava-su kimi gərəklidir. Dünya qlobalçılıq həşirinə qapıldığı, qatıldığı dərəcədə özündən ayrılır, xalqları milli özümlüyündən qərib salır.

Folklor xalqın ilkin ruhundan yetkin soraqlandır. Folklorda xalqın milli dəyərlərinin bənzərsiz, dərin ruhlu, bədii, möcüzələri ifadəsi yaşayır.

Milli dəyərlər-millətin mənəvi, əxlaqi, idraki və bədii səviyyəsinin ifadəsi olub, xalq həyatının, mədəniyyətinin, incəsənətinin, ümumiyyətlə, həyatının bütün sahələri haqqında sistemli fikirlərin məcmuyu, həmin fikirlərin ali mahiyyətidir. Azərbaycan folklorunun toplanılması, tədqiqi, həmçinin bu soraqların türk dünyasına çatdırılması Hüseyn İsmayılovun türksevərliyindən irəli gəlir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Azərbaycan folklorunda işıqçılıq, fərəhçilik, ağsaqqallıq, ülvilik və sair cəhətlərin milli dəyərlər səviyyəsində yaşantısı, təsdiqi var. Bu gün folklorumuz ruhsuz ermənini yenmək üçün ən təsirli, mənəvi silahlardan biridir. Erməni hara dartınır-dartınsın, onun sabahı yoxdur. Ruhun gözüylə görmək olur ki, özündən ayrılan həşirli dünya türk ruhuna yeniləcək.

Dünya türk insançılığına təşnədir – bunu etiraf etsə də, etməsə də.

Bu gün türk çox dəyərlərini itirib: milli-mənəvi dəyərlərinə yiyəlik duyğusunu, əlifbasını, dünyabaxışını...

Türk insançılığı aqibətinə doğru yol gedən H.İsmayılova xəlqi dəyərlərimizin yaşadılması yönündə uğurlar arzulayıram.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Zümrüd İBRAHİMQIZI*

## XEYİRXAHLIĞI KƏLMƏLƏRƏ SIĞMAYAN ŞƏXSİYYƏT ÖMRÜ

Elinə, obasına bağlı olan, xalqın milli yadaşında yaşayan folklor örnəklərimizin ən böyük qoruyucusuna çevrilən bir insan tanıyıram bu dünyada... Kimdir O? – deyə sual edə bilərsiniz. Bü şəxs hər kəlməsində xalq deyib, xalq eşidən, haqq-ədalət carçısı, xeyirxahlıq mücəssəməsi olan Hüseyn İsmayılovdur. Elmə, folklora böyük marağı olan gənc kadrlara yüksək dəyər verməyi, hər zaman doğrunun tərəfində durmağı, doğrusu, içində ona olan hörmət hissini daha da zirvələrə qaldırır.

Sizdən bir deyil, min olsaydı, elimizin milli-mənəvi dəyərlərini düşmənlərimiz belə asanlıqla mənimsəməzdi. Kaş ki, Sizlər bu dünyaya gəlişinizlə əbədi bir ömrə sahib ola bilsəydiniz, folklorumuz da heç vaxt talan olmazdı.

Zaman Sizin kimi qeyrətli, xeyirxah və cəfakeş şəxsiyyətləri çox az-az hallarda gətirir dünyaya. Budur ömrünüzün 55 ilinə qədəm qoydunuz. Gün o gün olsun ki, 100 ilinə belə gümrah, dərdsiz, kədərsiz qədəm qoyasınız. Odur ki, özünüzü pis gözlərdən, yaman nəfislərdən qoruyun ki, Allah da Sizi qorusun.

***29.04.2008.***

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Səməd VƏKİLOV*

## SƏMİMİYYƏT TİMSALI

Hüseyn müəllim yaxşılıq etməyi sevən, ondan zövq alan insandır. Onun əvəzində dostlarından təmənnası dostluğa sədaqətdir. El-obasını sonsuz məhəbbət və coşğu ilə sevməsi fonunda yerliçilik hissindən uzaq, yerlilərinə patoloji təəsübkeşlik hissləri aşılamaqdan kənar olan bir şəxsiyyətdir. Onun bu özünəxas cəhətləri onun dostları və bədxahları tərəfindən etiraf olunmaya bilmir.

O, sözün gerçək mənasında öz taleyini Azərbaycan folkloruna bağlamış bir insandır. Folklor onun üçün tükənməz enerji mənbəyidir. Azərbaycan folklorunu sözün gerçək mənasında Hüseyn İsmayılovsuz təsəvvür etmək mümkün deyil. Azərbaycan folkloruna böyük qatqısı olan Folklor İnstitutu isə onun öz doğma balasıdır.

Hüseyn müəllim qısa vaxt ərzində bütün türk dünyasını əhatə edən elə irimiqyaslı folklor layihələrini gerçəkləşdirdi ki, çoxları buna xəyal kimi baxırdı.

Allah qatında alimlik məqamı çox yüksəkdir. Məhəmməd Peyğəmbər (s) alimin qələminin mürəkkəbini şəhid qanına bərabər tutmuşdur. Ancaq çoxları bunu dünyəvi titullarla ölçərək, elə başa düşür ki, elmlər doktoru, professor, akademik elmi dərəcəsi onların alimlik məqamına ucalmasının göstəricisidir.

İslam ehkamları isə alimləri daha çox sifətləri ilə tanıyır. Yəni heç bir dünyəvi titulu olmayan elm adamı alim ola bilər. Bunun üçün onda Allahın buyurduğu alimlik sifətləri olmalıdır. Uca Allah öz müqqədəs kitabında buyurur: **«Həqiqətən Allahın bəndələri arasında alimlər Allahdan qorxanlardır»** (Qurani-Kərim, Fatır surəsi, 28-ci ayə). Alimin Allahdan qorxması onu pis əməllərdən çə-

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

kindirən haqqı batildən ayırmağa sövq edən əsas meyardır. **Allah qatında Alimə yaraşmayan ən naqis sifət isə riyadır**. Məhəmməd Peyğəmbər (s) öz hədislərində alimin riyasından qorxmağı tövsiyyə etmişdir.

Riyadan uzaq, Allahdan qorxan Hüseyn müəllimdə məhz Allahın təqdis etdiyi belə alimlik sifətləri vardır. Hüseyn müəllimi başqalarından fərqləndirən əsas keyfiyyətlərdən biri də, onun səxavətli insan olması, öz imkanlarını dost-tanışı üçün əsirgəmə-məsidir. Rəsuli-Əkrəm (s) buyurur: **«Allah dostları xilqətdə (yaranışdan) səxavətli olurlar».**

Hüseyn müəllimin həssaslığı etimad göstərdiyi insanlardan nankorluq göründə daha çox üzə çıxır, belə məqamları o ürəkağrısı ilə qarşılayır.

Peyğəmbərlərimiz istisna olmaqla, Allah qatında heç bir insan günahsız, qüsursuz deyil. **Uca Allah öz müqəddəs kitabında buyurur ki, mən əgər insanları günahlarına görə öldürsəydim, onda yer üzündə sağ insan qalmazdı.**

Möminlik sifətləri isə pis əməllərdən peşmanlıq keçirən, yaxşı əməllərdən isə zövq alan insanlardır. Hüseyn müəllim alimlik və möminlik sifətini özündə birləşdirən bir şəxsiyyətdir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Hikmət QULİYEV,*
*Səfa QARAYEV.*
*BDU-nun magistrantları*

# ALİM VƏ ZAMAN

Bəşəriyyətin mövcudluğunun bütün dövrlərində insanlar Allahın bəxş etdiyi müxtəlif qeyri-adi hadisələrə təəccüb və heyrətlə yanaşmışlar. Əslində, bu qeyri-adiliklər mövcudatın əşrəfi hesab olunan insan varlığının İlahi təyinatı – alın yazısıdır. Bu qeyri-adiliklər içərisində ən mühümü Allahın bəşər övladına verdiyi şüur, düşüncə tərzidir. Yaşadığı mövcud həyatın bir gün sona yetəcəyini bilməsinə baxmayaraq, o, ruhdan düşmür, mübarizə aparır və hər keçən bir günün onun ömründən getdiyinə məhəl belə qoymur. Görəsən, bu insanların həddindən artıq yüksək şüura sahib olması, yoxsa Allahın verdiyi ömrü yaşamaq məcburiyyətidir? Bu problem ətrafında geniş, hətta, sonsuz müzakirələr aparmaq mümkündür. Lakin bir məsələ aksioma kimi qəbul olunur ki, hər bir İNSAN yaşadığı ömrü şərəflə yaşamağa, özündən sonra mütərəqqi ideallara xidmət edəcək izlər qoymağa daim can atır. Bu yolda fiziki, mənəvi, əqli imkanlarını sona qədər sərf etməyi tam normal qarşılayır. Bəli, ruh insan bədənində hakim olduğu kimi, əql, kamillik də cəmiyyətdə həmişə üstün mövqeyə malik olmuş və idarəçiliyini öz əllərində saxlamışdır. Bu əqlə, bu kamilliyə hər kəs layiq görülə bilməz. Yalnız o şəxslərə bu nəsib olur ki, necə desək, helmi və elmi vəhdət halında təmərküz edib, cəm halında özündə ifadə etdirə bilir. Belə insanlara həyatda çox nadir hallarda rast gəlmək olar. Bu möhtəşəm cərgəyə daxil olan mütəfəkkir şəxslərdən biri də Hüseyn Ələsgər oğlu İsmayılovdur. Bu unversal keyfiyyətlərə malik insan Allahın ona verdiyi alın yazısına uyğun olaraq bütün

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

varlığı ilə xalqın milli kimliyini, onun varlığını, həyat fəlsəfəsini təyin edən folklor sahəsində çarpışmaqdadır. Bu insanın bioqrafiyasına nəzər saldıqda aydın olur ki, çalışdığı bütün vəzifələrdə daima gələcəyə nikbin baxış onu tərk etməmiş və günü-gündən alovlanaraq, nəhayət, bu gün tanıdığımız Hüseyn İsmayılov şəxsiyyətini formalaşdırmışdır. Məlum olduğu kimi, Azərbaycan müstəqillik qazandıqdan sonra öz daxili və xarici siyasətində yeni kurs götürdü. Bu kursun mahiyyətini daxildə milliləşmək, xaricdə isə qloballaşan dünya çapında Azərbaycanın yerini müəyyənləşdirmək təşkil edirdi. Ümummilli liderimiz Heydər Əliyev ömrünün bütün dövrlərində bu siyasətin nəzəri aspektlərini hazırlamaqla yanaşı, konkret tədbirləri də həyata keçirtmişdir. Təkcə «Kitabi-Dədə Qorqud»un 1300 illik yubileyinin keçirilməsi ilə bağlı imzaladığı sərəncamı və AMEA Folklor İnstitutunun müstəqil bir tədqiqat ocağı kimi fəaliyyət göstərməsi sarıdan fundamental işləri qeyd etmək kifayətdir. Məhz bu müəyyənləşdirilmiş uzaqgörən milli strategiyanın real nəticəsi kimi ortaya çıxan AMEA-nın Folklor İnstitutu Hüseyn İsmayılovun rəhbərliyi altında bu istiqamətdə inamla addımlamaqdadır. Bu şəxsin fəaliiyyət çevrəsinə məşğul olduğu sahənin bütün istiqamətləri daxildir. Onun fəaliyyət sahəsinə bir neçə istiqamət daxildir:

Toplayıcılıq fəaliyyəti;

Tədqiqatçılıq fəaliyyəti;

Təşkilatçılıq fəaliyyəti;

Tədris fəaliyyəti:

Bu fəaliyyətlərin hamısının fövqündə bir ideal dayanır: xalqın milli-mənəvi dəyərlərini qorumaq, onun milli kimliyindən uzaq düşməsinə imkan verməmək. Hüseyn İsmayılovun şəxsiyyəti, gördüyü işlər, həyata keçirdiyi tədbirlər haqqında istənilən qədər danışmaq olar. Lakin biz bu yazımızda Hüseyn İsmayılov şəxsiyyə-

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

tinin cəmiyyətdə yaratdığı assosiasiyanı təqdim etməyi daha məqsədə uyğun hesab edirik. Çünki hər hansı bir şəxs haqqında ətrafında olan insanların düşüncələri daha obyektiv və hərtərəfli olur.

Hüseyn İsmayilovun təşkilatçılıq fəaliyyəti akedimiyanın rəhbərliyi tərəfindən yüksək qiymətləndirilir. **Akademik Arif Həşimov** onun fəaliyyətini İnstitutun gördüyü işlər kontekstində belə dəyərləndirdi: «Mən Folklor İnstitutunun son dövrdə gördüyü, həyata keçirdiyi tədbirlərin bəzilərinin şahidi və iştirakçısı olmuşam. Xüsusilə «Ortaq Türk keçmişindən Ortaq Türk gələcəyinə» uluslararası folklor konfransı institut haqqında, onun rəhbərliyi haqqında məndə xoş təssüratlar buraxdı. Bu tədbir hal-hazırkı zamanda regionda mühüm strateji mövqeyə malik olan Azərbaycanın eyni kökdən olan türk xalqları ilə bütün səviyyələrdəki qarşılıqlı münasibətinin mədəni sferasını təşkil edir. Bu kimi tədbirlərin həyata keçirilməsi türk xalqları üçün çox vacibdir. Mən Folkor İnstitutunun və onun direktoru Hüseyn İsmayılovun bu tipli fəaliyyətini çox yüksək dəyərləndirir və onu ad günü munasibəti ilə təbrik edir, ona gələcək işlərində uğurlar diləyirəm».

«Zər qədrini zərgər bilər» atalar sözünü nəzərə alsaq, onda uzun illər folklor sahəsində fəaliyyət göstərmiş, professional folklorşünas, AMEA-nın müxbir üzvü, **professor Azad Nəbiyevin** Hüseyn İsmayılov haqqında fikirlərinin nə dərəcədə əhəmiyyətli olduğunu təsəvvür etmək olar: Hüseyn İsmayılov uzun müddətdir ki, Azərbaycan ədəbiyyatşünaslığında, Azərbaycan ədəbi tənqidində imzası, adı, yeri olan araşdırıcılardan biridir. Son onillikdə onun folklorşünaslıqdakı fəaliyyəti təqdirəlayiqdir. Bu müddətdə Hüseyn İsmayılov Göyçə aşıq məktədi, Azərbaycan aşıq şeirinin bir sıra aktual problemləri ilə bağlı dəyərli monoqrafiyaların, məqalələrin müəllifi olmuşdur. Hüseyn İsmayılov Göyçə aşıq məktəbi, Azərbaycan aşıq şeirinin bir sıra aktual

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

problemləri ilə bağlı dəyərli monoqrafiyaların, məqalələrin müəllifi olmuşdur. Hüseyn İsmayılov hələ Azərbaycan hüdudundan kənarda işləyərkən, ali məktəblərdə dərs verərkən Azərbaycan folklorunun əsas nəzəri, praktik məsələlərini diqqətdə saxlayan, yeri gəldikcə Azərbaycan aşıq şeiri üçün yeni olan bir sıra məqalələrin, əsərlərin müəllifi kimi də tanınırdı. Onun xüsusilə Göyçə aşıq məktəbi, bu məktəbin tarixi, yaranması, ayrı-ayrı simaları barədəki fikirləri bu gün Azərbaycan aşıq yaradıcılığının nəzəri problemləri içərisində ən yaxşı tədqiqatlardandır. Hüseyn İsmayılov Aşıq Ələsgər və eləcə də Aşıq Ələsgər ocağı nümayəndələrinin yeni şeirlərini toplayıb, nəşr etdirib və beləliklə, Azərbaycan aşıq şeirini yeni toplama materialları ilə zənginləşdirməklə Göyçə aşıq məktəbinin yaranma tarixinə, onun nümayəndələrinə yeni baxış nümayiş etdirmişdir.

Hüseyn İsmayılov eyni zamanda yaxşı bir təşkilatçıdır. Folklor elminin təşkilatçısıdır. Bilavasitə onun təşəbbüsü ilə Folklor İnstitutunun Ədəbiyyat İnstitutundan ayrılaraq fəaliyyətə başlaması Azərbaycan xalqının elmi həyatında mühüm hadisələrdən biridir. Çox uzun illərdən bəri Folklor İnstitutunu yaratmaq, ayrıca folklor tədqiqatlarını vahid bir mərkəzdə birləşdirmək, güclü folklor ekspedisiyaları təşkil etmək üçün təkliflər, təşəbbüslər mövcud olmuşdur. Lakin onları həyata keçirən, reallaşdıran Hüseyn İsmayılov oldu. O Folklor İnstitutunu yaratdı, onun strukturunu formalışdırdı, bu instituta direktor seçildikdən sonra folklorşünaslığa təkan verən təşkilati tədbirlər keçirtdi. O, Azərbaycan folklorunun, xüsusilə Güney Azərbaycanda yaşayan soydaşlarımızın folklorunun Azərbaycana gətirilməsi, folklor arxivinə daxili üçün əlindən gələni etdi. O həmçinin ixtisaslaşdırılmış folklor üzrə namizədlik və doktorluq dissertasiyası şurasını aldı, folklorun kordinasiyası sahəsində müəyyən təşkilati tədbirləri həyata kesirtdi. O eyni zamanda

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Azərbaycan folkloru nəzəri məsələlərinin öyrənilməsi sahəsində özünə qədər görülmüş işləri davam etdirdi. «Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər», «Dədə Qorqud», «Elmi axtarışlar» və başqa nəşrlərlə folklor nəzəri fikrinin inkişafına təkan verdi. Eyni zamanda o, çoxcildlik Azərbaycan folklorunun nəşri işinin başlanılmasına nail oldu. Son illərdə Hüseyn İsmayılovun başçılıq etdiyi Folklor İnstitutu Azərbaycan folklorunun türk folkloru kontekstində öyrənilməsində, xüsusilə «Ortaq Türk keçmişindən, ortaq Türk gələcəyinə» uluslararası folklor konfransının davamlı olaraq keçirilməsi Azərbaycan folklorunun gələcək öyrənilmə perspektivlərini müəyyən etmək baxımından əhəmiyyətlidir. Bu gün Hüseyn İsmayılov səmimi yoldaş, dost kimi həmin İnstitutda folklorşünasların bir yerə cəmlənməsində, Azərbaycan folklorunun müxtəlif istiqamətlərdə öyrənilməsində, gənc folklorşünasların yetişməsində əlindən gələn köməyi göstərir. **Hüseyn hələ çox cavandır, 55 yaş nədir ki?** Onu mən ad günü münasibəti ilə təbrik edir və folklorşünaslığımızın gələcək inkişafında ondan yeni-yeni uğurlar gözləyirəm. Mən inanıram ki, Azərbaycan folklorunun dünya dillərinə tərcüməsi, milli- mənəvi dəyərlərin qlobal dünyaya çatdırılmasında o hələ bundan sonra da ciddi işlər görəcəkdir.

Hüseyn İsmayılov haqqında neçə-neçə məqalənin, ayrıca bir monaqrafiyanın müəllifi olan f.e.n. Seyfəddin Rzasoyun bu şəxs barədə fikirləri daha dolğun olardı: «Hüseyn Ələsgər oğlu İsmayılov haqqında danışmaq müəyyən mənada çətindir. Ona görə ki, Hüseyn İsmayılov həyatı, fəaliyyəti, şəxsiyyəti bir əsrə, bir dövrə, bir epoxaya sığışan insan, alim, şəxsiyyət deyildir. Azərbaycan tarixində elə şəxsiyyətlər olmuşdur ki, onların fəaliyyəti bütün hallarda epoxal xarakter daşımışdır. Hüseyn İsmayılov belələrindəndir. Azərbaycanın müstəqillik dönəminə daxil olduğu bir dönəmdə Azərbaycan elmi də müəyyən bir tənəzzül keçirtdi.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Yeni müstəqillik dövrünə uyğunlaşma və bundan sonra inkişaf bizə çox ağır başa gəldi. Azərbaycan humanitar filololji fikri Hüseyn İsmayılovun simasında nəinki bu dövrün ağırlıqlarını yaşadı, bütövlükdə bu dövrdən qələbə ilə çıxdı və Azərbaycan tarixi Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunun simasında böyük bir qələbə əldə etdi. Milli-mənəvi dəyərlərin öyrənilməsi müstəqillik dönəmində son dərəcə vacib bir məsələdir. Dünyaya inteqrasiya mərhələsində bizim varlığımızın qorunması milli-mənəvi dəyərləri necə öyrənməyimizdən və bu dəyərlərdə mövcud olan yaşam formullarının müasir həyatımıza necə tətbiq olunmasından asılıdır. Bax, bu mənada Folklor İnstitutunun rolu həddindən artıq müstəsnadır. Hüseyn İsmayılov Azərbaycan xalqına, Azərbaycan mənəviyyatına, Azərbaycan tarixinə Milli Elmlər Akademiyasının Folklor İnstitutu adlı böyük bir məbəd bəxş etdi. Hüseyn müəllimə mən nə arzu edirəm? Can sağlığı. Onun yaşaması və fəaliyyət göstərməsi təkcə onun özünə, ailəsinə, doğmalarına yox, Azərbaycan elminə lazımdır. Azərbaycan elmində Hüseyn İsmayılov artıq akkumuliyasıya rolunu oynayır. O, özünəqədərki mərhələnin müsbət xüsusiyyətlərini özünə akkumuliyasiya etmiş və indi də Azərbaycan elm tarixinin bütün enerjisini Azərbaycanın gələcəyinə transformasiya etməkdədir. Bu mənada onsuz Azərbaycan elmi özünün enerji qaynağından məhrum olar. Mən ona yalnız böyük Allahdan can sağlığı diləyirəm».

Doğurdan da, insanı yoldaşı və dostundan daha yaxşı tanımaq çətin məsələdir. Hüseyn müəllimlə uzun illər bir sahədə çalışan **f.e.n. Ağaverdi Xəlil** onun haqqında duyğu və düşüncələrini belə dilə gətirdi: «Mən Hüseyn müəllim haqqında danışarkən ilk növbədə onu **bir insan kimi** xarakterizə etmək istərdim. O, son dərəcə səmimi bir insandır. Onun insani keyfiyyətlərindən ən üstünü cəsarətliliyidir. Yəni onda həmişə cəsarət var və bu cəhət

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

onu heç bir halda tərk etmir. Həmçinin Hüseyn müəllim mərd insandır. O, sözünün ağasıdır. O, dostlarına qarşı həddindən artıq sədaqətlidir. Yəni, çox sadiq bir insandır. İşə münasibətdə çox ciddi və məsuliyyətlidir. **İkincisi, bir təşkilat rəhbəri kimi.** Rəhbər kimi bu şəxs təşkilatçı bir adamdı. Hər hansısa bir qrupu təşkil etməyi yüksək səviyyədə bacarır. Onda rəhbərə, liderə məxsus xüsusiyyətlər var. İri bir kollektivi təşkil edir, idarə edir və yönəldir. Konstruktivlik, ünsiyyətcillik, insanlarla düzgün münasibət qurmaq kimi keyfiyyətlər onu rəhbər kimi xarakterizə edən əlamətlərdir. **Üçüncüsü, bir ziyalı kimi.** Ziyalı sadəcə alim demək deyil. Ziyalı hər şeydən öncə xalq üçün, millət üçün, insanlıq üçün çalışan və öz intellektini sərf edən insan deməkdir. Bu mənada Hüseyn müəllim çox gözəl bir ziyalıdır. Ölkənin, millətin, xalqın həyatında fəal iştirak edən bir ziyalıdır. O, kütləvi informasiya vasitələrində çox aktiv şəkildə çıxış edir, respublikamızın müxtəlif tədris müəssisələrində mühazirələr oxuyur. Bu gün bunlar bir qayda olaraq ilk növbədə milli-mənəvi dəyərlərin təbliğinə yönəlir.

Məlumdur ki, Hüseyn müəllim ölkənin elmi həyatında ciddi iştirak edir və bu onun alimlik fəaliyyəti ilə bağlıdır. Hüseyn müəllim çoxlu sayda elmi əsərlərin, monoqrafiyaların müəllifidir. Bu monaqrafiyalar xalq yaradıcılığının müxtəlif aktual problemlərinin həllinə yönəlmişdir. Onun elmi fəaliyyəti içərisində bir neçə konsepsiyalar vardır. Bunların içərisində, xüsusilə, uzun illərdən bəri öz həllini gözləyən aşıq sənəti və yaradıcılığı haqqında olan konsepsiyanı mən qeyd etmək istərdim. Bu konsepsiya ilə ilk dəfə olaraq aşığın **genezisi**, **mənşəyi,** inkişafı və inkişaf mərhələləri, ümumiyyətlə, bu sənətin gerçək mahiyyəti ortaya çıxarıldı. Hüseyn İsmayılov bir konsepsiyanın içində aşığı öyrənə-öyrənə mədəniyyətin elə məsələlərinə toxunur ki, bununla da mədəniyyətin onurğa sütununu kəşf edir. Bundan

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

əlavə o, folklorun regional xüsusiyyəti haqqında xüsusi konsepsiyanın da müəllifidir. Əslində, folklorun regional öyrənilməsi problemi Hüseyn İsmayılovdan başlandı. Hüseyn müəllim yaradıcı bir alim olmaqla, həm də yaradıcı bir təşkilata rəhbərlik edir, elmi ictimaiyyəti yönəldir. Mən sonda Hüseyn müəllimi ən səmimi duyğularla təbrik edirəm. Ona həm şəxsi, həm də elmi yaradıcılıqda, ictimai həyatda ən böyük uğurlar arzu edirəm».

AMEA-nın elmi katibi, **f.e.n. Sərxan Xavəri** Hüseyn İsmayılov haqqında dedi: «Hüseyn İsmayılov son dərəcə unikal bir şəxsiyyətdir. Mən bu şəxsdə idarəçilik və intellektuallığın, vəhdət halında çulğalaşdığını bütün məsuliyyətimlə bildirirəm. Hüseyn müəllim öz intellektual səviyyəsi baxımından bizi heyran etmiş, özünəməxsus fəaliyyət ritmi cəhətdən isə həmişə bir nümunə olmuşdur. Mənim üçün bu şəxsiyyət haqqında danışmaq şərəfli və eyni zamanda çətindir. Çünki onun bu yüksək intellektual bazaya əsaslanan çoxşaxəliliyi neçə-neçə kitabların təhlil mövzusudur. Mən ona Uca Allahdan can sağlığı və heç zaman bitib-tükənməyən həyat eşqi diləyirəm».

Hüseyn İsmayılov yaradıcılığını çox böyük həvəslə izləyən və bunlardan zövq alan səmimi insan **f.e.n. Ramil Əliyev** onun haqqında danışarkən fikirlərini nikbin notlar üzərində bərqərar edərək onu belə qiymətləndirdi: «Bu dünya yaxşı kişilərin adı üzərində dayanır. Belə insanlardan biri də filologiya elmləri doktoru Hüseyn İsmayılovdur. Yaxşı insanlar bu dünyada çiyinlərinə özlərindən ağır yük götürürlər, həmişə yaxşı ad qazanırlar. Belə adamlar üçün yaş heç nədir, görəcəyi işlər əsasdır. Hüseyn müəllim də yaş üçün yaşamır, yaşayır ki, daha çox işlər görsün. O, gördüyü işlərlə yaşayır. Hüseyn müəllim millət üçün yanmasa yaşaya bilmir. Onun üçün 55 yaş heç nədir, hələ neçə «55» də xalq üçün çalışacaq. Azərbaycan folklorunun nəşrini 100 cildə çatdıracaq. Azərbaycan miflərini, əfsanələrini, rəvayətlərini necə-

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

necə cildlərə çevirəcək... O, Şah Xətai kimi əlində qılınc folklorun keşiyində duracaq. Mürşidlərindən dərs alan kamil ardıcıllar yetişdirəcək.

55 yaş da bir ömürdür, kamilləşməyə bəs edir. Yaşının üstünə bir «55» də gəlsin, qardaşım. İşləməkdən yorulmayasan! Təqaüdə çaxmaq xəyalınıza da gəlməsin».

Dünyagörmüş ağsaqqalların xeyir-duasına, məsləhətlərinə hər birimizin böyük ehtiyacı vardır. Sazı sinəsinə sipər edən, Sözü dilinə gövhər edən **Aşıq Mahmud Hüseyn İsmayılov** ruhuna yaxın bir şəxs kimi duyğularını belə ifadə etdi: «Bəli, ömür ki mənalı olur, o insan həyatda xöşbəxt olur. Onun gördüyü işlər xalqına, elinə, obasına yararlı olur. Hüseyn müəllimin bu işdə əvəzolunmaz əməkləri var. Xalqın folklorunu bu dərəcədə sevmək, klassikləri, böyük sənətkarları, dastanları kitaba dərc etmək, onları yaşatmaq Hüseyn müəllimin həmişə arzusu, istəyi olubdur. Ona görə də, «55» də insanın arzusu, diləkləri üçün az yaşdır. Nə yaşdı ki? İnsanın arzularına görə yüz yaş da hələ azdır. Mən Allahdan arzu edirəm ki, Hüseyn müəllim ürəyi istədiyi qədər yaşasın və yaşadığı müddətdə yaradıcılığından qalmasın».

**Elçin Qaliboğlu** Hüseyn İsmayılov haqqında maraqlı və orijinal fikir söylədi: «Mənim tanıdığım Hüseyn İsmayılov fitri yurdçudur, millətsevəndir, Azərbaycansevəndir. Folklor İnstitutunun araya-ərsəyə gəlməsi, çoxsaylı uğurlara çatması onun ruhsal baxışa yiyəlik duyğusu səviyyəsinə yetməsinin ifadəsidir. Bu yiyəlik duyğu, milli təəssübkeşlik onun yaradıcılığında da tam ifadəsini tapıb».

Biz də öz növbəmizdə cəmiyyətin daima böyük ehtiyacı olduğu və belə yüksək dəyərlə qiymətləndirdiyi şəxsiyyətə uzun ömür, can sağlığı və yaradıcılıq diləyirik.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*ƏLİYEVA Sevinc Kərim qızı*
*BDU-nun filologiya fakültəsi, magistr tələbəsi*

## ZİRVƏLƏRƏ APARAN YOL

Hər bir bəşər övladının həyatında və taleyində illərin sayı ilə ölçülən və adına «ömür» deyilən bir yol var. İnsan var ömür yolu o qədər parlaq və şərəfli olur ki, onunla tanış olduqca, ömür yolunu səyahət etdikcə heyrətlənməyə bilmirsən. Belə şəxsiyyətlərdən biri də çox şərəfli ömür yolu olan, folklorşünas, filologiya elmləri doktoru, professor Hüseyn İsmayılovdur. Hüseyn İsmayılovun elmi xidmətləri, fədakarlığı, işgüzarlığı xalqımızın keçmişini, bu gününü və gələcəyini əks etdirən güzgüyə bənzəyir. Bu güzgüdə Azərbaycan xalqının hissi, düşüncəsi, sazı, sözü, folklor həyatı müəyyən ölçüdə öz əksini tapır. Folklor isə bizim ən kamil tariximizdir, dünənimiz, bu günümüz, sabahımızdır. Folklorumuzun qorunması, inkişafı, zənginliyi mənəviyyatımızın zənginliyini, səviyyəsini göstərir.

Hüseyn İsmayılovun öz ömrünü xalq yaradıcılığına, folklora bağlaması çox təbiidir. Çünki o, qəlbən, daxilən, fikrən xalqına, ədəbiyyatına, ulu keçmişinə, yurduna, sazına, sözünə bağlı bir insandır. Onun adı öz xalqının, tanışlarının, yaxınlarının, bir sözlə, onu tanıyanlarınRdilində yalnız öz elmi, biliyi, işgüzarlığı ilə deyil, həm də mənliyi, ləyaqəti, sadəliyi, təvazökarlığı ilə səslənir. Hüseyn İsmayılovun folklora söykənən elmi xidmətləri yalnız qabiliyyətdən, sənətə bağlılıqdan deyil, həm də zərurətdən, istəkdən, sevgidən yaranır.

Hüseyn İsmayılov həyatda elmi fəaliyyəti, elmi işlərindən öncə öz mənliyi, ləyaqəti ilə ucalıb. Bu məqamda dahi şəxsiyyətimiz Heydər Əliyevin müdrik bir fikri yada düşür: «Həyatın əsas mənası

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

cəmiyyətdə öz yerini tutmaq, mövqeyini müəyyən etmək, ləyaqət göstərmək və başqaları üçün nümunə olmaqdır».

Hüseyn İsmayılov gənc folklorşünaslar üçün məhz bu keyfiyyətlərinə görə seçilir. Bu gün onun əməyi sayəsində folklor nümunələrinin toplanıb çap olunması bizim üçün bir örnəkdir.

Hüseyn İsmayılov folklorumuzun vüqarı sayılan bir alimdir. Onun zəhməti, yanar ürəyi, saza, sözə bağlılığı, vurğunluğu Azərbaycan Folklor İnstitutunun yaranmasına, inkişafına böyük təkan olub. Hüseyn İsmayılovun elmi fəaliyyəti ilə tanış olanda bir cəhət də diqqətimizi cəlb edir. Onun elmi işləri folklorumuzu mənalandırmaqda, aşıq poeziyasını, sazı, sözü düzgün dərk etməkdə böyük vasitədir. Biz bu xüsusiyyətləri H.İsmayılovun «Azərbaycan folklorunun regional xüsusiyyətləri», «Aşıq yaradıcılığı: mənşəyi və inkişaf mərhələləri»,R«Göyçə aşıqları və el şairləri», «Göyçə aşıq mühiti: təşəkkülü və inkişaf yolları» kimi kitablarında görə bilərik.

Hüseyn İsmayılovun şəxsində bir daha əmin oluruq ki, ancaq vətən ocağının odunda- alovunda, insanlara məhəbbətin işığında isinən adam gördüyü işə bu dərəcədə məsuliyyətli olar. Özünün bütün qabiliyyətini folklorumuzun mürəkkəb və şərəfli bir dövrünün tədqiqinə səfərbər etmək, yaradıcı təfəkkürün bütün imkanlarını seçdiyi peşəyə fəda etmək Hüseyn İsmayılovun həyat idealıdır. Bu ideal ata yurdu, ata ocağı olan Göyçəyə, saza, sözə məhəbbətdən qidalandığı üçün belə əzəmətli, belə munis və doğmadır.

Hüseyn İsmayılov öz mənəvi zənginliyi, ağlı, biliyi, bacarığı, təcrübəsi, özünə qarşı tələbkarlığı, ətrafındakı adamlara həssaslığı və qayğıkeşliyi ilə, deyə bilərik ki, bu gün zirvələrə aparan yolun yolçusudur. Bu yolda ona uğurlar arzulayırıq.

Dədə Ələsgərin ulu torpağı,

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Ellərin müqəddəs nurlu çırağı,
Tarixin hər zaman sirli ocağı,
Adını yaşadır Hüseyn, Göyçə.

Hər kəsə əzizdir doğma ocağı,
Şamaxı – Sabirin isti qucağı,
Gəncə – Nizaminin sirli dayağı,
Göyçə – Hüseynin ölməz sorağı.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*VÜSAL ABİYEV*
*AMEA Folklor İnstitutunun əməkdaşı*

## CƏFAKEŞ FOLKLORŞÜNAS

Allah-təala hər bir insana həyatında unudulmaz anlar bəxş edir, onu xoşbəxtliyin zirvəsinə çatdırır. Çox şükürlər olsun ki, birinci növbədə gözəl insan, qayğıkeş ata, folklorşünas alim, aşıq sənətinin istedadlı tədqiqatçısı olan Hüseyn Ələsgər oğlu İsmayılovun 55 illik yubileyi ilə bağlı öz ürək sözlərimi bildirmək mənə də nəsib oldu. Hüseyn müəllim Ömrünü xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasına, folklorumuzun yaşadılmasına həsr etmişdir. Və bu gün də həmin fəaliyyətini uğurla davam etdirir. Folklorumuz, xüsusilə onun bir qolu olan Azərbaycan aşıq sənəti haqqında dəyərli kitabların müəllifi olan Hüseyn müəllim, Sözün həqiqi mənasında, cəfakeş bir şəxsiyyətdir. Sadə, qəlbitəmiz, mehriban, qayğıkeş bir insan olan Hüseyn müəllim rəhbərlik etdiyi AMEA Folklor İnstitutunun kollektivi arasında dərin hörmət sahibidir. O, institut əməkdaşlarına çox böyük qayğı ilə yanaşır, onların problemlərini yerindəcə həll edir. Gənc aspirant və dissertantların yeTişməsində Hüseyn müəllimin əvəzsiz rolu vardır.

Hüseyn müəllim sanki folklorun qoruyucusudur. İnsan öz doğmalarına necə isti münasibət bəsləyirsə, ona necə qayğı göstərirsə, onu yad nəfəslərdən, pis insanlardan necə mühafizə edirsə, Hüseyn müəllim də folklora o tərzdə yanaşır. O, istirahət günlərində evdə narahat olur. Ürəyi Folklor İnstitutunda qalır.

Hüseyn müəllim böyük təşkilatçılıq qabiliyyətinə malikdir. Hər il mütəmadi olaraq «Ortaq türk keçmişindən ortaq türk gələcəyinə» adlı uluslararası folklor konfransının keçirilməsi, «Kitabi-Dədə Qorqud», «Aşıq Ələsgər» saz-söz bayramlarının

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

təşkili, Novruz bayramının yüksək səviyyədə, təntənə ilə qeyd edilməsi buna bariz nümunədir.

Hüseyn müəllim çıxışlarında dəfələrlə qeyd edir ki, folklor antologiyaları kitablarının sayının yüz cildə çatdırılması nəzərdə tutulmuşdur ki, bu, tezliklə həyata keçiriləcəkdir.

Hüseyn müəllim, mən Sizi folklorumuzun qarantı hesab edirəm. Bunu yalnız damarlarında türk qanı axan, xalqının, millətinin folklorunun, milli-mənəvi dəyərlərinin qorunmasına həssaslıqla yanaşan bir türk oğlu türk edə bilər. Bu da Sizsiniz. Hüseyn müəllim, mən Sizə Yerin-göyün sahibi Uca Allahdan can sağlığı, uzun ömür, xoşbəxtlik arzu edirəm. Qoy Ulu Tanrı folklor adlı mənəvi sərvətimizi Sizə çox görməsin. O gün olsun ki, Sizin 100 illik yubileyinizi qeyd edək.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Ləman KƏRİMOVA*

# DƏYƏRLİ ALİM VƏ QAYĞIKEŞ İNSAN – HÜSEYN İSMAYILOV

Deyirlər alim olmaq asandır, insan olmaq çətin. Amma o, həm yaxşı alim, həm də yaxşı insandır. Əlindən gələn köməyi əsirgəməmək, hər kəsə, xüsusən də gənclərə doğru yol göstərmək, insanlara yalnız yaxşılıq etmək, qayğı göstərmək onun həyat kredosudur. Mübaliğəsiz deyə bilərəm ki, Hüseyn müəllimin adı çəkiləndə onu tanıyanların beynində xoş bir hiss oyanır...

...İsti bir yay günündə ilk iş yerim olan Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutuna tələsirdim. İçərişəhərdə tariximizi əks etdirən abidələrin önündən keçərək, Folklor İnstitutuna daxil oldum. Pilləkənləri tez-tez qalxırdım ki, ciddi görkəmli, ilk baxışda zəhmli görünən bir şəxslə rastlaşdım.

– Sizə nə lazımdır? – deyə soruşdu.

Bu zabitəli və sərt səslənən sualdan çaşaraq, ayaq saxladım və həyəcanlı, titrək bir səslə direktorun otağına necə keçə biləcəyimi ondan soruşdum. Sifətində təbəssüm göründü...

Sən demə, qarşıma çıxan və ilk baxışdan mənə zəhmli görünən bu insan institutun direktoru, filologiya elmləri doktoru Hüseyn İsmayılovun özüymüş. Amma onun zəhmli göründüyü qədər də qayğıkeş olduğunu sonralar bildim. Məni elə həmin gün rəhbərlik etdiyi institutun bilgisayar mərkəzinə işə qəbul etdi. Günlər keçdikcə Hüseyn müəllimi daha yaxından tanıdım. Elmi əsərləri, radio və televiziya ilə çıxışları onda olan yüksək mədəniyyəti, dərin biliyi, peşəkarlığı və intellekti haqqında xəbər verirdi. Azərbaycan şifahi xalq ədəbiyyatının dərindən araşdırılması, təbliği və daim yaşaması uğrunda gördüyü misilsiz işlər, bu sahədə yazdığı çox sayda monoqrafiyalar, məqalələr, kitablar onun peşəsinə sevgisi ilə

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

yanaşı, həm də onda olan Azərbaycan – Vətən sevgisinin böyüklüyündən xəbər verir. İnstitutun rəhbəri kimi Hüseyn müəllimin yüksək təşkilatçılıq qabiliyyəti və insani keyfiyyətləri bizi valeh edir. İnstitutda keçirilən elmi konfranslar və yaradıcılıq gecələri buna əyani sübutdur. Onunla işlədiyim müddətdə başa düşdüm ki, o, necə incə qəlbli, xeyirxah və mehriban insandır. Hamı təsdiq edər ki, o, biz gənclərə əsl atalıq qayğısı göstərib. Beləliklə, mənim qəlbimdə yaranan ilk təəssüratdan artıq əsər-əlamət qalmayıb.

Hüseyn İsmayılova bizə əsl həyat dərsi keçən bir müəllim kimi baxıram. Ona can sağlığı, uzun ömür və işlərində yeni-yeni uğurlar arzulayıram!

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**MÜNDƏRİCAT**

**Tərtibçidən...........................................................**
**3**
**Redaktordan........................................................**
**5**
***Mahmud Kərimov.*** Müasir «folklor hərəkatı»nın rəhbəri......7
***Tofiq Hacıyev.*** Təşkilatçılıqla elmi səviyyə birləşəndə.........12
***Sədnik Paşa Pirsultanlı.*** Alim dostum Hüseyn İsmayılov,
yaş gününüz mübarək!..................................................14
***Məhərrəm Cəfərli.*** Hüseyn İsmayılov və milli poeziyanın
ulu qaynaqları..................................................................17
***Hacı Seyfəddin Qəniyev.*** Şah əsərini yaradacaq......................26
***Elxan Məmmədli.*** Qaya kimi sərt, ipək kimi zərif dostum...30
***Rza Xəlilov.*** H.İsmayılov – folklorumuzun fədaisi...............36
***Oruc Əliyev.*** İşıqlı həyat yolu................................................39
***Əzizxan Tanrıverdi.*** Azərbaycan folklorşünaslığının
görkəmli numayəndəsi..................................................44
***Xəliyəddin Xəlilli.*** Nənəmin nağıllarındakı alim və
sözü butöv kişi dynyasını xatırladan şəxsiyyət.............47
***Əziz Ələkbərli.*** Bizim o diyar qarşısında borcumuz
hələ tükənməyib...............................................................50
***Seyfəddin Rzasoy.*** Ərdəmliyin əlli beş ili.................................56
***Ağaverdi Xəlil.*** Folklor fədaisi................................................65
***Afaq Ramazanova.*** «Əsl insan haqqında povest»...................67
***Mətanət Yaqub qızı.*** Milli ruhda döyünən ürək....................69
***Elçin Abbasov, Sərxan Xavəri.*** Azərbaycan aşıq sənəti:
təşəkkülü və inkişafı konsepsiyası.................................71
***Mahmud Allahmanlı.*** Ќaqqa aşiqlikdən haqq aşığına
qədər olan sevgi və jaxud „öjçə sevgisi........................80
***Esmira Gözəlova.*** Saz sənətinin fədaisi……………………….89
***Sidqi Mustafayev.*** Hörmətli Hüseyn müəllim!......................93
***Aşıq Mahmud Məmmədov.*** Hüseyn  müəllimlə işləmək
gözəldir..........................................................................95

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

***Adil Cəmil.*** Özünə qayıdışın açarı – folklor..........................96
***Əli Kərimbəyli.*** Əlvan üfüq adamı......................................100
***Fəzail Miskinli.*** Saz-söz vurğunu........................................106
***Sahibə Paşayeva.*** Qələminiz tükənməsin!............................108
***Maşallah Xudubəyli.*** Vətən qürbətdə qaldı.........................109
***Xətayə Cəfərova.*** Göyçədən başlayan yol...........................113
***Ramil Əliyev.*** Zamana sığmayan ömür...............................115
***Yaşar Qasımzadə.*** Azərbaycan folklorşünaslığının
renessansı.............................................................................117
***Sənubər Kərimova.*** Tanrı haqqı..........................................124
***Tacir Səmimi.*** Cəfakeş alim.................................................126
***Tahir Orucov.*** Folklora bağlı ömür.....................................128
***Şakir Albalıyev.*** Uçulmaz körpü tağı..................................135
***Rüvşən Əlizadə.*** Ustadimiz, mğrşidimiz……………………137
***Qalib Sayılov.*** İşıqlı alim, səmimi insan.............................144
***Fəxrəddin Salim.*** Cəsarətin təntənəsi..................................148
***Atəş Əhmədli.*** Folklordan keçən ömür...............................150
***Atif İslamzadə.*** Keçmişlərdən gələn adam..........................153
***Alı Alıyev.*** Saz-söz xiridarına.............................................156
***Xuraman Kərimova.*** Azərbaycan folklorşünaslığının
güvənc yeri..........................................................................159
***Aşıq Altay.*** Şınıxdan Göyçənin havası gəlir........................160
***Ülkər Əliyeva.*** Sağlığında qiymət verək insanlara.............162
***Xəyalə Əliyeva.*** Kollektivin sevimlisi.................................163
***Nemət Qasımlı.*** Hüseyn müəllim, 55 yaşın mübarək..........164
***Elçin Qaliboğlu.*** Folklorda gerçəkləşən ruh yolçuluğu......168
***Zümrüd İbrahimqızı.*** Xeyirxahlığı kəlmələrə sığmayan
şəxsiyyət ömrü.....................................................................170
***Səməd Vəkilov.*** Səmimiyyət timsalı....................................171
***Hikmət Quliyev, Səfa Qarayev.*** Alim və zaman................173
***Sevinc Əliyeva.*** Zirvələrə aparan yol..................................183
***Vüsal Abiyev.*** Cəfakeş folklorşünas...................................186
***Ləman Kərimova.*** Dəyərli alim və qayğıkeş insan –
Hüseyn İsmayılov.................................................................188

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

# **Hüseyn İsmayılov – 55**

Bakı, 2009.

Nəşriyyat direktoru:
**Nadir Məmmədli**

Kompƒterd□ jı‹dı:
**Aygün Balayeva**

Kompƒter t□rtibçisi v□
texniki redaktoru:
**Ramin Abdullayev**

Yığılmağa verilmiş: 02. 02.2009
Çapa imzalanmış: 12. 03. 2009
Ka‹ız formatı: 60/84 1/32
M□tb□□ ka‹ızı: №1
□□‡mi: 192 s□h.
Tirajı: 500
Qijm□ti mƒqavil□ il□.

Kitab Az□rbaj‡an MEA Folklor İnstitutunun
Kompƒter M□rk□zind□ jı‹ılmış, "Nurlan" NPM-də
ofset ƒsulu il□ çap olunmuşdur.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

eated by Neevia Personal Converter trial version http://www.neevia.c